Hər kəs ədalətli olacaq

ƏDALƏT

## Selçuk Bayraktar İlham Əliyevə xatirə hədiyyəsi təqdim etdi



**Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 3-də Türkiyənin "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktarı qəbul edib.**

Adalet.az-ın məlumatına görə, söhbət zamanı Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün digər sahələrdə olduğu kimi hərbi və müdafiə sənayesi sahələrində də uğurla inkişaf etdiyi vurğulanıb, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Sonda dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim olunub.

## "Togg" İlham Əliyevə təqdim olundu



**Aprelin 4-də Türkiyənin ilk yerli elektromobili "Togg" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub.**

Adalet.az xəbər verir ki, bu barədə Prezidentin Mətbuat xidməti məlumat yayıb.

## İranın Azərbaycandakı səfirliyinin dörd əməkdaşı arzuolunmaz şəxs elan edildi

**6 aprel 2023-cü il tarixində İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə çağırılıb.**

XİN-dən Adalet.az-a verilən xəbərə görə, görüş zamanı İran səfirinə son zamanlar ölkəsi tərəfindən Azərbaycana münasibətdə nümayiş etdirilən təxribat xarakterli fəaliyyətə görə qəti narazılıq bildirilib. İran Səfirliyinin 4 əməkdaşının diplomatik statusa uyğun olmayan və Diplomatik Əlaqələr haqqında 1961-ci il Vyana Konvensiyası ilə ziddiyyət təşkil edən fəaliyyətinə görə Azərbaycan hökuməti tərəfindən "persona-non-grata" (arzuolunmaz şəxs) elan edildiyi İran səfirinin diqqətinə çatdırılıb və həmin şəxslərin 48 saat ərzində Azərbaycan ərazisini tərk etməsi tələb edilib.

## Qəzet və saytlara verilən maddi yardımlar vergilərdən azad olundu

**Azərbaycanda qəzet və saytlara verilən maddi yardımlar vergilərdən azad olunub.**

Adalet.az xəbər verir ki, bu, Prezident İlham Əliyevin təsdiqlədiyi Vergi Məcəlləsinə dəyişiklikdə əksini tapıb.

Məqsəd medianın inkişafının təşviqi və media subyektlərinin fəaliyyətini stimullaşdırmasıdır. Belə ki, dəyişikliyə əsasən, media subyektlərinin (kütləvi informasiyanın dərc olunması və (və ya) yayımlanması olan fiziki (jurnalistlər istisna olmaqla) və ya hüquqi şəxslərin) öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlərin, o cümlədən reklam gəlirlərinin gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilir.

Qərar bu ilin yanvar ayının 1-dən tətbiq olunmaqla 3 il müddətində qüvvədə olacaq və audiovizual media subyektlərinə şamil edilmir.

## Ədalət Muradov 4 yeni dekan təyin etdi



**Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 4 dekan vəzifəsinə təyinatlar olub.**

Adalet.az xəbər verir ki, bununla bağlı rektor Ədalət Muradov əmr imzalayıb.

Əmrə əsasən, Hafis Hacıyev Maliyyə və Mühasibat fakültəsinin, Elçin Eyvazov İqtisadiyyat və İdarəetmə fakültəsinin, Elçin Səmədov Mühəndislik fakültəsinin, Elman Cəfərov isə Rəqəmsal İqtisadiyyat fakültəsinin dekan təyin edilib.

## Fazil Mustafanı güllələyən şəxslər həbs edildi



**Deputat Fazil Mustafaya qarşı törədilmiş sui-qəsdlə bağlı saxlanılan şəxslər barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı DTX İstintaq Baş İdarəsinin müstəntiqi tərəfindən verilən vəsatətlərə baxılıb.**

Adalet.az xəbər verir ki, Səbail rayon Məhkəməsində hakim Ülviyyə Şükürovanın sədrliyi ilə keçirilən prosesdə saxlanılanlardan 3 şəxs barəsində 4 ay müddətinə, 1 şəxs barəsində 3 ay müddətinə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, martın 28-də saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında - Bakı şəhəri, Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Babək küçəsi ev 2 "Z" ünvanında "Kalaşnikov" konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib.

Terror aktı nəticəsində Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

Faktla bağlı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq baş idarəsində Cinayət Məcəlləsinin 277 (dövlət xadiminin və ya ictimai xadimin xidməti və ya siyasi fəaliyyətinə son qoymaq və ya bu fəaliyyətə görə qisas almaq məqsədilə onun həyatına sui-qəsd etmə) və 228.2.1-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı əldə etmə, saxlama, daşıma və gəzdirmə) maddələri ilə cinayət işi başlanılıb./apa


Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 13 (6006) 7 aprel 2023-cü il | Qiyməti 40 qəpik


## Türkiyədəki zəlzələdə ölənlərin sayı 50 mini ötdü



**Türkiyədə baş vermiş güclü zəlzələ nəticəsində ölənlərin sayı artıb.**

Adalet.az Türkiyə KİV-nə istinadən xəbər verir ki, bu barədə Türkiyənin daxili işlər naziri Süleyman Soylu bildirib.

Onun sözlərinə görə, həlak olanların sayı 50 min 399-a çatıb. Xatırladaq ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonunda olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub.

Güclü yeraltı təkanlardan sonra bölgədə 6,6 maqnitudayadək 13 000-dən çox afterşok qeydə alınıb. İki zəlzələ həmçinin Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə hiss edilib.

Təbii fəlakət Türkiyə və Suriyada böyük dağıntı və onminlərlə itkiyə səbəb olub. Türkiyənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olunub.

Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşüb.

# "Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir"



Bax:səh-2

## "O yeniyetmə ruhi xəstə deyil" deyən baş həkim işdən çıxarıldı



**1 saylı Respublika Psixiatriya Xəstəxanasının baş həkimi, Əməkdar həkim Ağahəsən Rəsulov vəzifəsindən azad olunub.**

Adalet.az xəbər verir ki,Bakıvaxtı.az-ın əldə etdiyi məlumata görə, səhiyyə naziri Teymur Musayev bununla bağlı əmr imzalayıb. A.Rəsulov Əmək Məcəlləsinə əsasən yaş həddi ilə əlaqədar olaraq tutduğu vəzifədən azad olunub. Ağahəsən Rəsulov 2008-ci ildən 1 saylı Respublika Psixiatriya Xəstəxanasının baş həkimi olub.

Qeyd edək ki, Bakı şəhərinin Xətai rayonu, 3 saylı uşaq evində qalan və həmin uşaq evi ilə bağlı şikayətini bildirən yeniyetmə Məhəmməd Hacıyevin 1 saylı Psixiatriya Xəstəxanasına yerləşdirilməsindən sonra bu xəstəxananın adı daha tez-tez hallandırılır. Onu da bildirək ki, A.Rəsulov bir gün əvvəl sitat-info-ya yeniyetmənin durumu ilə bağlı açıqlama verib: "O yeniyetmə ruhi xəstə deyil. Psixiatriya iki hissəyə bölünür, böyük və kiçik psixiatriya. Bunda diaqnoz sosiopatiyadır. Cəmiyyətdə özünü düzgün apara bilmir. Bir qədər narahat uşaqdır. Bunu dəlixanaya salmaq nə dərəcədə düzgündür? Uşaq evindən göndəriblər, biz də geri göndəririk uşaq evinə. Uşaq evinin müdiriyyəti onu qəbul eləmir. Qoy indi çıxış eləsin, desin ki, mən yanlış demişəm uşaq evi barəsində. O zaman uşağı qəbul edəcəklər. Uşaq evi kiminsə atasının evidir məgər, istəsən qəbul edəsən, istəməsən yox".

## Baş Prokurorluq Akif Çovdarovun işi üzrə kassasiya protesti verdi



**Ləğv edilən Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov və həmin idarənin keçmiş işçisi polkovnik Səlim Məmmədovun cinayət işi üzrə Bakı Apellyasiya Məhkəməsinin 28 dekabr 2022-ci il tarixli qərarından əmlakın xüsusi müsadirədən azad olunması ilə bağlı hissədə Baş Prokurorluq tərəfindən kassasiya protesti verilib.**

Bakıvaxtı.az xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib.

*Etibar Əliyev*

## Facebook ünsiyyət vasitəsi deyil, fərqlənmək şansıdır

Bax:səh-3

## Azərbaycanda dünyanın ən uzun tunellərindən biri inşa olunur



**"Azərbaycanın işğaldan azad edilmiş ərazilərində 40-a yaxın avtomobil yolu inşa olunmaqdadır".**

Bu barədə çərşənbə axşamı "Trend"ə "Proyapı" şirkətinin Azərbaycandakı idarəetmə heyətinin sədr müavini Akif Aygen deyib.

Onun sözlərinə görə, avtomobil tunellərinin əsas hissəsi Şuşa şəhəri istiqamətində inşa olunan yollarda cəmlənib.

"Gəncə şəhərini Kəlbəcərlə birləşdirəcək ən uzun tunelin uzunluğu 11 638 metrdir. Bu, dünyadakı ən uzun tunellərdən biri olacaq. İnşasının 2025-ci ilin sonunadək tamamlanması gözlənilir", - o deyib.

A.Aygen "Proyapı" şirkətinin Azərbaycanda avtomobil yollarının tikintisi və layihələndirilməsi sahəsində təqribən 50 layihə həyata keçirdiyini vurğulayıb.

Qeyd edək ki, Gəncə şəhəri ilə Kəlbəcəri birləşdirəcək avtomobil yolunda inşa olunan tunel Murovdağ silsiləsindən keçəcək. Tunelin təməli 21 avqust 2021-ci ildə qoyulub.

## Finlandiya NATO-ya üzv oldu



**Finlandiya rəsmən NATO-ya üzv olub.**

Adalet.az xəbər verir ki, bu barədə Polşa Baş naziri Mateuş Moravetski "Twitter"ində paylaşım verib.

Xatırladaq ki, Finlandiya alyansın sayca 31-ci rəsmi üzvü olacaq.

## Mixail Saakaşvili artıq yeriyə bilmir



**Gürcüstanın üçüncü prezidenti Mixail Saakaşvili artıq yeriyə bilmir.**

Bunu siyasətçinin vəkili Şalva Xaçapuridze bəyan edib. Onun sözlərinə görə, keçmiş dövlət başçısının saxlanıldığı "Vivamed" klinikasının açıqlamaları ilə Saakaşvilinin xəstəlik tarixçəsi üzrə qeydlər üst-üstə düşmür.

"Mixail Saakaşvili demək olar ki, artıq yeriyə bilmir. Onun çəkisi 60 kiloqramdan aşağı düşüb. Bu barədə mənə Qiuli Alasaniya (Saakaşvilinin anası - red.) məlumat verib", - deyə o bildirib. Eks-prezidentin vəkilinin sözlərinə görə, Strasburq Məhkəməsində iddia qaldırmaq barədə qərar hələ verilməyib. "Belə bir qərar hələ verilməyib. Mixail Saakaşvili hələ Strasburqla bağlı heç nə deməyib. O, məndən sənədləri alıb-almadığımı soruşdu. Ona dedim ki, hələ almamışam, başqa heç nə deməyib", - Xaçapuridze qeyd edib.

## Xəstə erməniləri Xankəndi xəstəxanasına çatdıran azərbaycanlı həkim danışdı




**"Bizə məlumat verildi ki, Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissədən keçən ərazidə bir neçə erməninin halı pisləşib və onların tibbi yardıma ehtiyacı var. Dərhal iki təcili tibbi yardım avtomobili ilə hadisə yerinə yaxınlaşdıq. Dörd nəfərdən üçünün vəziyyəti nisbətən ağır idi".**

Bunu "Report"a Xankəndi-Laçın yolunda halı pisləşən Qarabağ ermənilərinə tibbi yardım göstərən Şuşa modul tipli xəstəxanasının həkimi Vilad Əliyev deyib. Həkimin sözlərinə görə, onlara yerindəcə ilkin tibbi yardım göstərilib: "Daha sonra onları nəzarətimiz altında Xankəndidəki xəstəxanaya sağlam şəkildə çatdırdıq".

Xankəndiyə daxil olanda sevinc hissi keçirdiklərini deyən azərbaycanlı həkim qeyd edib ki, onları postda saxlayanda Azərbaycan dilində danışıblar: "Erməni xəstələrin həyatını xilas etdik. Xəstəxanaya təhvil verdikdən sonra geri Şuşaya qayıtdıq".

## Şoyqu: "Belarus artıq nüvə silahından istifadə etmək imkanına malikdir"



**"Belarus hücum təyyarələrinin bəziləri artıq düşmən hədəflərini nüvə silahı ilə vurmaq qabiliyyətinə malikdir".**

Adalet.az xəbər verir ki, bunu Rusiyanın müdafiə naziri Sergey Şoyqu deyib.

Nazirin sözlərinə görə, Belarusa nüvə raketlərindən istifadə edə bilən "İskəndər-M" sistemi də verilib.


Aqil ABBAS
aqilabbas@rambler.ru


## CƏLAL QARYAĞDININ NƏRİMANI KİROV VƏ LENİNƏ NƏ DEMƏK İSTƏYİRDİ?!



*1970-ci il idi. Nəriman Nərimanovun anadan olmasının 100 ili tamam olurdu.Ölkə bu böyük şəxsiyyətin yubileyini keçirməyə hazırlaşırdı. Amma keçirə bilmədi. Çünki Moskva qəzetlərində, yəni mərkəzi qəzetlərdə Nəriman Nərimanovu millətçilikdə ittiham edən yazılar dərc olunurdu. Ən ağır və böyük məqaləni də Stepan Şaumyanın adını unutduğum (heç lazım da deyil) oğlu "Pravda" qəzetində yazmışdı, özü də bir səhifə.*

*Heydər Əliyev də Azərbaycanda hakimiyyətə təzə gəlmişdi. Belə demək mümkünsə, hələ yerini bərkitməmişdi. Amma mübarizəsini davam etdirirdi və sonda da qalib gəldi. 1970-ci ildə açılmalı olan Nərimanovun heykəli 1972-ci ildə açıldı. Yubiley tədbirləri də keçirildi, əsərləri də yenidən çap edildi.*

*"26-lar" filmində belə bir yer var ey, Tağıyev salonda qırılmış çilçırağın qırıntısını erməni milyonçunun əlindən alır və deyir:*

*- Mən bunu Parisin göbəyindən gətirmişdim.*

*İndi Heydər Əliyev də Nərimanovu Moskvada ermənilərin və şovinistlərin əlindən aldı və Bakıda möhtəşəm bir heykəlini ucaltdırdı. Heykəlin müəllifi də Cəlal Qaryağdı idi.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Razi Nurullayevlə Tahir Kərimli Milli Məslisin foyesində söhbət edirlər.

Razi bəy:

**- Tahir müəllim, qonşumuzda 96 yaşında kimsəsiz bir arvad yaşayır, hər gün ona çörək, nə bilim xırda-xuruş ərzaq alıb aparıram. Bu gün mənə deyir ki, "Oğul, bu gecə səhərəcən fikirdən yata bilməmişəm.**





**Deyirəm görəsən sən ölləndən sonra mənə kim baxacaq.**

## İlham Əliyev: “Əminəm ki, Azərbaycan-Tacikistan münasibətlərinin çox yaxşı gələcəyi var”



**”Siz qeyd etdiyiniz kimi, Azərbaycanla Tacikistan arasında münasibətlərin yaxşı tarixi və əminəm ki, çox yaxşı gələcəyi var”.**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə təkbətək görüşü zamanı söyləyib.

Dövlətimizin başçısı deyib: ”Biz həm beynəlxalq məkanlarda, beynəlxalq strukturlar çərçivəsində və əlbəttə, ikitərəfli formatda çox istiqamətlər üzrə əməkdaşlıq edirik. Əməkdaşlığın, o cümlədən ticari-iqtisadi, sənaye kooperasiyası, nəqliyyat sahələrində dərinləşməsi üçün çox yaxşı perspektivlər var”.

### “Dövlətlərarası münasibətlərimiz dövründə çox möhkəm təməl yaratmağa nail olmuşuq”

**”Ölkələrimizin xalqları uzun müddət ərzində fəal qarşılıqlı əlaqə saxlayırlar. Çox sevindirici haldır ki, 30 ildən artıq inkişaf edən dövlətlərarası münasibətlərimiz dövründə biz çox möhkəm təməl yaratmağa və bu təməl üzərində dostluğumuzun möhkəm binasını qurmağa nail olmuşuq”.**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə geniş tərkibdə görüşü zamanı söyləyib.

”Biz həm çoxtərəfli formatda, həm də xüsusilə ikitərəfli formatda fəal qarşılıqlı əlaqə saxlayırıq. Həmişə mehriban dostlar kimi çox səmimi əməkdaşlıq edirik”, - deyə dövlətimizin başçısı vurğulayıb.

### “Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir”

**”Bu gün Tacikistan və Azərbaycan iki sabit dövlətdir. Bu gün öz regionumuzda və bütövlükdə dünyada qeyri-sabitlik ocaqlarını görəndə, zənnimcə, hər kəs anlayır ki, sabitlik inkişafın əsasıdır, təhlükəsizliyin əsasıdır. Sabitlik olmasa nə investisiyalar olacaq, nə də tərəqqi və insanların rahatlığı”.**

Adalet.az xəbər verir ki, bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında səsləndirib.

Dövlətimizin başçısı deyib: ”Xalqlarımızın milli maraqlarına əsaslanan siyasət yürüdən ölkələrimizin nümunəsi ona dəlalət edir ki, hətta inkişafın ən aşağı nöqtəsində olduqda da müdrik rəhbərlik sayəsində böyük nəticələr qazanmaq olar”.

### “Azərbaycan və Tacikistanın qardaşlıq münasibətlərinin əsası 1990-cı illərin əvvəllərində qoyulub”

**”Atam Heydər Əliyevin xatirəsinə səmimi münasibətə görə Tacikistan Prezidentinə təşəkkürümü bildirmək istərdim. O, Emoməli Şərifoviç Rəhmon ilə birlikdə ölkələrimiz arasında dövlətlərarası münasibətlərin formalaşmasının təşəbbüskarı olub və mahiyyət etibarilə onlar bu münasibətlərin əsasını qoyublar”.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı qeyd edib ki, bu gün ölkələrimiz arasında qardaşlıq münasibətlərin uğurlu inkişafı məhz 1990-cı illərin əvvəllərindəki fəaliyyətin nəticəsidir. ”O vaxt həm Tacikistan, həm də Azərbaycan böyük çətinliklərlə üzləşmişdi, ölkələrimizdə ictimai-siyasi sabitlik pozulmuşdu, təəssüf ki, həm Tacikistanda, həm də Azərbaycanda vətəndaş müharibəsi gedirdi. Ən dəhşətli müharibə qardaş qırğınıdır. Həm Prezident Rəhmon, həm də Prezident Heydər Əliyev, - hərəsi öz ölkəsində, - qanlı səhifəni çevirmək və ölkələrimizi inkişaf yoluna çıxarmaq üçün nə mümkündürsə etdilər və buna nail oldular”.

### “Bu gün biz gələcək qarşılıqlı fəaliyyətimizin konkret məsələlərini müzakirə etdik”

**”Tacikistan Prezidenti danışıqların bütün mövzularını işıqlandırdı. Hesab edirəm ki, bu gün biz çox səmərəli danışıqlar apardıq, həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşlərdə gələcək qarşılıqlı fəaliyyətimizin konkret məsələlərini müzakirə etdik”.**

Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı deyib:

”Emoməli Şərifoviçin qeyd etdiyi bütün istiqamətlər üzrə necə irəliləmək barədə dəqiq təsəvvürümüz var. Nəqliyyat-logistika sahəsində, sənaye kooperasiyasına, investisiya layihələri ilə bağlı məsələlərə dair konkret tapşırıqlar verilib”.

### “Hökumətlərarası komissiyanın növbəti iclasını bu il Tacikistanda keçirmək barədə razılığa gəldik”

**”Biz hökumətlərarası komissiyanın növbəti iclasını bu il Tacikistanda keçirmək barədə razılığa gəldik. Əminəm ki, hökumətlərarası komissiyanın iclasına qədər bizim məhz nəqliyyat-logistika qarşılıqlı əlaqələri, investisiya siyasəti, sənaye kooperasiyası məsələlərinə dair nümayəndə heyətlərinin üzvlərinə verdiyimiz bütün tapşırıqlar yerinə yetiriləcək”.**

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidenti İlham Əliyev Düşənbədə Tacikistan Prezidenti Emoməli Rəhmon ilə birgə mətbuata bəyanatında deyib. ”Məhz mədəni sahədə qarşılıqlı əlaqələrimizin möhkəm təməlini xüsusi qeyd etmək istərdim. Xalqlarımız əsirlər boyu dostluq, həmrəylik şəraitində yaşayıb, dostluq ediblər. Təsadüfi deyil ki, Azərbaycanda tacik mədəniyyətini, Tacikistanda Azərbaycan mədəniyyətini çox yüksək qiymətləndirirlər”, - deyə dövlətimizin başçısı vurğulayıb.

# Deputata atılan güllə dövlətimizə və xalqımıza qarşı atılan güllədir

**Milli Məclisin plenar iclasında deputat Fazil Mustafaya qarşı törədilmiş terror hücumu ilə bağlı çıxış edən həmkarları bu hadisəni pisləyiblər və bunu dövlətçiliyə yönəli bir akt kimi qəbul etdiklərini vurğulayıblar.**

**Deputat Bəhruz Məhərrəmov** çıxışı zamanı qeyd edib ki, həmkarı Fazil Mustafaya qarşı terror hücumu bütövlükdə Azərbaycan dövlətçiliyinə qarşı yönəlmiş, əhali arasında vahimə yaratmaq, yaxud dövlət hakimiyyət orqanlarını nəyəsə məcbur edilməsinə hesablanmış addım idi: ”Amma Azərbaycan sabit, əməliyyat şəraiti dövlətin nəzarətində olan, ictimai qayda, ictimai təhlükəsizlik tam təmin olunmuş bir ölkədir. Prezident İlham Əliyev uzunmüddətli fəaliyyət və nəhayət 44 günlük savaşla elə bir geosiyasi konfiqurasiya yaradıb ki, bu bölgədə proseslərin ümumi gedişatını Azər-





baycan müəyyən edir. Bu kimi terror aktları, bu terrorun ardınca ölkə daxilində xəyanətkar bağırışmalar nəyisə dəyişə bilməz.

Bildiyiniz kimi, Fazil Mustafaya qarşı terror hücumunda təqsirli bilinən şəxslər ən qısa zamanda yaxalandı. Bu hər kəsə, əlaxsus İranın Azərbaycandakı digər tör-töküntülərinə dərs oldu. Təbii ki, bu, son deyil, Dövlət molla rejiminin Azərbaycandakı manqurtlarına, şəxsinə aid bəzi şeyləri Qumda buraxıb Tehranda axtaran dövlət düşmənlərinə münasibətdə əməliyyat tədbirləri bundan sonra da qətiyyətlə davam ediləcək”.

### Azərbaycan dövləti güclü dövlətdir

**Milli Məclisin komitə sədri Qənirə Paşayeva** isə bildirib ki, ”Deputat Fazil Mustafaya qarşı törədilən terror aktını kəskin şəkildə qınayırıq”. Komitə sədrinin sözlərinə görə, bu işdə əli olanların cəzalarını alması istiqamətində aidiyyəti qurumların gördüyü işlər dəstəklənir:”Əminik ki, bu kimi terror işində əli və vasitəçiliyi olan, eləcə də bütün bu sistemlə əməkdaşlığı olanlar layiqli cəzasını alacaq. Deputata atılan güllə dövlətimizə və xalqımıza qarşı atılan güllədir. Bunu hər kəs belə qəbul etməlidir. Hər bir azərbaycanlı öz dövlətinin yanında olmalı və hamı bilməlidir ki, xaricdən idarə olunan bu şəbəkələrin məqsədləri və maraqları nədən ibarətdir”.

Q. Paşayeva bildirib ki, terroru törədənlərin arxasında gizlənənlər Azərbaycan dövlətini və xalqını bununla qorxuda və ya təhdid edə bilməz: ”Azərbaycan dövləti güclü dövlətdir. Dövlətimiz, xalqımız nəyin nə olduğunun yaxşı fərqindədir və terror hadisələrinin qarşısını almaq üçün bütün lazımi addımları da atacaq”.

### Azərbaycan 90-cı ilin Azərbaycanı deyil

**Deputatı Siyavuş Novruzov** isə bildirib ki, İranın nə əqidəsi, nə inancı, nə də inamı var. Burda oturanlar isə əqidəli, inanclı və inamlı insanlardır: ”Deputat Fazil Mustafa qarşı edilən terror aktını Azərbaycana qarşı törədilən terror kimi qiymətləndirirəm. Bu məsələ ilə bağlı öz mövqeyimizi açıq şəkildə ortaya qoymalıyıq. Bundan sonra biz nə etməli və hansı addımları atmalıyıq?! Peyğəmbərimizin gözəl ifadəsi var idi: ”Əqidəsi olmayan insanın nə inancı, nə də inamı olar”. Bu sözdən çıxış edərək deyə bilərik ki, İranın nə əqidəsi, nə inancı, nə də inamı var. Burda oturanlar isə əqidəli, inanclı və inamlı insanlardır. Burdakı insanlar Azərbaycan xalqına, dövlətinə, Prezidentinə inananlar, onun ətrafında sıx birləşənlərdir”.

S.Novruzov bildirib ki, həmin şəxslər bu terror faktı ilə bağlı gözümüzü qorxutmaq istəsələr də, səhv edirlər: ”Bizim üzərimizə sovet qoşunları gəlib, 5 dəfə hakimiyyət çevrilişi etmək istəyiblər. Ulu öndər Heydər Əliyevin yürütdüyü siyasətlə Azərbaycan xalqı rahat nəfəs alır. Heç də sevinməsinlər ki, bu kimi hərəkətlərlə nəyəsə nail ola biləcəklər. Biz öz əqidəmizlə Prezidentin müsəlləh əsgərləriyik”.

O söyləyib ki, İran dövləti Naxçıvan ərazisinə yaxın yerlərə qoşun yığıb: ”Orada döyüşməyə də hazırıq. Qoy bilsinlər ki, Azərbaycan 90-cı ilin Azərbaycanı deyil. Bu gün Azərbaycan güclü dövlətdir. Həmçinin güclü rəhbəri və komandası var. İranın əlal-



tılarına da xəbərdarlıq edirəm ki, özlərini yığışdırsınlar. Qulaqlarını da açıb eşitsinlər ki, bizim də kifayət qədər gücümüz və qüvvətimiz var”.

### Terrorun Ramazan ayında baş verməsi...

”Fazil Mustafaya qarşı silahlı hücuma Milli Məclisdə hüquqi-siyasi verir, sifarişçiləri və təşkilatçıları ifşa edilən qəsdin məhz terror aktı olduğunu təsdiqləyib. Fazil Mustafaya qarşı terrorun Ramazan ayında baş verməsi sifarişçilərin islama, etiqadlı insanlara, müsəlmanlara münasibətinin göstəricisidir”. Bunu **Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc** çıxışı zamanı deyib.

Onun sözlərinə görə, martın 2-də Hacı Şahinin müəmmalı ölümü, martın 4-ü hipermarketə hücum, martın 9-u Bakıda silahlı atışma və martın 28-i millət vəkilinə sui-qəsd vahid bir zəncirdə birləşir - terorun silahı nə olursa-olsun, pistolet, avtomat, yoxsa, bomba, onun əsas niyyəti xalqın üzərində dövlətdən üstün hakimiyyət qazanmaq, qorxu, xof və panika ilə ictimai təhlükəsizliyə zərbə vurmaq və bu yolla dövlət siyasətlərinə təsir göstərməkdir:

”Terror aktı Azərbaycan dövlətinin sülh quruculuğu naminə həyata keçirdiyi siyasətə inamı sarsıtmaq məqsədi daşıyır. Fazil Mustafayaya qarşı terrorun Ramazan ayında baş verməsi sifarişçilərin islama, etiqadlı insanlara, müsəlmanlara münasibətinin göstəricisidir. Əslində terrorçuların dini və milli mənsubiyyəti yoxdur, onların hədəfi təkcə dövlət, xalq və fərdlər deyil, həm də müqəddəs kitablardır. Son aktı törədənlər Danimarka və Niderlandda Quran kitabını yandıranlardan fərqlənmirlər. Orucluq ayında iftardan çıxan inanclı bir adama qarşı terror aktı törədənlər Zori Balayanla, Yaxın Şərqdə din bayrağı altında edamlar həyata keçirən İŞİD-la eyni səngərdədilər. Ona görə də silahlı dindarları, islam tarixində yüksək mərtəbə tutan İmam Hüseyn adına terror təşkilatı yaradanları həqiqi inanclı adamlar, bütün konfessiyaların təmsilçiləri pisləmədilər, terroru hamı lənətləməlidir”.

Z.Oruc bildirib ki, İranın casus şəbəkəsi ifşa edilir: ”Lakin Azərbaycan dövləti yüzlərlə vətəndaşımızı müxtəlif yollarla öz caynağına alan qüvvələrin şərindən qorumaq üçün qazandığı Qələbəni, əldə etdiyi hərbi strateji yüksəlkilkləri daha da möhkəmləndirəcək.

Yəqin, ötən həftə, Azərbaycanın İsraildə səfirliyinin fəaliyyətə başlamasına Hizbullah təşkilatının verdiyi reaksiyanı izlədiniz. Ölkəmizi radikal cihadçı və din bayraqlı hərbi təşkilatlarla toqquşdurmaq üçün Qərblə region dövlətləri arasında unikal bir müttəfiqlik var. Yenidən terror



ola bilərmi sualına cavab odur ki, Azərbaycan heç bir dövlətlə süni gərginlik axtarmır və üçüncü qüvvələrin forpostu olmağa can atmır”.

Qeyd edək ki, 28 mart 2023-cü il tarixdə saat 21:51-də Azərbaycan Respublikası Milli Məclisinin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında ”Kalaşnikov” konstruksiyalı avtomat silahından atəş açılaraq terror aktı törədilib. Fazil Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb.

**Nicat Novruzoğlu**

# Daha bir casus əməliyyatı: "Kərimə" dövləti qurmaq istəyənlər saxlanıldı

**Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Baş Prokurorluq əməkdaşları tərəfindən bir qrup şəxsin İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində və dini təbliğat yolu ilə ələ alınaraq ölkə ərazisində sabitliyin pozulması istiqamətində törədəcəkləri cinayət əməllərinin qarşısının alınması məqsədilə birgə xüsusi kompleks əməliyyat tədbirləri həyata keçirilib.**



DİN-dən Adalet.az-a verilən məlumata görə, müəyyən edilib ki, İranda yaşayan həmin ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirci vədlər müqabilində ələ alaraq ona ölkə ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə şəriət qanunları ilə idarə olunan ”Kərimə” dövlətinin qurulması məqsədilə ”müqavimətçi dəstə” yaratması barədə tapşırıqlar veriblər.

Arif Cümşüdov verilmiş tapşırıqlar əsasında ətrafında olan dini radikalizmi təbliğ edən tanışları - Tərzan Qaraşov, Sənan Məmmədov, Xəqani Məmmədov və İqbal Axundovu bu işə cəlb edib. O, yaşadığı evdə mütəmadi olaraq təşkil etdiyi gizli yığıncaqlarda Rufulla Axundzadə və Bəxtiyar Bayramovun göstərişlərini həmin şəxslərə çatdırıb. Dəstə üzvləri əlavə şəxslərin də cəlb edilmələri istiqamətində fəaliyyətlər göstərərək bu barədə Rufulla Axundzadəyə məlumat veriblər.

Bundan başqa Rufulla Axundzadə Bakı şəhər sakini Anar İsayevi də əməkdaşlığa cəlb edərək ona da ölkə ərazisində iğtişaşların törədilməsi yolu ilə ”Kərimə” dövlətinin qurulması üçün ”müqavimətçi dəstə” təşkil etməyi tapşırıb.

Rufulla Axundzadə yüksək maddi gəlir, silah və digər bütün lazımı dəstəyin veriləcəyini vəd edərək təşkilatlanmaları və birgə fəaliyyət göstərmələri məqsədilə Anar İsayevi Arif Cümşüdovla tanış edib.

Saxlanılan şəxslər özlərini cəmiyyətdə ”dindar” kimi qələmə verərək sosial şəbəkələr üzərindən, eləcə də insanların toplaşdığı mərasimlərdə İran və dini radikalizm lehinə təbliğat apararaq Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər.

Dəstə üzvləri eyni zamanda İrandan məqsədli şəkildə göndərilən narkotik vasitələrin satışını təşkil edərək əldə etdikləri külli miqdarda pul vəsaitini məhz Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinin maliyyələşməsinə sərf ediblər.

Bu istiqamətdə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

# Azərbaycanın təşəbbüsü ilə BMT-nin İnsan Hüquqları Şurasında qətnamə qəbul edildi

**Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə ”Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi” adlı qətnamə yekdilliklə qəbul edilib.**

Bu barədə Xarici İşlər Nazirliyindən (XİN) bildirilib.

Sözügedən qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı üzv dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub. Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş ”ASAN Xidmət” konsepsiyasına əsaslanan ”dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması” prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir.

Qəbul edilmiş qətnamə səmərəli dövlət xidmətlərinin bütün insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Dayanaqlı İnkişaf Gündəliyinin həyata keçirilməsində əhəmiyyətini vurğulayır. Rəqəmsal texnologiyaların korrupsiyanın qarşısının alınması və onunla mübarizədə oynadığı mühüm rolu ön plana çıxaran qətnamə dövlət xidmətləri sahəsində uğurlu modellər təsis etmiş BMT üzv ölkələrini öz təcrübələrini digərləri ilə bölüşməyə dəvət edir.

Qətnamə 2015-ci ildə ”ASAN Xidmət”in təltif edildiyi ”BMT-nin Dövlət Xidmətləri Mükafatı”nı dövlət xidmətlərinin göstərilməsi sahəsində dünyanın ən nüfuzlu mükafatı olaraq təsbit edir və BMT qurumlarını və digər beynəlxalq təşkilatları müvafiq sahədə mövcud olan uğurlu təcrübələri təşviq etməyə və mükafatlandırmağa davam etməyə çağırır.

Qətnamənin yekununda BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına insan hüquqlarının müdafiəsi və təşviqində və BMT-nin Dayanaqlı İnkişaf Məqsədlərinə nail olunmasında dövlət xidmətlərinin oynadığı rol barədə hesabatın hazırlanması tapşırığı verilir.

Qətnamənin yekdilliklə qəbul edilməsi və ona çox sayda dövlətlərin həmmüəllif kimi qoşulması, ”ASAN Xidmət”in təsis edilməsi və genişləndirilməsi də daxil olmaqla, ölkəmizdə insan hüquqlarının müdafiəsi və korrupsiyaya qarşı mübarizə istiqamətində islahatlara beynəlxalq ictimaiyyət tərəfindən göstərilən dəstəyin bariz göstəricisidir.

*Aqil ABBAS*

# CƏLAL QARYAĞDININ NƏRİMANI KİROV VƏ LENİNƏ NƏ DEMƏK İSTƏYİRDİ?!

*1970-ci il idi. Nəriman Nərimanovun anadan olmasının 100 ili tamam olurdu.Ölkə bu böyük şəxsiyyətin yubileyini keçirməyə hazırlaşırdı. Amma keçirə bilmədi. Çünki Moskva qəzetlərində, yəni mərkəzi qəzetlərdə Nəriman Nərimanovu millətçilikdə ittiham edən yazılar dərc olunurdu. Ən ağır və böyük məqaləni də Stepan Şaumyanın adını unutduğum (heç lazım da deyil) oğlu "Pravda" qəzetində yazmışdı, özü də bir səhifə.*

*Heydər Əliyev də Azərbaycanda hakimiyyətə təzə gəlmişdi. Belə demək mümkünsə, hələ yerini bərkitməmişdi. Amma mübarizəsini davam etdirirdi və sonda da qalib gəldi. 1970-ci ildə açılmalı olan Nərimanovun heykəli 1972-ci ildə açıldı. Yubiley tədbirləri də keçirildi, əsərləri də yenidən çap edildi.*



*"26-lar" filmində belə bir yer var ey, Tağıyev salonda qırılmış çilçırağın qırıntısını erməni milyonçunun əlindən alır və deyir:*

*- Mən bunu Parisin göbəyindən gətirmişdim.*

*İndi Heydər Əliyev də Nərimanovu Moskvada ermənilərin və şovinistlərin əlindən aldı və Bakıda möhtəşəm bir heykəlini ucaltdırdı. Heykəlin müəllifi də Cəlal Qaryağdı idi.*

*Zaman-zaman Nəriman Nərimanova hücumlar olur. İndi belə bir kampaniya yenidən başlayıb. Bu da ordan qaynaqlanır ki, Naxçıvanda Nərimanovun büstü bağdan götürülüb. Və hətta bizim ziyalılar da büstün götürülməsinə haqq qazandırır, dolayısıyla Bakı şəhərindəki heykəlinin də sökülməsinin vacib olduğunu qeyd edirlər. Hələ bir az da uzağa gedib Tiflis şəhərindəki abidəsinin də sökülməsinin vacibliyindən danışırlar, daha doğrusu, yazırlar.*

*Bir məşhur türk tarixçisi var Doğan Avcıoğlu. Onun "Milli kurtuluş tarihimiz" adlı 20 cildlik bir əsəri var. Əsərin 3-cü, ya 4-cü cildi belə adlanır: "Milli kurtuluş savaşımızda erməni və rum sorunu". Ordan qısa bir xatırlatma gətirmək istəyirəm. Yazır ki, Atatürk qəhvəsiz qalmışdı. Yəni hökumət o qədər kasıblamışdı ki, Atatürkə qəhvə almağa da pul yox idi. Atatürk müşavirlərinə deyir ki, banklardan borc alın, onlar da cavab verir ki, banklar hamısı ingilislərin əlindədi, yəni düşmən əlindədi.*



*Moskvaya nümayəndə heyəti gedirmiş, Atatürk onlara deyir ki, qayıdanda Bakıdan gəlin və doktor Nərimanovdan borc alın.*

*Moskvadan qayıdan nümayəndə heyəti Nəriman Nərimanovla görüşür və Atatürkün xahişini çatdırır.*

*Nərimanov dərhal Türkiyəyə vaqon-vaqon yanacaq,silah-sursat və 500 kiloqram qızıl göndərir. Doğan Avcıoğlu yazır ki, bu, 10 milyon altın ruble edirdi.*

*Atatürk dərhal 300 kiloqram qızılı orduya xərcləyir, silah-sursata, ərzağa, geyimə, topa-tüfəngə. Yerdə qalan 200 kiloqram qızılı isə Milli Bank yaradaraq banka qoyur. Və Doğan Avcıoğlu onu da yazır ki, türk xalqı heç vaxt unutmamalıdır ki, Milli Bankın özülü qardaş Azərbaycanın, doktor Nərimanovun göndərdiyi qızılın üzərində qoyulub.*

*Və həm də doktor Nərimanov Atatürkə məktub göndərmişdi ki, qardaş qardaşa borc verməz. Bu, hədiyyədir.*

*Nərimanovun Azərbaycana nələr elədiyini tarixçilər çox gözəl bilir və yazıb. Əslində söz tarixçilərindi. Nərimanova atılan böhtanlara onlar cavab verməlidir.*



*Mən heykəllə bağlı başqa bir məsələni yazacam. Bayaq dedim, heykəlin müəllifi Cəlal Qaryağdıdı. Mən "Elm və həyat" jurnalında işləyəndə Cəlal Qaryağdı ilə bir-iki dəfə görüşüb söhbətləşmişdim. Onun layihəsinə əsasən bu heykəl Eyfel qülləsi kimi olmalı idi. Və yollar da onun dayaqlarının altından keçməliydi. Lakin onda Nərimanovun heykəli Kirovun heykəlindən, eləcə də Hökumət Evinin qarşısındakı Leninin heykəlindən daha əzəmətli və daha uca alınırdı. Ona görə də Moskva icazə verməmişdi. Elə ona görə də postament heykəldən bir neçə dəfə kiçikdir və adi postamentdir. Dünya fırlandı, Kirovun da heykəli götürüldü, Leninin də, amma Heydər Əliyevin ucaltdırdığı Nərimanovun heykəli əvvəlki əzəmətiylə durur.*

*İndi gələk ayrı bir məsələyə. Nərimanovun heykəli qoyulandan sonra xalq arasında belə bir anekdot dolaşırdı. Kirov adına olan parkın ən hündür yerində əlini uzadıb deyir ki, Azərbaycan mənimdi. Lenin də Hökumət Evinin qarşısındakı heykəlində əlini dənizə uzadıb deyir Azərbaycan mənimdir, Bakı sənə buracan bəsdi. Gələk indi Nərimanovun heykəlinə, heykəlin önündən keçəndə diqqətlə baxın. Nərimanovun sol əlinin baş barmağı işarə barmağı ilə orta barmağının arasındadı, Cəlal Qaryağdı bununla demək istəyib ki, Nərimanov da bu işarə ilə deyir ki, alın, Azərbaycan heç vaxt sizin ola bilməz, sizə bu qala bilər.*

*Və elə də oldu. Azərbaycan nə Kirovun oldu, nə də Leninin. Azərbaycan Məmməd Əmin Rəsulzadənin oldu, Elçibəyin oldu, Heydər Əliyevin oldu və 44 günlük müharibədə qələbə çalmış İlham Əliyevin oldu.*

*Heykəlləri sökmək olar, o cümlədən Nərimanovun da. Amma həmin heykəl sahiblərini və eləcə də Nərimanovu xalqın ürəyindən və tarixdən söküb ata bilməzsiniz.*

*P.S. Naxçıvan Şəhər İcra Hakimiyyəti açıqlama yayıb ki, Nərimanovun büstü götürülməyib. Sadəcə olaraq, bağda yenidənqurma, bərpa işləri getdiyinə görə müvəqqəti götürülüb, qaytarılıb yenidən yerinə qoyulacaq.*

*Ola bilər ki, xalqın sosial şəbəkələrdə etirazından sonra fikirlərini dəyişiblər və yaxud da həqiqət onların dediyi kimidi.*

*Amma bir məsələni də yada salmaq istəyirəm. Şəkidə Füzuli adına bağda Füzulinin büstü vardı, 10 ildən çoxdur götürüblər ki, bu bağ bərpa olunacaq və yenidən büst yerinə qaytarılacaq. Dəfələrlə o bağda olmuşam, heç bir bərpa, yenidənqurma işləri görülmür, heykəlin də yeri boş qalıb.*

*Bu günlərdə Şəkidən seçilən millət vəkili Vüqar İsgəndərovla bu barədə söhbətim oldu, bildirdi ki, bu məsələnin üstünə bərk düşmüşük, bu günlərdə büst yerinə qaytarılacaq. Təki Vüqar bəyin dediyi kimi olsun.*

*Ona görə qorxuram ki, Naxçıvanda da o bağın bərpa işləri 10-15 il çəkə, Nərimanovun büstü ondan sonra yerinə qaytarıla, ya qaytarılmaya.*

*Hər halda qaytarılacağına inanıram.*



Etibar Əliyev

## Facebook ünsiyyət vasitəsi deyil, fərqlənmək şansıdır

*Facebook ünsiyyət vasitəsi deyil, fərqlənmək şansıdır. Başqalarından geri qalmamaq mərəzidir. Fb-nin ən aktiv iştirakçıları bundan "sosial müşahidə" kimi istifadə edirlər. İnformasiya cəmiyyətində qəzetləri fb səhifələri, ənənəvi televiziyaları isə İnternet televiziyalar əvəz edir.*

*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Fridrix fon Hayekin 1972-ci ildə yazdığı "Azadlığın konstitusiyası" kitabından: "Biz texnoloji imkanların inkişafının şüurumuzun üzərində nəzarəti epoxasının astanasındayıq." Yaşadığımız İnformasiya cəmiyyətində bizim bütün həyatımız İnternetin ətrafında cərəyan edir. Jurnalistlər, ekspertlər İnternetin təkamülü prosesinin bir mərhələsində anladılar ki, onların yerini bloggerlər tutublar. Jurnalist olmaq üçün Ali məktəb bitirmək, analitik düşünmək, oçerklər yazmaq, təhlillər aparmaq lazımdır. Blogger üçün bunların heç biri vacib deyil. O, özü-özünü elan edir. Başqa sözlə özü-özünün ağasıdır. O senzurasılıqdan və nəzarətsizlikdən istifadə edib istənənilən məsələyə, bir çox hallarda irrasional, subyektiv, qərəzli münasibət sərgiləyir. Burada ona ruh verən hətta şəxsiyyəti qeyr-müəyyən qalan "şəxslərin " "bəyənmə" işarəsi qoymasıdır. 2012-ci ildə Barak Obama maraqlı bir açıqlama ilə çıxış etdi: "İnternet öz-özlüyündə yaranmayıb. İnterneti alimlər dövlətin sifarişi əsasında yaradıblar. İndi isə dövlətin nəzarətindən çıxıb." Bəli, İnternet, WhatsApp-dan istifadə ölkələrə fərqli həyatı yaşatdı. Tanınmış sosioloqlardan birinin fikridir: " İnternet Kolumbiya, Afrika ölkələrində narkomaniya, adam oğurluğunu artırdı, Skandinaviya ölkələrində isə Rifah dövlətin güclənməsinə səbəb oldu."*

*Milyarderlər, Bill Geyts və Stiv Cobs uşaqlarına 14-15 yaşına qədər iPhone-dən istifadəyə qadağa qoyublar. Apple kompaniyasının Baş direktoru Tim Kuk bu yaxınlarda bildirib ki, bütün qohumlarına sosial şəbəkələrdən istifadəyə qadağa qoyub.*



Elxan Şükürlü

## KEÇMİŞİMİZƏ SAHİB ÇIXMAZSAQ...

**İnsan öz keçmişinə hörmət hissini heç vaxt itirməməli, bunun yaşadığı həyatın bir hissəsi olduğunu unutmamalı və onu davamlı şəkildə araşdırıb, öyrənməlidir. Çünki gələcək keçmişin üzərində qurulur və yaşadığın, geridə buraxdığın həyatını - keçmişindəki səhvlərini və doğrularını araşdırıb öyrənməzsənsə, gələcəklə bağlı aydın təsəvvürün olmaz və kim olduğunu, haradan gəlib haraya getdiyini də bilməz, yolunu azarsan!**

**Bu səbəbdən ağıllı və ləyaqətli insanlar, yanlışı və doğrusuyla birgə, keçmişinin hər qarışına sahiblənər, ondan imtina etməz, ancaq eyni zamanda onun əsirinə də çevrilməzlər: yanlışlarından, səhvlərindən nəticə çıxarar, onları bir daha təkrarlamamağa çalışar, doğrularını isə inkişaf etdirərlər.**

**Yalnız keçmişi büsbütün bulaşıq, ləkəli olanlar, qürurla xatırlanacaq bir yaşantısı olmayanlar onu silməyə, itirməyə, unutmağa və xatırlamamağa çalışar və "hər şey elə bu gündən başlayır" düşüncəsində olarlar.**

**Dövlətlər, xalqlar, millətlər də belədir: hansı öz keçmişinin hər səhifəsinə sahib çıxıbsa, onu dərindən araşdırıb öyrənibsə və o keçmişinə hörmət hissini də qırmayıbsa, vacib ənənə kimi bir nəsildən digərinə ötürübsə, sabit inkişaf edənlər də onlar olub; hansı öz gerçək tarixini itirməyə və əvvəlkilərin üstündən xətt çəkərək, "tarix elə məndən başlayır" deməyə qalxıbsa, itən və itirən də sonda elə özü olub...**

**Çox təəssüf ki, son illər Azərbaycanda da tariximizin böyük bir səhifəsini, xüsusən də elm, təhsil, mədəniyyət sarıdan bizi xeyli önə atmış Sovetlər dövrünü bilərəkdən silməyə, itirməyə, unutmağa və xatırlamamağa, aşağılayıb təhrif etməyə cəhdlər var. Elə davranılır ki, sanki, dünənimiz olmayıb və hər şey elə bugündən - 1991-dən sonra başlayır.**

**Və bunu edənlərin əksəriyyəti də elə dünən Sovetlər dövründə eyni cür davranan keçmişi bulaşıq, ləkəli adamlardır - onda ata-babaları önə düşüb eyni həyasızlıq və canfəşanlıqla daha əvvəlki tariximizi təhrif edir, ziyalılarımızı satır və məhv edir, milli və dini adət-ənənlərimizi itirməyə çalışırdılar, indi də özləri, uşaqları...**

**Dünən kapitalist Qərbi bəşəriyyətin bütün fəlakətlərinin baiskarı sayıb, Rusiyanı və sosializmi xilaskar kimi öyənlər, tərənnüm edənlərin özləri və övladları indi eyni şövqlə, həvəslə də Rusiyanı tənqid atəşinə tutur, ABŞ-ı, Avropanı bizə nicat qapısı göstərir, demokratiyanı "qüsursuz ideologiya" kimi xalqa sırıyırlar.**

**Dünənin ən qatı "kommunist alimlər"i indi "ən sevilən millətçi və demokrat professor"lar libasında auditoriyalarımızda dərs keçir, universitetlərimizə rəhbərlik edir; komsomol təşkilatlarının öncülləri "demokratik hərəkat"ın dəyişməz liderləridir; Allahı qandallamaq üçün axtarışa çıxan ateistlərimiz molla əbasında və əmmaməsində minbərlərdən xütbə oxuyur, xalqı doğru yoldan azmamağa çağırırlar; cəmiyyətdə ən əxlaqsız və pozğun adamlar kimi tanınanlarsa efirlərdən bizə "namuslu həyat" dərsi keçirlər...**

**Bilirsiniz, niyə?! Çünki bunların əksəriyyətinin öz keçmişlərinə, adət-ənənələrinə, ata-babalarının irslərinə, yaşantılarına hörmətləri, sevgiləri olmayıb; əksəriyyəti zatıqırıqlar, soyukəsiklərdir!**

**Öz keçmişinə, ata-babasına hörməti və əxlaqı olan bu sayaq davranmaz!**

**Əgər "köksüz", "zatıqırıq", "soyukəsik" adlanmamızı istəmiriksə, ata-babalarımızın yaşadıqları ömrün hər səhifəsinə sahib çıxmalıyıq - doğrularıyla da, yanlışlarıyla da onlar bizimdir, biz onlardanıq!**

**Biz yalnız o zaman ləyaqətli, qürurlu millət və dövlət olacağıq ki, Şah İsmayıla da, Nadir Şaha da, Qacara da, Rəsulzadəyə də, Nərimanova da, Bağırova da, Vəzirova da, Mütəllibova da, Elçibəyə də, Heydər Əliyevə də, İlham Əliyevə... də sahib çıxmağı bacaracağıq - səhvləriylə də, doğrularıyla da! Səhvlərini təkrarlamamaq, doğrularını isə inkişaf etdirmək üçün!**

**Yox, bacarmayacağıqsa, hər gələn gedəni silməyə qalxacaqsa, hamımız silinəcəyik və gələcəyə heç nəyimiz qalmayacaq!**

**Gəlin, gələcəyimizi itirməmək üçün keçmişimizə savaş açmayaq!**

## Moskvada hərbi texnika zavoduna dron düşdü

**Moskva vilayətinin Ximki şəhərində yerləşən Akademik P.D adına "Fakel" maşınqayırma zavoduna kameralı dron düşüb.**

Zavodda "Tor" və S-400 kimi hava hücumundan müdafiə sistemlərini istehsal edilir.

Dronun texniki nasazlıq səbəbindən düşdüyü bildirilir.

Qeyd edək ki, şəhər Moskvanın mərkəzindən 18 kilometr şimal-qərbdə yerləşir.

# QACARIN NƏSLİNDƏN BİR KİŞİ DƏ AZALDI

**Türk dünyasının böyük sərkərdəsi Ağa Məhəmməd şah Qacarın Şuşada, Ağdamda nəslinin nümayəndələri yaşayırdı və indi də yaşayanlar var. Məsələn, Nizami Bəhmənov - Şuşanın sabiq icra başçısı.**

Bir dəfə sabiq mədəniyyət naziri Əbülfəz Qarayevlə Qətərin paytaxtı Dohadaydıq. Bizi bir muzeyə apardılar. Muzeydə İslam dünyasının böyük insanlarının portretləri gəbə şəklində toxunmuşdu və divardan asılmışdı. Təxminən beş metr hündürlüyündə, iki metr yarım-üç metr enində böyük gəbələr idi. Gəbələrin birinin önündə donub qaldım. Və Əbülfəz müəllimi çağırdım. Çağırdım ki, bir bura gəl, o da donub qaldı. Gəbədə Şuşa şəhər İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənovun portreti idi. Amma altından yazılmışdı ki, Ağa Məhəmməd şah Qacar. İnsan insana bu qədər oxşaya bilməzdi. Yəni qan itmir, gen itmir. Bütün insanlar özlərinin dördüncü, beşinci, altıncı babasına oxşayır. Təbii ki, Nizami Bəhmənov, Qacarın övladı olmadığına görə, onun öz nəslindən deyildi, qardaşının nəslindən idi. Və Qacar nəslindən olanlar təkcə sir-sifətdən yox, həm də döyüşkənlikdə, cəsarətdə, sərtlikdə öz dədə-babalarına oxşayırlar.



Qacarların bir nəsli də Ağdamda yaşayırdı, qonşu idik. O nəsildən çıxan Əkrəm İsmayılov Birinci Qarabağ savaşında elə Qacar kimi vuruşurdu və şəhid oldu. Məndən də iki-üç yaş balaca idi. O nəslin nümayəndələrindən biri də vaxtilə Ağdamda cinayət axtarış şöbəsinin rəisi olmuş Aleko idi.



Və o nəslin dünən bir nümayəndəsi də gözlərini əbədi yumdu: Asif İsmayılov. Dəli-dolu, zarafatcıl bir oğlan, bir kişi idi. Əkrəm məndən iki-üç yaş balaca idisə, Asif də məndən iki-üç yaş böyük idi. Bir məktəbdə oxumuşduq. Heç elə də yaxşı futbol oynamasa da məktəbin komandasının kapitanı idi - dəli, doluluğuna görə.

İgid oğlan idi. Onu xoş bir xatirə ilə yad etmək istəyirəm. Deməli, Ağdam uşaqları tez-tez Leninqrada, Moskvaya alverə gedərdilər ailələrini dolandırmaq üçün. Asif də rus dilini mən ingilis dilini bilən kimi bilirdi. Deməli, həmişə rəhmətlik Allahverdi Əliyev ona tərcüməçilik etmək məcburiyyətində qalırdı. Bir gün deyir ki, Asif, sən azərbaycanca istədiyin sözləri yaz, mən də onun rusca variantını yazım, öyrən də bu dili. Yoxsa məni yığmısan boğaza ki, bu neçəyədi, bir az aşağı qiymətə verərsənmi və sair və ilaxır.

Asif bir dəftər tutur, gətirib verir Allahverdiyə. Allahverdi də fikirləşir yəqin ticarətlə bağlıdı bütün sözlər. Dəftəri açır, görür birinci söz bu yazılıb:

- Gecə qalassınız?

Ağıllı oxucu bildi də Asif nəyə işarə vurubmuş. Zamanı gəldikcə Allahverdiylə Asifin zarafatlarını yazacam.

**Yeri behişt olsun Asifin. İndi qardaşı, Azərbaycan Bayrağı ordenli Əkrəmlə Ağdamdakı həyətlərində oturub dərdləşirlər.**

**Nə isə...**

**Aqil ABBAS**

# Politoloq: "Bu əməliyyat Ermənistana bir mesajdır, Paşinyan başa düşür ki..."

**"Düşünürəm ki, əməliyyatların sakit, lokal formada, hissə-hissə aparılması əslində effetli əməliyyat kimi dəyərləndirilə bilər. Çünki əməliyyatların bu şəkildə aparılması həm də beynəlxalq arenada da səs-küy yaratmaz. Bilirsiniz ki, böyük əməliyyat olsa, beynəlxalq təşkilatlar, güc mərkəzləri Azərbaycanı qınayacaqlar. Amma onlar dərk etmirlər ki, bu ərazilər bizim öz torpağımızdır"**

Bunu Adalet.az-a açqlamasında politoloq Samir Hümbətov deyib. Politoloq Azərbaycan Ordusunun Qarabağda keçirdiyi hərbi əməliyyatların əhəmiyyətindən də danışıb:

"Ona görə də ən effektli variant odur ki, güllə atılmadan, sakit bir şəkildə bizim hərbçilərimiz həmin əraziləri nəzarətə götürürlər. Bu çox peşəkar bir davranışdır. Məncə, ən uğurlu əməliyyatlardan biri hesab edilə bilər.

Nə itki veririk, nə də səs-küyə səbəb oluruq. Artıq Şuşanın Allahqulular və Zamanpəyəsi kəndləri ordumuz tərəfindən nəzarətə götürülüb. Mən xəritədə o kəndlərin yerləşdiyi ərazilərə baxdım.

Düşünün ki, ötən dəfə ordumuz tərəfindən nəzarətə götürülən yüksəkliklər bu kəndlərin də azad olunmasına yol açdı. Halbuki o kəndlərdə ermənilər yaşamır, amma buna baxmayaraq ermənilər o kəndləri işğalda saxlayırdılar. İndi isə o kəndlər ordumuzun nəzarətinə keçib. Bundan sonra da əməliyyatların böyük əksəriyyəti bu şəkildə aparılacaq.

Görünür ki, Rusiya bunu bilsə də müəyyən məsələlərlə bağlı artıq göz yummağa məcburdur.



Beynəlxalq vəziyyətlə bağlı da görünür Rusiyanın problemləri var deyə məsələyə reaksiya vermir. Amma məncə, əməliyyatların bu şəkildə sakitcə aparılması bizim üstünlüyümüzdür. Əməliyyatlar bu şəkildə davam edəcək və Şuşanın digər kəndlərinin də Azərbaycanın nəzarətinə keçməsi gözlənilləndir. Bu kəndlərin azad edilməsi bir növ Ermənistana, Qarabağ ermənilərinə və ordakı qondarma rejimə bir mesajdır. Paşinyan Azərbaycanla danışıqlara getməyə məcburdur.

Lakin Ermənistan daxilindəki müxalifət daş atıb başını tutur ki, onlar guya buna imkan verməyəcək. Əslində Xankəndinə gedən yol bizim üçün açılmış vəziyyətdədir. Qarabağ erməniləri başa düşməlidir ki, onları nə Rusiya, nə Ermənistan, nə də qondarma rejim qoruya bilməyəcək. Ona görə də onların ən yaxşı variantı Azərbaycanın nəzarəti altında yaşamalarıdır.

Hesab edirəm ki, bu əməliyyatda çox mesajlar verildi. Yəni bizim istədiyim vaxt təkcə silahla deyil, həm də sakit şəkildə həmin əraziləri nəzarətə götürmək imkanımız var".

**Vasif Əlihüseyn**

# «Ermənistana mesaj göndəririk ki, bir qarış torpağımız belə...»

**"Şuşanın iki kəndinin ordumuzun nəzarətinə keçməsinin həm siyasi, həm də hərbi nöqteyi-nəzərdən böyük əhəmiyyəti var. Hərbi nöqteyi-nəzərdən odur ki, işğalda olan əraziləri tədricən azad edirik. İkinci Qarabağ müharibəsindən sonra ərazilərin böyük hissəsi azad olunub, amma təəssüf ki, hələ də separatçıların nəzarətində olan ərazilər də var"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Elxan Şahinoğlu bildirib. E.Şahinoğlu bu əməliyyatların Ermənistanın manevr imkanlarını daraltdığını deyib:

"Amma tədricən bu proses də sürətlənir. Siyasi əhəmiyyəti də odur ki, biz erməni separatçılarına və Ermənistanın özünə mesaj göndəririk ki, bir qarış torpağımız belə işğalda qala bilməz. Nə



qədər ki, gec deyil birinci Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanısın, ikinci də ki, Qarabağ erməniləri də Azərbaycan qanunlarıyla yaşamağa alışsınlar. Bu bizim bu yolla onlara verdiyimiz mesajdır. Onların da manevr imkanları getdikcə daralır. Laçın yolu istiqamətində sərhədlər də yaradırıq. Çünki illər uzunu bizim o hissədə sərhədimiz olmayıb. Azərbaycan müstəqillik qazanandan sonra da işğal başlayıb, boşluqdan istifadə edib Azərbaycan ərazisinə daxil olublar. O istiqamətdə də bizim fəaliyyətimiz davam etməkdədir. Bu həm Ermənistan, həm də Qarabağ separatçılarının manevr imkanlarını daraldacaq.

Şuşanın bir neçə kəndi hələ işğaldadır. Məsələn, mənim doğma kəndim Malıbəyli erməni işğalı altındadır, ermənilər orda hərbi obyektlər tikirlər. Quşçular kəndi də ermənilərin işğalı altındadır. O kəndlərin də azad olunması da vacibdir. Amma görünür onların azad olunması bir az zaman tələb edir. Çünki indiki kəndlər Laçın yolu istiqamətindədir, amma o kəndlər isə Xankəndinə yaxındır. Lakin bütün mənalarda Şuşanın da kəndləri hədəfimiz odur ki, azad olunmalıdır. Bizim üçün müqəddəs olan Xocalı qəsəbəsi var ki, indi orda Rusiya hərbi kontingentinin qərargahı yerləşib. Ora da azad olunmalıdır. Amma bu o demək deyil ki, ermənilərin yaşadığı yerlərə biz daxil olmayacağıq və nəzarətsiz qalacaq. Xankəndində yaşayan ermənilər də sonda anlamalı olacaqlar ki, iki il sonra bizim tələbəmizlə Rusiya sülhməramlıları bölgəni tərk edəcək və bizim qanunlarla yaşamalı olacaqlar. Orda da Azərbaycan bayrağının dalğalanmasına alışmalıdırlar".

Qeyd edək ki, ordumuzun son əməliyyatından sonra Şuşanın Allahqulular və Zamanpəyəsi kəndləri nəzarətimizə keçib.

**Vasif Əlihüseyn**

## Abramyan: "Düşmən ordusu Qarabağda 5-6 istiqamətdə irəliləyib mövqelərini gücləndirirlər"

**Xəbər verdiyimiz kimi, Xankəndi istiqamətində mümkün torpaq yollara da Azərbaycan ordusu nəzarət edir.**



Adalet.az xəbər verir ki, Ermənistan parlamentinin deputatı Tiqran Abramyanın açıqlaması da bunun doğru olduğunu təsdiqləyib . Beləki, Aravot.am-a danışan deputat bildirib ki, Azərbaycan hərbçiləri Qarabağın dağlıq hissəsində yollara nəzarəti gücləndirir:"Azərbaycan hərbçiləri Xankəndi-Turşsu torpaq yolu istiqamətində irəlilədikdən sonra bir neçə on kilometrlik genişləndirmə, yerləşdirmə və möhkəmləndirmə işləri aparırlar".

Abramyan əlavə edib ki, Azərbaycan hərbçiləri 5-6 istiqamətdə daha əlverişli mövqelər tutdular: "Elə istiqamətlər var idi ki, orada irəliləmək mümkün deyildi, amma Azərbaycan hərbçiləri 5-6 istiqamətdə daha əlverişli mövqelər tutdular".

Qeyd edək ki, polkovnik Üzeyir Cəfərovun dediyi ki, ərazi Azərbaycana məxsusdur:" Çünki indiyə kimi Laçın-Xankəndi yoluna alternativ olan torpaq yollarla separatçılara silah-sursat, hərbi texnika daşınıb. Amma Azərbaycan ordusu artıq bu yollara nəzarəti götürüb. Buna baxmayaraq ərazidə bəzi yollarda onların çıxış imkanları hələ də qalıb"

**Əntiqə Rəşid**

## "Ermənistan Qarabağdakı separatçı ermənilərlə tam əlaqəni kəsməlidir..."

**"Martın 25-dən başlayaraq Azərbaycan Ordusu əməliyyatlar keçirməklə Şuşanın Allahqulular, Zamanpəyəsi kəndləri və stareji yüksəkliklər nəzarətimizə keçdi. Hesab edirəm ki, bu əməliyyatlar davamlı olacaq"**

Bunu Adalet.az-a açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Politoloq tezliklə Xankəndində üç rəngli bayrağımızın dalğalanacağını bildirib: "Biz Xankəndində üçrəngli bayrağımızı qaldırmalıyıq. Həmçinin bununla göstərdik ki, bizim qarşımızda heç kim dayana bilməz. Dövlət başçısı İlham Əliyev də bu xüsusda açıqlama vermişdi. Göründüyü kimi biz Ağdərədə də irəliləyib Xocalıda da öz nəzarətimizi bərpa edəcəyik. Bu istiqamətdə addımlar atılır. İlk növbədə məqsəd Ermənistanla Azərbaycan arasında Laçın dəhlizində post qoymaqdır. Bu post qoyulduqdan sonra erməni silahlı birləşmələrinin də tərksilah edilməsi istiqamətində addımlar atılacaq. Təkcə Şuşanın kəndləri deyil, separatçıların işğalında olan bütün kəndlər Azərbaycanın nəzarətinə keçəcək. Prosesdə Azərbaycan özünü buna uyğun aparır. Məhz Şuşanın bu iki kəndinin müharibədən iki il yarım sonra nəzarətimizə keçməsi onu göstərir ki, Azərbaycan artıq müəyyən problemlərlə barışmır. Digər kəndlərin də nəzarətimizə keçməsi istiqamətində addımlar atacaq. Hesab edirəm ki, erməni separatçıları bundan ciddi şəkildə nəticə çıxarmalıdır bilməlidirlər ki, Azərbaycan Ordusu dayanmır və prosesi davam etdirəcək.



Bununla biz Ermənistana mesaj veririk ki, konkret olaraq Qarabağdakı separatçı ermənilərlə tam şəkildə əlaqəni kəsməlidir. Reinteqrasiya prosesinə mane olmamalıdır. Mane olacaqsa, qarşısında Azərbaycan Ordusunun həmlələrini görəcək".

**Vasif Əlihüseyn**

Rüstəm Hacıyev

## Makronun Çin səfəri uğursuz alınacaq...



*Özünü siyasi aləmdə hələ də vacib persona kimi qələmə verməyə çalışan Fransa prezidenti Emanuel Makron, Çinə səfəri zamanı ÇXR-in sədri Si Tzenpini Rusiya lideri Vladimir Putinlə yaxınlaşmamağa inandırmağa çalışacaq.*

*Bu barədə məlumat verən Politico qəzeti bildirir ki, Makron Si ilə bir neçə saat müzakirələr aparmaq niyyətindədir. "Siz Si ilə diskusiya apara biləcək dünya liderlərinin sayını bir əlinizin barmaqları ilə saya bilərsiniz"- deyə adının anonim saxlanılması istəyən Yeliseyev sarayının məsləhətçisi qəzetə bildirib.*

*Makron, Çin hökumətini Ukraynaya dəstək olmaq üçün böhranın aradan qaldırılmasına dəstək olmağa çağırmaq istəyir. Lakin avropa ölkələrinin siyasiləri Fransa prezidentinin bu yolda müvəffəqiyyət qazana biləcəyinə şübhə ilə yanaşırlar və inanmırlar.*

*Avropalı siyasilərin fikirincə, Çin lideri Fransa prezidentinin xahişini çətin ki, yerinə yetirəcək və Sakit okean hövzəsində aktiv hərbi hərəkətlərindən geri çəkiləcək. "Makronun daha əvvəllərdə Ukrayna münaqişəsinin həllində vasitəçilik etmək istəyi, İranın nüvə proqramını dayandırması üçün etdiyi cəhdlər nəticə verməmişdi. Ona görə də, ABŞ və digər dövlətlərin rəhbərləri onun Çində nələrəsə nail olacağına inanmırlar"- deyə məlumatda bildirilir.*

*Fransa prezidentinin Çinə səfəri zamanı Pekini Rusiya ilə hərbi razılaşmalardan çəkindirmək niyyəti də baş tutmayacaq. Çin Xalq Respublikasının sədri Si Tzenpin çətin ki, heç öz ölkəsində də kifayət qədər nüfuzu olmayan Makronun sözləri ilə Rusiya prezidenti Vladimir Putinlə əlaqələrini dayandırsın.*

*Beləliklə, Fransa prezidfnti Emanuel Makronun Cin Xalq Respublikasına səfərindən ümidverici nəticələr gözləməyə dəyməz.*

Emin Piri

## BİZİ OYADAN APEL



*Çox vaxt işğal günlərində rast gəlirdim, xatırlayanlar daha çox Qarabağdakı səfalı meşələrdən, bulaqlardan, yeyib-içmək məclislərindən bəhs edirlər.*

*Əlbəttə, Qarabağ dünyanın səfalı yerlərindəndir. Bəs, biz onu bu səfasına görəmi sevməliyik?*

*Əgər o torpaqların yerində şoran, hər hansı təsərrüfata yaramayan ərazilər olsaydı, unutmalıydıqmı? Vətən axı qum dənəcikləri ilə də, daşıyla da əzizdir, müqəddəsdir.*

*Ya da bir məktəblinin sarkazmla ifadə etdiyi "hər il 8 mayda ermənilərin Şuşanı tutacaqlarını bilirik - bəs niyə qabaqlarını almırıq?" sualı qarşısında əzilməkdən daha yaxşıdır ləyaqətli cavabı verə bilmək cəsarətinə sahib olmaq...*

*Heç nə yox, böyük türk sərkərdəsi Metenin bu məsələ ilə bağlı kiçik olayını xatırlatmaq torpağın hansı anlama gəldiyini göstərər.*

*"Hun İmperatorluğuna Mete xanın yiyələnməsini həzm edə bilməyən Çin onun güclənməsinə imkan verməmək üçün hunların üzərinə hücum üçün bəhanə axtarırdı. Belə bir bəhanə isə ələ düşmürdü. Ona görə də Mete xanın üzərinə hücum etmək üçün Çin müxtəlif planlar hazırladı. Çin hökmdarı Hun sarayına elçisini göndərərək, onun ən sevimli atını istədi. Daima ölkədaxili problemləri demokratik yolla həll etməyə adət edən Hun sarayında bununla bağlı böyük bir qurultay keçirildi.*

*Mete xan sarayın başbilənlərinə Çin hökmdarının istəyini çatdırır. Saraydakılar atın verilməsinin əleyhinə çıxırlar. Lakin Mete xan: "At mənimdir, mən onu verəcəyəm", - deyir və sevimli atını Çin hökmdarına göndərir.*

*Mete xanın bu hərəkəti qorxaqlıq kimi qiymətləndirilir və bu dəfə Çin hökmdarı vaxtilə Hun sarayına göndərilən şahzadə xanımın verilməsini tələb edir. Mete xan bu dəfə də qurultay çağıraraq məsələni onlara danışır. Bu dəfə də qurultay iştirakçıları Çinin təklifinə rədd cavabı verirlər.*

*Amma Mete xan bu məsələnin də onun özünə aidiyyəti olduğunu bildirərək, şahzadə xanımın verilməsi barədə qərar qəbul edir. Çin sarayında isə Mete xanın bu hərəkətlərindən heyrət içində idilər. Hun İmperatorluğunun ən cəsur bir sərkərdəsi hesab edilən Mete xan bir-birinin ardınca onlara güzəştə gedirdi.*

*Bu da Çin hökmdarında Hun torpaqlarını işğal etmək iştahı əmələ gətirdi.*

*Bu dəfə Hun sarayına göndərilən elçi Çinlə sərhəddə yerləşən daşlıq və qayalıqdan ibarət olan ot bitməyən bir ərazinin verilməsini tələb etdi. Yenə də Mete xan qurultay topladı və onların məsələ ilə bağlı fikirlərini soruşdu. Qurultay iştirakçıları: "Ey hökmdar, o torpağı ver getsin, onsuz da orada heç ot da bitmir" - dedilər. Mete xan isə bunun qeyri-mümkün olduğunu bildirdi. Belə olduğu halda, qurultay iştirakçıları ona dedilər:*

*"Axı sənin ən sevimli atını istədilər verdin, ən sevimli çinli şahzadəni istədilər, verdin. Bəs indi bir parça ot bitməyən daşlıq və qayalığın verilməsinə niyə razı olmursan?".*

*Mete xanın onlara cavabı isə çox ibrətamiz oldu: "Atımı istədilər, verdim, çünki mənə məxsus idi. Şahzadəni istədilər, verdim. Çünki onun üzərində mən hökmran idim. Amma torpaq millətindir və babalarımız onu qan axıtmaqla qoruyublar. Millətin malını isə heç kimə verməRəm. Torpaq istəyənlərin bircə cavabı var: onlarla savaşa girmək. Ona görə də mən əmrimi verirəm: hazırlaşın, düşmən üzərinə gedirik!".*

*2016-nın apreli...*

*Göz yaşları axdı. Anlamamaq mümkün deyil. Amma qurban verilən canlar bizə nələri qazandırmadı ki... İşğal altında olan torpaqlar tam azad edilməsə də, elə o bir neçə yüksəkliklə ruhumuzda o azadlığın təməli qoyuldu. Qazanmağın yolunu göstərdilər. Qələbə qoxusunun nəfəs qədər yaxın olduğunu sübut etdilər.*

*Onlar bizə anlatdı. Anlatdı ki, əsgəri anlamaq üçün, azadlığı duymaq üçün bulvarın yox, səngərin qoxusunu udmalısan!*

*Utandırdılar. Utandırıb içimizdəki ölmüş məni oyatdılar. Anlatdılar ki, vətən sevgisinin, azadlığın nə olduğunu, əsgərin nə çəkdiyini bilmək üçün virtual inqilabçı yox, gecə sübhə kimi, - 20 dərəcədə və ya yayın qaynar istisində çiynində silah düşmən qarşında durmalısan!*

*Hamı gördü ki, heç nəyə baxmayaraq, xalq bəzilərinin dediyinə rəğmən, yatmayıb. Qarabağı unutmayıb. Əsgərinə biganə deyil. Ürəyi cəbhənin nəbzilə vurur. Və hər an əsgərinə sahib çıxmağa hazırdır.*

*Xalq göstərdi ki, ölkənin işğaldan kənarda olan bütün ərazisi hər an arxa cəbhə olmağa hazır və qadirdir.*

*Bəzi bəsit köşələrlə kosmopolit siması yaradıb bəlkə də gələcəyin hansısa mükafat almaq iddiasında olan, özünü fərqli göstərmək istəyən yazarların xalq üçün heç bir əhəmiyyət daşımadığını göstərdi. Göstərdi və xalqın ürəyinin səngərlə döyündüyünü sübut etdi.*

*Vətən statuslarını yazanları lağ oyektinə qoyanları da gördük, gələcək siyasi karyerasını düşünüb lağa qoymasa da, susanları da. Gördük və qeyd etdik beynimizin bir guşəsinə...*

*Kiminin ayağını mina qızdırır, kiminin ayağını Bakı asfaltı. Və durub yayın istisindən, Azərbaycan haqqında deyilən şirin sözlərin qaynarlığından şikayət etdilər.*

*Kiminin alnından, kiminin ürəyindən, kiminin gözlərindən öpdü güllələr. Qarşısında bir məzar və şəkil qalan anaların əlindən öpürəm. Bu xalqı titrədib, içindəki mənliyi oyatdığını görə, Azərbaycanı ruhən bir etdiyinə görə!*



*Faiq QİSMƏTOĞLU*
*faiqqismetoqlu@box.az*

## Əlindən öpdüyüm Həqiqət müəllimə

**...Deyirlər ki, bir Peyğəmbərin, bir də müəllimin əlindən öpmək olar. Çünki məktəb - Məkkə, müəllim isə Peyğəmbərdir. Allahdan sonra biz bu iki şəxsiyyətə həmişə hörmət bəsləmişik, ən azından ona görə ki, onlar bizə Allahın yolunu göstərib və düz yolda olmağımızı tövsiyyə edib. Bundan gözəl nə ola bilər?!**

**...Mənim ibtidai sinif müəlliməm, daha doğrusu, IV sinifdə dərs demiş Həqiqət müəllimə ömrüm boyu yadımdan çıxmır. Düzdü, mən onu yaddan çıxarmıram və o da bizi unutmur. Elə bir xeyrimiz-şərimiz olmaz ki, orada iştirak eləməsin. Allah ölənlərinizə rəhmət eləsin, qardaşım Elxanın il məclisində başım çox qarışıq idi. Qonaq-qaramız nəzərdə tutulduğundan da çoxuydu. Bir də gördüm ki, mamam oğlu Tehran başıalovlu məni axtarır. Axır ki, gəlib məni tapdı. Və dedi ki, ay rəhmətliyin oğlu, bayaqdan Həqiqət müəllimə səni gözləyir, hardasan?! Mən vaxt itirmədən qapının ağzında duran Həqiqət müəlliməyə yaxınlaşdım. Məni görən kimi gözləri doldu və bağrına basdı. Yəni, bu o demək idi ki, sənin ən ağır günündə qorxma, müəllimən yanındadı! Atam rəhmətə gedəndə də, anam dünyasını dəyişəndə də, böyük qardaşım haqq dünyasına qovuşanda da, bax beləcə məni bağrına basmışdı, ana məhəbbəti ilə dərdimə şərik olmuşdu. Mən də onu qucaqladım, ancaq əlindən öpdüm və əlindən öpməklə bir anlıq ömrümün düz IV sinifdə oxuduğum anlarına qayıtdım...**

**...Onda IV "a" sinfində oxuyurdum. Heç elə də yaxşı dərslərimə hazırlaşmırdım. Həqiqət müəllimə də həmin ili ali məktəbi yenicə bitirmişdi və ilk dəfə bizə dərs deyirdi. Çox tələbkar, intizamlı, odlu-alovlu və savadlı bir ziyalı idi. Həm də həddindən artıq gözəl idi. Müəllimə kimi, insan kimi və ən nərhayət anamız kimi gözəl idi. İlk dərsdən zəif uşaqları axtarıb, tapdı və o, zəif uşaqları qısa zamanda öyrətməyi bacardı. Ən zəif uşaqlardan biri də mən idim. Çox vaxt dərsə hazır gəlmirdim. Bu da müəlliməni çox əsəbləşdirirdi. Soruşurdu ki, niyə dərsə hazır deyilsən?! Deyirdim ki, müəllimə oxuyuram, yadımda qalmır. Müəlliməsə özünəməxsus bir təmkinlə bildirirdi: "Sən çalış, əziyyət çək, dediklərimi yadda saxla və görəcəksən ki, yavaş-yavaş hər şey öz yerinə qayıdır". Doğrudan da, birinci rübdə çox çalışdım, çox əziyyət çəkdim, gördüm ki, müəllimə düz deyirmiş, bütün dərslər yadımda qalır və birinci rübü 4-5-lə başa vurdum. Sonrakı rüblərdə isə əlaçı oldum...**

**Bilirsiniz, nəyin hesabına?! Hamısı Həqiqət müəllimənin zəhməti hesabına! Məni hamıdan yaxşı oxuyan mama oğlu Təbrizə tapşırmışdı. Demişdi ki, Faiq dərsini bilməsə, birinci səni çubuqla döyəcəm. O, da yalvarıb-yapışırıdı ki, dayı oğlu, məni Həqiqət müəlliməyə döydürmə! Amma bir-iki dəfə dərsimi bilmədiyimə görə, müəllimə onu çubuqla döymüşdü, sonra da məni çubuğun altına salmışdı və bu çubuq bizə elm öyrətdi, tərbiyə verdi, düz yol göstərdi və axırda da adam elədi, istədiyimiz ali məktəbə girib, seçdiyimiz ixtisasa yiyələndik...**

**...O, tək məni çubuqla döymürdü, dərsini bilməyən şagirdlərin hamısını o, çubuğa "qonaq" eləyirdi. Bacısı oğlu Baratı, Zülfüqarı, Əsgəri, Şakiri, Rəfaeli, Zakiri... ümumiyyətlə, dərsini bilməyən hər birimizi bu çubuqla qorxuzurdu. Bizim slinifdə Həqiqət müəllimənin dərs dediyi dövrdə 30 nəfərdən 25-i əlaçı çıxdı. Qalan o beş nəfər də 4-5-lə oxudu...**

**...Bu gənc pedaqoqun, ilk dəfə dərs deyən müəllimənin ən böyük uğuru, ən böyük hədiyyəsiydi. Onun çubuğuna, bizi vuran əlinə, bizi adam eləyən ürəyinə qurban olum!!! Bu sözləri tək mən demirəm ha, oxuduğumuz uşaqların hamısı deyir. O gün Zülfüqar əmioğluyula danışanda bir daha Həqiqət müəlliməni yada saldıq, xatırladıq və dedik ki, nə yaxşı belə böyük ziyalılar varmış və onlar olmasaydı, biz də ziyalı kimi yetişməzdik!..**

**...Atam rəhmətliyin bir sözü heç vaxt yadımdan çıxmır. İlk gündən Həqiqət müəlliməyə demişdi ki, bu uşağın əti mənim, sümüyü sənin, nə cəza verirsən, nə eləyirsən bilmirəm, buna görə sənə "gözün üstə qaşın var" demərəm. Təki mənim oğlum oxusun, savad alsın, adam olsun! Bu sözləri qardaşımın yas məclisində bir daha Həqiqət müəllimə yenidən xatırlatdı və bir daha başa düşdüm ki, Həqiqət müəllimə kimi ziaylılar gün işığı kimidir. Heç vaxt sönmür və heç vaxt hərartələri azalmır. Həqiqət müəllimə də deyir ki, Allaha and olsun mən də elə bilirəm, dərs dediyim uşaqların hamısı mənim balalarımdır. Müəllimə düz deyir, o, bizimlə müəllimə kimi yox, həmişə ana kimi görüşür və bağrına basır.**

**Bizi bağrına basan Həqiqət müəlliməni Allah qorusun və Allah onun mükafatını versin! Həqiqət müəllimə, biz səni anamız qədər, Vətənimiz qədər və ən nəhayət, Peyğəmbərimiz qədər çox istəyirik. Tək mən yox ey, sənin dərs dediyin bütün uşaqlar! Nə yaxşı ki, Sizinlə görüşdüm və əllərinizdən öpdüm, bu məni elə sevindirdi ki, ən azından ona görə ki, gəncliyinizin odunu-atəşini, nurunu, işığını bizə vermisiniz. Biz də o tşığı, nuru qaytara bilməsək də, heç olmasa sevgimizi əllərinizdən öpməklə bildiririk! Nə vaxta qədər ki, dünya var, günəş var, hava, su var, o vaxta qədər də müəllimlərimiz həmişə yaşayacaq, şagirdlərin qəlbində özlərinə əbədi heykəl quracaqlar. O heykəlin birini də bizim qəlbimizdə Həqiqət müəllimə yaradıb. Nə zamanın küləyi, yağışı, nə də dərdi, kədəri o əbədi heykələ heç bir şey eləyə bilməz. Bir daha mənim gözəl müəllimən Həqiqət xanımı Allah qorusun!!!**

## *Ovsepyan: "Azərbaycanlılar artıq 11-ci postu qoyublar"*



**"Azərbaycanlılar artıq 11-ci postu (Tex kəndi istiqamətində) qoyublar".**

Adalet.az xəbər verir ki, bu sözləri Azərbaycanın Zəngəzurla sərhəddə yerləşən Aravus kəndinin keçmiş inzibati rəhbəri Arqam Ovsepyan Ermənistanın "Hraparak" qəzetinə deyib. Ovsepyanın sözlərindən belə çıxıb ki, Azərbaycan Ordusu Ermənistanla sərhəddə, Gorus istiqamətində yeni postlar qurub:"Azərbaycanlılar artıq 11-ci postu (Tex kəndi istiqamətində) qoyublar. Dünən öyrəndik ki, Tex kəndi istiqamətində bir neçə polis postu da quraşdırılıb:"Hesablamalarıma görə, azərbaycanlıların müqavimətsiz 60 hektardan çox torpaqları var. Dünən öyrəndik ki, Teğ kəndi ərazisində bir neçə polis postu quraşdırılıb və onlar sakinləri Azərbaycan ordusu tərəfindən tutulmuş bağlarına buraxmırlar" -deyə Ovsepyan bildirib.

Qeyd edək ki, hələ 2020-ci ilin dekabrında Ermənistanın Şirak vilayətinin keçmiş prokuroru Raffi Aslanyan öz "Facebook" səhifəsində belə bir paylaşım etmişdi:"Sünik (Zəngəzur) vilayətinin Aravus kəndi sektorunda rəqib öz məqsədinə çatdı. Kənd başçısının başçılığı altında könüllülərimiz hədsiz dərəcədə vacib yüksəkliklər də daxil olmaqla kəndin ehtiyat fondunun torpaqlarını rəqibə güzəştə gedərək daha 800 metr geri çəkildilər, çünki azərbaycanlı hərbçilər və onlar üçün üstünlük verilən GPS qarşısında tək qalmışdılar.

Bəziləri isə nəyin bahasına olursa-olsun hakimiyyətdən yapışaraq obyektiv təəssürat yaradıblar ki, bu inadkarlığın səbəbi ölkəmizə qarşı türkün malik olduğu məqsədlərin tam həyata keçirilməsi perspektividir", - deyə o qeyd etmişdi.

**Əntiqə Rəşid**

## Əhməd İsmayılov: Cənab Prezidentin bu addımı medianın inkişafına dəyərli töhfədir

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq edib. Beləliklə, media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin isə əlavə dəyər vergisindən 3 il müddətinə azad olunur.**

Adalet.az xəbər verir ki, məsələ ilə bağlı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov APA-ya bildirib ki, bu qərar cənab İlham Əliyevin ölkə mediasına göstərdiyi diqqətin bariz nümunəsidir.

"İlk növbədə qeyd etməliyik ki, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, dövlət büdcəsindən, o cümlədən digər mənbələrdən maliyyələşdirilmələrinin azaldılması və müstəqil fəaliyyətlərinin təmin edilməsi məqsədilə reklam bazarının həcminin artırılması zəruridir.

Dövlətin medianın inkişafına dəstək strategiyasından bu sahəilə bağlı ayrı-ayrı vaxtlarda ƏDV-dən azad etmə təcrübəsi olmuşdur və bu, medianın iqtisadi vəziyyətinin yaxşılaşmasına öz müsbət təsirini göstərmişdir",- deyə Əhməd İsmayılov bildirib.



İcraçı direktor vurğulayıb ki, Azərbaycan mediasının iqtisadi dayanıqlığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı dövlət siyasətinin prioritetini təşkil edir.

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu"nu təsdiq etməsi mediamızın iqtisadi müstəqilliyinin gücləndirilməsinə dəyərli töhfədir. Ölkəmizin media ictimaiyyəti adından diqqət və qayğısına görə dövlətimizin başçısına dərin minnətdarlığımızı bildiririk", - deyə Əhməd İsmayılov bildirib.

## Şəhid baş leytenantın atası: "Hər gün evin pəncərəsində durub onunla danışıram..."

**"Bu gün Mahmudun ad günüdür, 29 yaşı tamam olur. Qəbiristanlıqla evizimin məsafəsi 50 metrdir. Demək olar ki, hər gün məzarı başındayıq. Bura bizim, ora da Mahmudun evidir"**

Bunu Adalet.az-a açıqlamasında Vətən müharibəsi şəhidi, baş leytenant Mahmud Malikovun atası Təhmasib Malikov deyib. Şəhid atası gözünün ağı-qarası bir oğlunu şəhid verdiyi üçün tək qaldığını bildirib:

"Mahmud evin tək oğludur, bir bacısı var, ailəlidir. Deyirdim ki, tək oğlandı hərbçi yox, müəllim olsun, amma razılaşmadı. İşini sevirdi, çətinlik haqda bir dəfə evdə söz açmadı. 2015-ci ildən Ağcabədidə xidmətə başladı və daha sonra Beyləqanda xidmətini davam etdirdi. 44 günlük Vətən müharibəsində də Beyləqandan yollandı".

Şəhid atası Mahmudun döyüşdən bir ay əvvəl evə gəldiyini deyib: "Avqust ayında evə gəlib bizimlə görüşüb getdi. Sentyabrda da döyüşlər başladı. Döyüşdə olsa da telefon əlaqəsi saxlayırdıq.




Amma sonuncu dəfə oktyabrın 11-də günortadan sonra ona zəng çatmadı. Yalnız oktyabrın 14-də onun şəhid xəbərini aldıq. Dedilər ki, Füzuli istiqamətində gedən döyüşlərdə şəhid olub və meyiti neytral ərazidə qalıb. Oktyabrın 29-da onun nəşini gətirdilər və böyük izdihamla dəfn etdik".

Şəhid atası deyib ki, evin pəncərəsindən baxanda Mahmudun məzar daşı görünür:

"Evin pəncərəsindən baxanda Mahmudun məzar daşı görünür. Hər gün pəncərədə durub onunla danışıram.

Onu evləndirməyə hazırlaşırdıq, amma qismət olmadı. Anası da fikirdən xəstəliyə düşüb. Onsuz da ikinci qrup əlil idi. Neyləmək olar, Allahın qismətidir. Allah cəmi şəhidlərimizə rəhmət eləsin".

Qeyd edək ki, Mahmud Təhmasib oğlu Məlikov 3 aprel 1994-cü ildə Neftçala rayonunun Xol Qaraqaşlı kəndində anadan olub. Ölkə başçısı tərəfindən ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "İgidliyə görə" medalları ilə və "Vətənə xidmətə görə" 3-cü dərəcəli ordeni ilə təltif edilib.

**Allah cəmi şəhidlərimizə rəhmət eləsin!**

**Vasif Əlihüseyn**



*Vasif Əlihüseyn*

## *Vətən üçün ikiyə bölünən şəhid*

***Ayağı Lələ təpədə, özü Xocasəndə dəfn edilən, ay Cabbarxan hey!***

***Birinci Qarabağ savaşından sonra susmuşduq, araya sükut çökmüşdü. Hər dəfə atəşkəsin qurbanı olan şəhid hərbçilərimizi qarşılayırdıq.***

***Amma 2010-cu ildə Milli Qəhrəman Mübariz İbrahimov bu sükutu pozdu. Atası Ağakərim kişiylə söhbət edəndə dedi ki, "Mübarizin şəhid olmasında Allahın iştirakı var idi. Mən Allahdan axirətini istəyən adamam. Mübarizin şəhid olmasını, Mübariz dünyaya gəlməmişdən öncə yuxuda görmüşdüm. İndi baxıram ki, həmin hadisələr və yuxulardı ki, onlar mənə bu günki günü xatırladır. İnsanın ürəyində birinci Allah sevgisi olmalıdı və sonra Vətən sevgisi gəlir. Allah sevgisi ürəyində olmayan adamın vətən sevgisi də ola bilməz. Mübariz üçün ağlamıram, onun yas mərasimində burdakı camaata dedim ki, ağlamayın. Çünki onu mənə Allah vermişdi, Allah da aldı".***

***Bilirəm indi bu yazını oxuyub keçdiniz, amma bir də oxuyun və görün bu cümlələrdə nələr var.***

***Onda kəndimiz də şəhid verdi, Elgün Şükürov tərxis olunmağına 9 gün qalmış şəhid oldu. Elgünün anası Qızbəs ana deyirdi ki, "Mübarizin ata və anası yas mərasiminə gəlmişdi. Onda Şamama ana mənə dedi ki, "Şükür Allaha ki, övladının nəşin gətiriblər, dəfn elədin gözün yollardan yığıldı. Mənimlə necəsən, neçə vaxtı yolunu gözləyirəm, Mübarizin meyiti ermənilərin əlindədir". Doğrudan da qəribə hisdi.***

***2016-cı il aprel döyüşlərindən sonra, aprelin 8-də dostlarla Tərtərin Borsunlu kəndinə Mübarizin xidmət etdiyi və indi adını daşıdığı posta yollandıq. Burda xalam oğlu Hacıağa xidmət edirdi. Döyüşlər zamanı ermənilər üç dəfə həmin posta hücum etsələr də, əsgərlərimiz düşməni posta yaxın buraxmayıb. Bunu xalam oğlu söhbət edirdi, çünki özü də döyüşmüşdü.***

***Bu gün isə 2016-cı il Şanlı aprel döyüşlərindən yeddi il ötür. Bu döyüşlərdən sonra şəhid ailələrinə baş çəkəndə necə cəngavər oğlanlarımızı şəhid verdiyimizi anladım. O şəhidlərimizi tanıdım, onlar haqda yazılar yazdım. Murad Mirzəyev, Raquf Orucov, Pəncəli Teymurov, Samid İmanov, Elimdar Səfərov və adlarını çəkmədiyim bir çox şəhidlərimizin ailəsiylə dost olduq.***

***Onda Yasamalda aprel döyüşlərində şəhid olan Cabbarxan Hacıağayevin ailəsində qonaq oldum. Cabbarxan idmançı idi, sonra hərbi xidmətə gedib və döyüşlər zamanı şəhid olub. Atası İlham dayıyla söhbət edəndə dedi ki, oğlumun ayağını Lələ təpədə dəfn ediblər: "Cabbarxanın tabutunu gətirəndə qəbirə qoyanda bildik ki, bir ayağı yoxdu. Sonradan bir ayağını Lələ təpədə tapdılar. O tək ayağı Lələ təpədə sancılan bayrağın aşağısında dəfn ediblər. İndi oğlumun iki məzarı var. O məzar Lələ təpə üzərində dalğalanan Azərbaycan bayrağına şahidlik və yoldaşlıq edir. Həmişə o məzarı da gedib ziyarət edirəm".***

***Doğrudan da dəhşət deyilmi?! Cabbarxanı Xocasəndə dəfn ediblər. Amma ayağını Lələ təpədə. Vətən üçün ikiyə bölünmək bəlkə elə budur. Siz nə düşünürsünüz?***

## *"O bıçağı üstündə gəzdirən şagirdi sonda..."*

**"O bıçağı üstündə gəzdirən yeniyetmə sonda bir hadisə törədəcək. Bu çox qorxulu tendensiyadır. 17-18 yaşlı uşaqlar üstündə bıçaq gəzdirir, bu nə deməkdir?"**

Bunu Adalet.az-a açıqlamasında tanınmış ictimai xadim, Tibb Universitetinin (ATU) dosenti Rəşid Mahmudov deyib. R.Mahmudov üstündə bıçaq gəzdirən yeniyetmələrə görə valideynlərə səslənib: "Mən valideynlərə səslənirəm. Uşaqlarının üstünü yoxlasınlar, ciblərinə baxsınlar. Bu uşaqların beyni qandı, yeniyetməlik dövrünü yaşayırlar, birdən kiminsə sözü onlara xoş gəlməz və çıxarıb bıçaqla vurar. Bıçaq şagirdin nəyinə lazımdır? Belə uşaq böyütməzlər. İndidən siqaret çəkirlər, bunun əvəzində gedib idman etsinlər. İndi dövr pisdi, uşaqlarımıza nəzarət etməliyik"-deyə Rəşid Mahmudov bildirib.

Qeyd edək ki, Elmlər Akademiyasının əməkdaşı Elyar İslamoğlu öz sosial şəbəkə hesabında imtahan vaxtı şagirdlərin üstündən çıxan bıçaq, siqaret, elektron siqaret, təsbeh və qulaqcıqların fotolarını paylaşıb. E.İslamoğlu da məsələylə bağlı valideynlərə müraciət edib.

**Vasif Əlihüseyn**

## Azərbaycanla danışıq aparan general niyə işindən azad edildi?: Səbəblər



**Martın 1-də Xocalıda keçirilmiş görüşdə separatçı rejimin qondarma " təhlükəsizlik şurası"nın katibi Samvel Şahramanyan və "Rusiya sülhməramlı qüvvələri ilə əməkdaşlıq mərkəzi"nin direktoru, general Sergey Martirosyan ermənilər tərəfdən "Azərbaycanla danışıqlar aparan şəxslər" təyin edilib. Hər iki şəxs Azərbaycana qarşı hərbi əməliyyatlarda iştirak edib...**

Adalet.az xəbər verir ki, general Sergey Martirosyan Rusiya sülhməramlıları ilə əməkdaşlıq mərkəzinin rəhbəri vəzifəsindən azad edilib. Bu məlumatı yayan erməni mediası onu da vurgulayıb ki, işdən çıxarılmasına səbəb "dövlət naziri" Qurgen Nersisyanla fikirlərinin üst-üstə düşməməsidir. Rusiya sülhməramlılarının eks general Rüstəm Muradovla isti münasibətləri olan Martirosyan çıxışlarının birində generalla Rusiya ordusunda xidmət edərkən tanış olduğunu demişdi. Media düşünür ki, Martirosyanı vəzifədən uzaqlaşdırmaqla faktiki olaraq onu Rusiya sülhməramlıları ilə rəsmi əlaqədən və proseslərdə iştirak etmək imkanından məhrum etdilər.

Qeyd edək ki, Sergey Martirosyan Vitali Balasanyanın Nazirlər Şurasının katibi işlədiyi dövrdə eyniadlı şöbəyə rəhbərlik edib və azərbaycanlılarla görüşlərdə həmişə Vitonun yanında olub. Balasanyan işdən çıxarıldıqdan sonra strukturun optimallaşdırılması nəticəsində bu idarə ayrılıb. Bundan başqa, o, Rusiya sülhməramlılarının keçmiş rəhbəri general Muradovla sıx əlaqədədir, Martirosyanın oğlu 44 günlük müharibədə itkin düşənlər arasındadır".

**Əntiqə Rəşid**

## Makron öz ölkəsində "Hitler" oldu: Fransızların nifrəti və 49.3...

**Azərbaycana qarşı hər zaman birmənalı olaraq ermənidən çox erməni mövqeyi sərgiləyən Fransa prezidenti Emmanuel Makron bu dəfə özü hədəf olub.**

Xatırlayırsınızsa , Fransa prezidenti Drome departamentindəki insanlarla ünsiyyət qurarkən vətəndaşlardan biri onuı şillə ilə vurmuşdu. Hətta, Fransa polisi "sarı jiletlilər" hərəkətinin nümayəndələrindən olan qadını Makrona şamil etdiyi "murdar" sözünə görə evindən apardı. Bu onu göstərir ki, Makron artıq fransızların sevmədiyi bir fiqur olub. Adalet.az xəbər verir ki, Fransanın Avinyon şəhərində Lecto təxəllüsü olan rəssam Fransa prezidenti Emmanuel Makronu Hitler bığlı təsvir edən qraffiti çəkib. Məlumatı BFMTV telekanalı paylaşıb. Fransa lideri yol boyu su təchizatı qurğusunun divarında təsvir olunub. Saçları ağarıb, 49.3 rəqəmi formasında bığları var, iri hərflərlə "NON MERCI" (yox, təşəkkürlər) sözləri yazılıb. "Street art" rəssamı Lecto Fransada İnstaqram səhifəsində yerləşdirdiyi siyasi karikaturaları ilə tanınır.




Yeri gəlmişkən, 2021-ci ildə 62 yaşlı fransız Flori də Makronun Hitlerə bənzədən foto paylaşmışdı . Fransa məhkəməsi onu 10 min avro cərimələmişdi

Qeyd edək ki, rəqəmlər Fransa konstitusiyasının 49.3-cü maddəsinə işarədir. baş nazir Elizabeth Bourne pensiya yaşının artırılması ilə bağlı qanun layihəsini parlamentdə səsverməyə çıxardı. Fransa hökuməti 2030-cu ildən minimum pensiya yaşını 62-dən 64-ə qaldırmağı planlaşdırır.Hökumət 2023-cü il sentyabrın 1-dən pensiya yaşını mərhələli şəkildə artırmağa başlayacaq. Fransanın bir çox böyük şəhərlərində pensiya islahatına qarşı keçirilən nümayişlərdə 1 milyondan çox insan iştirak edib.

**Əntiqə Rəşid**

**Sevindik Hətəmov- 60**

## Nə zəmanə, nə vəzifə onu dəyişə bilməyib



*Elman Eldaroğlu*

**Əslində bu yazını beş gün sonra da paylaşa bilərdim. Bir neçə gün öncədən yayımladım ki, bu gözəl insanın gələcək yubileyindən daha çox adam xəbərdar olsun. Bəli, Allahın varlığını hamı təsdiq edir, amma az adam Yaradanı hər yerdə görə, hiss edə bilir. Nəfs, qəzəb, kin, paxıllıq, təkəbbür bəşər övladını elə bir vəziyyətə salıb ki, yalnız çətin vaxtlarında Allahı yadına salır...**

**Müəllim ailəsində doğulub, müəllim maaşı ilə böyüyüb ərsəyə çatıb. Bir insan kimi formalaşmasında müəllim tərbiyəsinin və tələbkarlığının rolu böyük olub. Mərdliyin mayasını Laçının bumbuz çeşmələrinin suyundan, dağ havasından götürüb. İlk dəfə dürüstlüyün nə olduğunu dünyaya göz açdığı Güləbird kəndinin adamlarından öyrənib. Haraya gedibsə dağ saflığını qoruyub saxlaya bilib. Aldığı təhsil zehninə işıq saçıb, təfəkkürünü kamilləşdirib. Xeyirlə şəri bir-birindən ayırmağı bacarıb. Və sonra, sonra da Allahı dərk edib, Ona baş əyib, ədalətinə güvənib. Haraya gedirsə, nə iş görürsə Allahı orada görə bilir...**



**Əlbəttə ki, ariflər vəzifəni Allahın insan taleyinə yazdığı gözəl bir fürsət kimi dəyərləndirirlər. Elə bir fürsət ki, onun vasitəsi ilə insanlara daha böyük fayda verə bilirsən.**

**O da, taleyinə yazılan vəzifənin çətinliklərini, şərəfini yaşayır. Yanına gələnlərin problemlərini həll etməyə çalışır. Bacardığı qədər, səlahiyyətləri daxilində ona pənah gətirənlərə yardımçı olur...**

**Qürurludur, lakin lovğalıqdan, təkəbbürdən çox uzaqdır. Davranışında o qədər səmimi, mehribandır ki, onunla ünsiyyətdə olanda sıxılmırsan. Kobud söz işlətmir, fikrini ən mükəmməl tərzdə ifadə edir. Heç kimə yuxarıdan aşağı baxmır, hər kəslə öz dilində danışmağı bacarır...**

**Onunla bir süfrədə əyləşmək, başqa aləmdir. Qonağına o səviyyədə xidmət göstərir ki, sanki bundan bir rahatlıq tapır...**

**Gözümüzü açandan müxtəlif ictimai-siyasi quruluşlarda yaşamışıq. Hər quruluşda eyni vəzifənin özünəməxsus adları olub. Bir vaxtlar rayon partiya komitəsinin birinci katibi adlanan vəzifə, bu gün rayon icra hakimiyyəti başçısı adlanır. 1600 kvadrat kilometr ərazisi, 140 minə yaxın əhalisi olan Salyan kimi nəhəng bir rayona rəhbərlik etmək əlbəttə böyük məsuliyyətdir. Hər gün müxtəlif xarakterli insanlarla ünsiyyətdə olmaq, bitib tükənməyən sosial, iqtisadi problemlərin həllinə çalışmaq, sakinlərin tələb və istəklərini dinləyib, düzgün qərar vermək, çətinlikləri aradan qaldırmaq çox ağırdır.**

**Haqqında söhbət açdığım Sevindik Hətəmov bütün bu sadaladıqlarımın öhdəsindən ləyaqətlə gəlir. Elə ona görə də harada, hansı rayonda çalışıbsa insanların rəğbətini qazanıb. Onun Yardımlını tərk edərkən, necə yüksək səviyyədə yola salındığının çox adam şahidi olub. İnsanlar iki saat yol qət edib bu görüşə tələsirdilər...**

**Yaxşı insanlara dəyər vermək, onları nümunə göstərməyə tələsmək insanlıq borcumuzdur. Sevindik Hacıağa oğlu Hətəmov səkkiz ildir ki, Yardımlıdan gedib, amma hələ də adı gələndə ehtiramla yad edilir, ünvanına xoş sözlər söylənilir. Bəli, biz yardımlılar Onu özümüzə doğma, əziz adam bilirik...**

**Mən onu qırx yeddi yaşından tanıyıram. Nə zəmanə, nə vəzifə onu dəyişə bilməyib. Hələ də saflığını, mərdliyini, insanpərvərliyini qoruyub saxlaya bilir...**

**Aprelin 7-si Sevindik Hətəmovun 60 yaşı tamam olur. Onu bu münasibətlə təbrik edir, möhkəm can sağlığı, işlərində uğurlar arzulayıram.**

**Yubileyiniz mübarək, Sevindik müəllim!**

## *Sərxoş sürücülər azalıb*



**Heç kimə sirr deyil ki, qəzaların böyük bir hissəsi sürücülərin nəqliyyat vasitələrini sərxoş vəziyyətdə idarə etmələri nəticəsində baş verir. Ona görə də Bakı Şəhəri Dövlət Yol İdarəsi paytaxtımızda bu istiqamətdə qabaqlayıcı tədbirlər görür. İdarənin Yol Patrul Xidməti Alayının 5-ci tağımının əməkdaşları xidmət apardıqları hava limanına gedən yolda bu cür qayda pozuntularına qarşı ciddi tədbirlər görür, qabaqlayıcı addımlar atır. Belə ki, tağımın həyata keçirdiyi profilaktik işlər nəticəsində son vaxtlar onların xidmət apardığı prospekt və küçədə sərxoş və avtoxuliqanlıq edən sürücülərin sayı azalıb.**

Çünki gecə saatlarında xidmət edən tağım əməkdaşları bu cür sürücüləri vaxtında müəyyənləşidirir və onlara qarşı sərt tədbirlər görürlər. 5-ci tağımın komandiri, polis kapitanı Nurlan Əliyev bildirir ki, bu istiqamətdə xidmət apardıqları ilk gündən kobud qayda pozuntularına yol verən sürücülərə qarşı mübarizə daha da gücləndirilib. Düzdür, gecə saatlarında xidimət aparmaq o qədər də asan deyil, amma buna baxmayaraq, tam məsuliyyətlə deyirəm ki, hava limanına gedən yolda hərəkətin təhlükəsizliyi yüksək səviyyədə təmin edilir və sərxoş, avtoxuliqanlıq edən sürücülər qısa zaman kəsiyində aşkarlanır və onlara qarşı ciddi tədbirlər görülür. Bir sözlə, hərəkət iştirakçılarını tam əmin edirik ki, onların həyatı üçün mövcud olan bütün təhlükələr vaxtında aradan qaldırılıacaq. Amma sürücülər və piyadalar da gərək yol hərəkəti qaydalarına əməl etsinlər.

## *Vaxt dəyişdirilsə...*



**Aydındır ki, Azərbaycanda mənzillərə istilik noyabrın 15-dən aprelin 15-nə kimi verilir. "Azəristiliktəchizat" bu müddətdə ölkəmizi istiliklə təmin edir. Onu da deyək ki, son vaxtlar həyata keçirilmiş yenidənrqurma işləri nəticəsində müasir qazanxanalar istifadəyə verilmiş və nəticədə insanlar yüksək keyfiyyətli xidmətlə təmin edilmişdi.**

Aprel ayı çox soyuq keçir. Təəssüf ki, mövcud qrafikə əsasən aprelin 15-də əhaliyə istiliyin verilməsi dayandırılacaq. Bu məsələlər mövsum başlanmamışdan öncə aidiyyatı qurum tərəfindən müzakirə edilmişdir. Onlar bildirmişdilər ki, istiliyin noyabrın 1-dən və aprelin sonunadək verilməsi üçün Nazirlər Kabineti dəyişiklik etməlidir. Bu dəyişiklik edilmədən həmin müddəti uzatmaq bizim səlahiyyətimiz daxilində deyildir. İndi yaxşı olardı ki, adını çəkdiyimiz Nazirlər Kabineti istiliyin verilməsi mövsümü ilə bağlı qrafikdə dəyişiklik edəydi. Çünki bayaq dediyimiz kimi, aprel ayının sonunədək, hətta may ayının əvvəllərində Bakıda havalar soyuq keçir. Hər halda, Sovet dövründən qalmış o rejim ləğv edilməli və yeni sistemə keçilməlidir. Bizcə, bunu eləmək o qədər də çətin deyildir!

**Emil FAİQOĞLU**



*Əntiqə Rəşid*

## Trafaretlə abidənin fərqini bilin, sonra xəbər yazın!

***Əziz media nümayəndələri, həmkarlarım! Yazdığınız , tirajladığınız xəbərləri heç olmasa, bir dəfə özünüzdə süzgəcdən keçirin.***

***Bu gün bütün saytlarımız "Ordumuz "azad artsax" "abidəsini" sökdü" başlığı altında xəbər paylaşıb. Xəbərin içərisində isə yazılıb: "Azərbaycanın Qarabağ iqtisadi rayonunun bir hissəsində separatçıların uzun illərdir fəxrlə "abidə" adlandırdıqları, "göz bəbəyi kimi" qoruduqları "azad artsax sizi salamlayır" nişanı sökülüb. Jurnalistlər xəbəri erməni-***




***şünas İsmayıl Tanrıverdinin sosial şəbəkə hesabından götürüblər. İsmayıl müəllim bildirib ki, Ermənistandan Laçın yoluna girərkən qoyulan bu yol nişanı və ətraf ərazilər artıq Ordumuzun nəzarətindədir". Ay adını jurnalist qoyan adamlar, bu adi bir yolgöstərici trafaretdir ( Bir şeyə köçürülməli olan şəkil və ya yazı nümunəsi kəsilmiş nazik lövhə). "Azad Artsax" abidəsi yerindədir və Xankəndi azad edilməyincə, onu ucurmaq mümkün deyil. Ordumuzun bir "trafaretə nəzarətini" sanki bir abidəni uçurmaq kimi vacib bir olay kimi xalqa tirajlamaq düzgün deyil axı...***

***Heç olmasa, mənbəyə - İsmayıl Tanrıverdiyə bir neçə sual verib məsələyə tam aydınlıq gətirə bilərdiniz. Yox, əgər bu mövzuda bilginiz yoxdursa, gedin şou-biznesdən, mədəniyyətdən, ədəbiyyatdan yazın. Özünüzü belə dərin yerə niyə salırsınız ki....?***

***"Azad Artsax" 1967-ci il 1 noyabrda ucaldılıb və "Bizim dağlar" adı ilə erməni yazıçı və tarixçi Baqrat Ulubabyan tərəfindən imzalanıb. Əvvəllər ermənilər ona "Mamik və Papaik" adı versələrdə Qarabağın işğalından və qondarma separatçı qururumun yaradılmasından sonra abidənin adı dəyişdirildi. 2013-cü ildə Moskvada yaşayan iş adamı Karen Avaqumyanın vəsaiti ilə memorial kompleksi yenidən qurulub və abadlaşdırılıb.***

# İmran Xanın istefasının 1 ili: Qardaşımızın başına nələr gəldi?

**Bu gün Azərbaycanın yaxın dostu, qardaşı Pakistanın eks Baş naziri İmran Xan istefa verməsindən 1 il ötür.**

Adalet.az xəbər verir ki, tam bir il əvvəl bununla bağlı Pakistan hökuməti məlumat yaydı:"Pakistan Konstitusiyasının 48-ci maddəsinin 1-ci bəndi ilə 58-ci maddəsinin 1-ci bəndinə uyğun olaraq Pakistan Prezidenti tərəfindən Milli Assambleyanın buraxılması nəticəsində İmran Xan Pakistanın Baş naziri vəzifəsini tutmağı dayandırıb".

Buna baxmayaraq İmran Xan yeni Baş nazir təyin olunanadək vəzifəsini icra etdi.Bu o vaxt baş verdi ki, Pakistan müxalifəti Baş nazir İmran Xanı ölkədə inflyasiyaya nəzarət edə bilməməkdə ittiham edərək onun istefasını və bununla bağlı qanunverici orqanda etimad səsverməsinin keçirilməsini tələb edirdi. Milli Assambleya sədrinin müavini Qasım Suri Baş nazirə etimadsızlığın Konstitusiyanın 5-ci maddəsi ilə ziddiyyət təşkil etdiyini bildirdi və təklifi səsverməyə qoymadı. Müxalifət səsvermənin ləğvinə etiraz olaraq məhkəməyə müraciət edəcəklərinin bildirdi. Aprelin 3-də Xan Prezident Arif Alviyə parlamentin buraxılması təklifi ilə çıxış etdi, 4 apreldə isə istefa verdi.

### *İmran Xana qarşı həbs və səbəbləri*

Bu ilin fevralın 28-də məhkəmə tərəfindən Xanın həbsi barədə qərar çıxarıldı. O, Pakistan polisi tərəfindən paytaxt İslamabadda yerləşən iqamətgahında həbs edildi.

Səbəb isə belə göstərildi:Pakistanda Moğol imperiyası dövründən gələn "xəzinə evləri" - "Toşaxana" adlı bir qurum var ki, hökmdarlar, dövlət rəhbərləri onlara verilmiş hədiyyələri saxlamaq və nümayiş etdirmək üçün bu idarəyə verməlidir. Bu ənənə indi də davam edir. Belə ki, bahalı əşyalar "Toşaxana"ya getməlidir, lakin bəzi hallarda alıcı onları öz dəyərinin təxminən 50 faizinə geri ala bilər. Pakistan qəzetləri Xanın və onun həyat



yoldaşının xaricə səfərləri zamanı milyonlarla dəyərində dəbdəbəli hədiyyələr aldığını və bəzən "Toşaxana"ya verilən hədiyyələrinin dəyərinin 20 faizi ödənərək İmran Xan tərəfindən alındığını yazıblar. Bura dəbdəbəli saatlar, zərgərlik əşyaları, dizayner çantaları və ətirlər daxildir.

Keçmiş Baş nazir bəzi hədiyyələri və ya onların satışından əldə etdiyi gəliri bəyan etməməkdə ittiham olunur. Seçki komissiyasına şikayət ilk dəfə Xan hələ vəzifədə olarkən üzvləri hazırda hökuməti təşkil edən Pakistan Demokratik Hərəkatı koalisiyası tərəfindən verilib. O zaman İmran Xan bildirib ki, o, milli təhlükəsizlik səbəbi ilə bəzi hədiyyələri ictimaiyyətə açıqlamayıb, lakin yazılı təqdimatda təxminən 22 milyon rupi (100.000 ABŞ dolları) dəyərində əşyalar aldığını və sonradan bu məbləğdən iki dəfə artıq qiymətə satdığını etiraf edib. O, qiymətləndirmənin lazımi kanallar vasitəsilə aparıldığını deyib.

### *Xanın xaricdən gələn "yıxın" əmri*

Bundan başqa siyasətçiyə qarşı ən azı 37 cinayət işi başlanılıb. İmran Xana qarşı irəli sürülən ittihamların arasında hakimə və polisə qarşı hədə-qorxu gəlmək, ədəbsiz sözlər işlətmək də yer alır ki, buna əsasən də zaminə buraxılmaq hüququ olmadan həbs olunması, həmçinin 29 marta qədər məhkəmə qarşısına çıxarılması qərara alınıb.

Yeri gəlmişkən, İmran Xanın "Təhriki İnsaf" Partiyasının hazırkı lideri Favad Çaudri deyib ki, Xanın həbs edilməsi vəziyyəti ciddi şəkildə pisləşdirəcək:

"Mən bu səriştəsiz və anti-Pakistan hökumətini xəbərdar etmək istəyirəm ki, Pakistanı daha da böhrana sürükləməsin və ağılla hərəkət etsin".

İmran Xan haqqında yayılan sonuncu rəsmi məlumata əsasən, Pakistan məhkəməsi Xanın həbsi barədə verdiyi orderi ləğv edib. Bildirilib ki, onun işi üzrə dinləmələr martın 30-na keçirilib.

Hakim İmran Xana məhkəməyə gəlməyi əmr edib. Qərar polisin məhkəmə binası qarşısında Xanın tərəfdarları ilə toqquşmasından sonra qəbul olunub.

İmran Xan devrilməsində, həbs məsələsində Qərbin, ABŞ-ın və bu qəbildən olan qütblərin "barmaq uzatdığını" iddia edirdi. Siyasi ekspertlər də iddia edirdi ki, bu, erməni-xristian dünyasının bir siyasətidir. Əslində Pakistan xalqı baş nazir İmran Xanın getməsinə icazə vermədi. Amma parlament fərqli qərar çıxardı. Hazırda Pakistan parlamentində əsas səs çoxluğu amerikayönümlülərdədir və İmran Xan haqqında belə münasibət sərgiləmklə gerçəkləri ortaya qoydular.

***P.S.** Mənə bu siyasətçini sevdirən ən çətin günlərimizdə onun verdiyi dəstək oldu: "Bütün silah-sursat ilə qardaş Azərbaycanın yanındayıq. Ləyaqətsiz mövqe göstərən Ermənistanı nəinki Qarabağdan, xəritədən çıxarda bilərik". Bütün qəlbimlə inanıram. Necə ki, Azərbaycan xalqının böyük oğlu, tanınmış xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev şəxsi vəsaiti ilə 300 min ampula peyvənd alıb indiki Pakistan ərazisinə göndərir, bununla da pandemiyanın qarşısı alınır və qədirbilən Pakistan xalqı 1947-ci ildə müstəqillik əldə etdikdən sonra bu faktı tarix dərsliyinə daxil edirlər... Necə ki, Pakistanda 1940-cı illərdən bu yana doğulmuş şəxslərin hamısı Azərbaycanı özlərinə doğma ölkə kimi tanıyır ... Ümid edirəm, İmran Xanın Azərbaycana olan münasibəti, maddi və mənəvi dəstəyi də diqqətdən kənarda qalmayacaq! İmran Xan sözün həqiqi mənasında təmsil etdiyi xalqla birlikdə bizə dost oldu, qardaş oldu və əbədi qardaşdı!*

**Əntiqə Rəşid**

## *Nahid Bağırovdan növbəti təqdirəlayiq addım...*



**Təyin olunduğu gündən bu günə qədər hər zaman Şəhid ailələrinin, qazilərin və hər bir İsmayıllı sakinin yanında olan, onlara dəstək olmağa çalışan Rayon İcra Hakimiyyətinin başçısı Nahid Bağırov növbəti təqdirəlayiq addımı ilə diqqəti cəlb edib.**

Adalet.az-ın məlumata görə, bu dəfə icra başçısı öz doğum gününü Şəhid Bədəlov Ruslanın anası Almarə ana ilə birlikdə qeyd edib. Qeyd edək, ki, Almarə Kərim qızı Bədəlova rayonun ən yaşlı şəhid anasıdır. Ruslan Maarif oğlu Bədəlov 1969-cu ildə İsmayıllı şəhərində anadan olmuşdur. 1987-1989-ci illərdə Sovet Ordusunda hərbi xidmətdə olmuşdur. 1993-ci ilin noyabr ayında RHK-ya könüllü müraciət etmiş, döyüşlərdə iştirak etmək üçün cəbhə xəttinə yollanmışdır. I Qarabağ müharibəsində 1993-cü il fevral ayının 1-i Ağdam uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olmuşdur. Şəhid 1993-cü il fevral ayının 3-də İsmayıllı rayonun Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Məmur kəlməsi qulağa nə qədər uzaq, yad, təkəbbürlü biri kimi səslənsə də, Nahid Bağırovun sayəsində, bütün bu fikirlər alt-üst oldu. Bütün İsmayıllı sakinləri məhz onun sayəsində sadə, onlardan biri, ölkə rəhbərinə sadiq, işində məsuliyyətli bir insan tanıdı.

*Sabir Zəkullaoğlu*

## "Amma Babəkin oğlu sağ qaldı...?!!"



**Özümüzdən başqa hamını günahlandıra bilirik. Egər bu gün Azərbaycan cəmiyyətinin müəyyən bir kəsimini, həm də çox əhəmiyyətli bir kəsimini, İran, fars molla rejimi öz təsiri altına sala bilirsə, bu yalnız molla rejiminin, ayatullalarun günahdırmı...?!**

**Burda Azərbaycanda özünü ziyalı, işıqlı, savadlı, intellektli hesab edən və yaxud hesab edilən kəslərin heçmi günahı yoxdur?**

**Bir kəndin, bir məhlənin və ən nəhayət bir cəmiyyətin kütləyə çevrilib cəhalətə yivarlanması, o cəmiyyətdə işıqlı ziyalı adamların olmamasının göstəricisi deyilmi..?**

**Ziyalı, mütəfəkkür, intelkektli insan mütləq öz ətrafına müsbət təsirlərini göstərir. Onun varlığı o mühitdə mütləq hiss olunur...**

**İran, fars molla rejiminin bizim insanları istədikləri tərəfə çəkməsində günahı var, ancaq Azərbaycan dövlətinin, dövlət təhlükəsizlik orqanlarının, mədəniyyət və təhsil nazirliyinin heçmi günahı yoxdur..?**

**Ölkədə nə qədər qeyri hökumət təşkilatları var, heç bəlkə, statistika komitəsi də onların sayını bilmir... Bunların heçmi günahı yoxdur?**

**Nə qədər hər il dövlət qeyri hökumət təşkilatlarına pullar ayırır, yüksək qrantlar alıb, yalnız reklam işçilərinə xeyir verən təşkilatlar, hansı layihələri həyata keçirirlər?**

**Bunların heçmi günahı yoxdur?**

**Bu sahəyə nəzarət edən qurumun heçmi günahı yoxdur?**

**MTRŞ var idi, deyəsən indi adını dəyişiblər, onların heçmi günahı yoxdur bu işdə?**

**Təbliğat 70 il kommunist partiyasını yaşatdı.**

**Şəxsən mən elə bilirdim ki, Lenin mənim babamdır...**

**Heç də, heç nə gec deyil..**

**Dövlətçilik və millətçilik ruhunda effektli təbliğat aparılsa istədiyimiz cəmiyyəti qura bilərik..**

**Onu da deyim ki, millətçilik heç də pis bir şey deyil və inkişaf etmiş bütün dövlətlər buna xüsusi önəm verirlər...**

# Yağmalanmış obalarımız: Karvansaray rayonu, Dilican eli, Qaraqoyunlular dərəsi...

**Qədim, əzəli və əbədi torpaqlarımızın gözəlliyinə hər dəfə baxanda bir daha sevirəm o yurd yerlərimizi, bir də vuruluram İrandan və Türkiyədən Rusiyanın gətirib məskunlaşdırdığı ermənilərin hazırkı "qanuni" ərazilərinə və qəhr oluram, ruhum, ciyərim yanır.**

**Bu gün bizə doğma olduğu qədər də əlçatmaz olan İcevandan danışacağam.**

**Adalet.az xəbər verir ki, bu gün indi İcevan adlandırılan , amma vaxtı ilə azərbaycanlılara məxsus olan Karvansaray rayonu ağ duvağa bürünüb. Bu səbəbdən də bu ərazidəki yollar bağlanıb.**

### *Karvansarayın yaralı tarixi*

Tarixçilərimizin, araşdırmaçılarımızın topladığı materiallara əsasən, Qərbi Azərbaycanımızın bu füsunkar hissəsini xalqımızın bu gözəlliklərdən xəbərsiz qalmış qisminə çatdırmağı özümə borc bildim.

Karvansaray - Çar Rusiyası dövründə rayon ərazisi Yelizavetpol quberniyasının Qazax qəzasına daxil idi. XX əsrin əvvəllərində bu ərazilər də erməni quldur dəstələrinin, daşnak hərbi hissələrinin hücumuna məruz qalıb.

Qədimlərdən bəri daim karvan yollarının kəsişdiyi Dilican dərəsi də Karvansaray rayonu ərazisindədir. Bu Azərbaycan yaşayış məntəqəsi 1930-cu il sentyabrın 9-da rayon olaraq yaradılıb. Ərazisi 1336 kv. km-dir.

Rayon mərkəzi respublika tabeli Karvansaray (dəyişdirilmiş adı İcevan) şəhəridir. Rayon mərkəzindən İrəvan şəhərinə olan məsafə 142 km-dir.

Karvansaray rayonunun ərazisinə Qaraqoyunlu dərəsinin də bir hissəsi daxildir. Rayonun ərazisi Pəmbək, Murğuz, Hələb və Karvansaray dağ silsilələri ilə əhatə olunub. Ağstafa çayı (Kür hövzəsi) rayon boyu axır.

Son illərdə Dilican dərəsində mərkəzi Dilican şəhəri olan ayrıca Dilican rayonu təşkil edilib.

Yüz illər boyu Qazax, Ağstafa, Şəmkir, Tovuz rayonlarının əhalisi yayda Dilican dərəsində dincəlirdi. Tanınmış Azərbaycan yazıçı və dramaturqu Nəcəf bəy Vəzirov da vaxtilə bu ərazidə meşəbəyilik etmişdi.

1988-ci ilə qədər azərbaycanlıların yaşamaqda davam etdikləri və həmin il tərk etməyə məcbur olduqları yaşayış məntəqələri: Salah, Murtel, Haqqıxlı, Alaçıxqaya, Ağkilsə, Polad...

Yeri gəlmişkən, sizə o ərazilərdə təbii gözəlliyi ilə seçilən zümrüd rəngli Salah kəndi haqqında bir məlumatı verim.

Məlumatla "Qərbi Azərbaycan İcması " nın sosial şəbəkə hesabında tanış olmuşam.

Maraqlı olduğu üçün sizin də nəzərinizə çatdırıram:" Salah - Qaraqoyunlu elinin kəndlərindən biri olaraq Ermənistan SSR-in İcevan (Karvansara) rayonunda, Tərsəçay sahilində, rayon mərkəzindən 15 km cənub-qərbdə meşə ilə örtülü səfalı bir yerdə azərbaycanlılar yaşamış kənd.

Kəndin əhalisinin əhəmiyyətli bir hissəsi 1950-ci ildə qonşu Göyərçin kəndindən köçüb gələnlərdir. Azərbaycanlı türk əhalisi 1905-ci ildə 39, 1914-cü ildə 64, 1931-ci ildə 112 nəfər olub. Salah kəndindəki son azərbaycanlılar 1988-ci ildə faciəli olaylar zamanı kənddən bütünlüklə qovulmuş və orada ermənilər məskunlaşdırılmışdır. Kəndin adı 1991-ci ildə "Ağavnavank" olaraq dəyişdirilmişdir. Hazırda Tavuş marzına (vilayətinə) aid bir kənddir.

Salah kəndi Qafqaz və Zaqafqaziya diyarı idarəsinin dəyişdirilməsi haqqında 1867-ci il 9 dekabr tarixli çar fərmanı əsasında yaradılmış Yelizavetpol qu-



berniyasının Qazax qəzasına aid olmuşdur. 1918-ci ildən 1920-ci ilə qədər Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi daxilində mövcud olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra Qazax qəzasında hərbi inqilab komitəsi yaradıldı. Ermənistanda sovet hökuməti qurulduqdan (1920, 29 noyabr) sonra Qazax qəzası ərazisinin 44,5%-i, o cümlədən 1874-cü il inzibati bölgüsünə görə Azasu, Qaradaş, Qılınc kənd, Uzuntala, Baranin, Qalaçı, Kötikənd, Qoşqotan Külpi, Yeni Dilican, Köhnə Dilican, Karvansara, Qaraqoyunlu, Polad-Ayrım, Xaştar, Başkənd, Küləli, Mixaylovsk, Tatlıkənd, Tovuzqala kəndləri Ermənistanın tərkibində qaldı. Qazax qəzasının Azərbaycanın tərkibində qalan torpaqlarında Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şamxor rayonları, Ermənistana verilmiş torpaqlarda isə Karvansara (İcevan), Çəmbərək (Krasnoselsk), Şəmşəddil, Dilican rayonları yaradıldı. 1988-ci ildə ancaq kənddə yaşayanları nəzərə alsaq, cəmi 300 ailədən ibarət olan Salah və Əmirxeyir kəndlərində doğulmuş olan 11 elmlər doktoru, 29 elmlər namizədi var idi.

Bu rəqəm hər 7-8 ailəyə bir alim düşdüyünü göstərir. Bu, çox yerlərdə rast gəlinməyən, kifayət qədər yüksək göstərici idi".

### *Azərbaycanlılarsız Ermənistan*

Azərbaycanlıların Ermənistandan (Qərbi Azərbaycandan) deportasiyası və köçürülməsi hələ XVIII əsrdən başlanıb. Qərbi Azərbaycandan azərbaycanlıların, ümumiyyətlə müsəlmanların deportasiyası üç mərhələdə gedib: deportasiya müxtəlif işğəncə, soyqırım, faciə və vəhşiliklərlə aparılıb:

*1 .Birinci mərhələ 1905-1920-ci illər;*

*2. İkinci mərhələ 1948-1953-ci illər*

*3. Üçüncü mərhələ 1988-1992-ci illər.*

Yurdlarımızın , kəndlərimizin, obalarımızın adı dəyişdirildi.

***Qədim türk adı - İndiki adı***

***Qaranlıqdərə - Xavaradzor ...***
***Xavaradzor - Lusadzor***
***Saratu - Hacdarak ...***
***Alaçıxqaya - Alaçıx ...***
***Haçasu - Acaçur ...***
***Güney - Getaşen***
***Getaşen - Kirants***
***Qaradaş - Sevkar ...***
***Aşhigah - Lalakənd ...***
***Ləlekənd - Lalikyuğ ...***
***Lalikyuğ - Vazaşen***
***Bibiş - Berkaber***
***Ayrım Polad - Ayrim ...***
***Karvansaray - İcevan ...***
***Kürdəvan- Yenokavan Carheç - Kuybışev***
***Məlikkənd - Melikkyuğ ...***
***Melikkyuğ - Tsaxkavan***
***Sarıgah - SarıkyuğYuxarı Ağdan - Aqdan***
***Ağdan - Qandzakar***
***Aşağı Ağdan - Morut***
***Morut - Haxnaxpyur***
***Uzuntala (Qaraqoyunlu) - Onut***
***Onut Aygehovit***
***Rəvazlı - Ditavan***
***Murteyl (Çiçəkbulaq) - Geğatap***
***Tala - Getahovit***
***Haqqıxlı - Hovk***

Hazırda Qəmərli-Artaşat, Arpaçay-Axuryan, Kəvər-Kamo, Basarkeçər-Vardenis, Allahverdi-Tumanyan, Aşağı Qaranlıq-Martuni, Qarakilsə-Sisian, Hamamlı-Spitak kimi dəyişdirilərək ermənileşdirilib.

***P.S.** Bəlkə bir gün...*

**Əntiqə Rəşid**

*Kamran Güllər*

## Naxçıvanda Nərimanovun heykəli sökülüb, ədə hurreeeyyy...



***Naxçıvanda N.Nərimanovun heykəli sökülüb,ədə hurreeeyyy.. Xudayar bəyin nəvələri bayram edir,səbəbi də "Nərimanov Naxçıvanı ermənistana verəcəkmişşş" miş-miş,müş... Görəsən niyə verməyib bəs,Zəngəzuru ermenilərə verməkdə ittiham olunan külli-ixtiyar sahibi Nərimanova nə mane olubmuş görəsən?***

***İnanın,baxıb həm gülmək,həm də ulamaq istəyirəm.Bu xalq nə vaxta qədər öz tarixinin saxtalaşdirilmasına çəpik çalacaq,nə vaxta qədər dostunu,düşmənini tanımayacaq??..***

***Nərimanov dünənki tarixdir,ona çamur atmaq istəyənlər bir zehmət bir çevrilib arxalarına baxsınlar..***

***"ƏLIHEYDER,QARABAĞ SƏNİN G*TÜN DEYİL İSTEDİYİNƏ VERƏSƏN" deyən Nerimanovdan söz getdiyini unutmayın.***

***Nərimanov qanı ilə,canı ilə Türk oğlu Türk olub.Nərimanovu tanımaq üçün M.K.Atatürkün xatirələrini oxuyun.Hə,bəlkə də Türk düşmənləri Nərimanovu həzm edə bilmir,bu başqa məsələ.Təbii ki,həzm edə bilməz,çünki düşmənə qarşı savaşmaq üçün pulsuz silah,qızıl,neft göndərən Nərimanov idi,Xudayar bəy deyil...***

## *Ukraynada ölən rus əsgərlərinin çəkmələrindən sərgi: Nyu-Yorkda*



**ABŞ-ın Nyu-York şəhərində sərgi açılıb. Belə bir sərgi ABŞ-da ilk dəfə açıldığı üçün maraq doğurub.**

Adalet.az xəbər verir ki, əsas eksponat öldürülən rus əsgərlərinin ayaqqabılarıdır.Ulduz formasında hazırlanmış çərçivədə "russkaya batinka" ları sərgilənib. Sərginin bir hissəsində vaxtilə rus əsgərlərinə məxsus çəkmələr rus ordusunun simvolu olan qırmızı ulduz şəklində düzülüb. Çəkmələr Ukraynanın çoxsaylı yaşayış məntəqələrindən toplanıb. Məlumatı Clash Report Tvitter səhifəsi yayıb

Qeyd edək ki, Rusiyanın Ukraynaya hücum etdiyi 404 ərzində Rusiya böyük şokla qarşılaşıb. Beləki, Rusiya indiyə qədər 175 610 hərbçi, 3619 ədəd tank, 6993 ədəd zirehli döyüş maşını, 2694 ədəd artilleriya sistemi, 527 ədəd RYAS (reaktiv yaylım atəş sistemi), 280 hava hücumundan müdafiə sistemi, 306 ədəd hərbi təyyarə, 291 ədəd helikopter, 5553 ədəd avtomobil texnikası, 2262 ədəd PUA, 911 qanadlı raket, 18 gəmi/qayıq, 298 xüsusi avadanlıq itirib.

**Əntiqə Rəşid**

# Ukrayna müharibəsində son vəziyyət: Rusiyanın ən böyük qorxusu Krım planı üzə çıxdı!

**Dünya aylardır Rusiya ilə Ukrayna arasında gedən müharibəni qorxu içində izləyir. On minlərlə insanın həyatına son qoyan müharibə tam sürətlə davam edərkən, Ukraynadan Rusiyanı qəzəbləndirəcək bir addım atıldı. Ukraynanın Krımla bağlı planının təfərrüatları üzə çıxıb.**

Ötən ilin fevralında Rusiya prezidenti Putinin verdiyi sərəncamla başlayan qanlı müharibə hələ də ölümlə davam edir.

Baxmut Rusiyanın Soledarı vurması ilə yeni mərhələyə qədəm qoyan müharibənin son ünvanıdır.

Rusiya Ukraynanın şərqindəki "son qalası" olan Baxmutu ələ keçirmək üçün demək olar ki, bütün gücünü səfərbər edib.

2014-cü ildə ələ keçirilən Krıma müharibənin yayılması Rusiyanın ən böyük qorxusu kimi qələmə verilir.

Krıma hücumu dəfələrlə "qırmızı xətt" kimi xarakterizə edən Rusiyanın bu açıqlamalarına baxmayaraq, Ukraynadan alovlu bir addım gəldi.



Ukrayna Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Oleksiy Danilov Kiyevin bu yaz planlaşdırdığı əks-hücum öncəsi planı dərc edib.

Danilov öz planında Moskvanın Krımda təyin etdiyi administrasiyada işləyən bütün ukraynalıların cinayət məsuliyyətinə cəlb olunmasını təklif edib.

Moskva 2014-cü ildə Krımı ilhaq etsə də, dünyanın əksər hissəsi onu Rusiya ərazisi kimi tanımaqdan imtina edir.

Ukrayna rəsmisi bildirib ki, bu insanların bəziləri cinayət məsuliyyətinə cəlb olunacaq, digərləri isə dövlət təqaüdlərini itirəcək və ictimai işlərdən kənarlaşdırılacaqlar.

Facebook-da paylaşım edən Danilov yazıb ki, 2014-cü ildən sonra Krıma köçən bütün Rusiya vətəndaşları deportasiya edilməli və Rusiya hakimiyyəti altında aparılan bütün daşınmaz əmlak sövdələşmələri ləğv edilməlidir.

**Planın bir hissəsi olaraq Danilov Rusiyanın Krıma inşa etdirdiyi 19 kilometrlik (12 mil) körpünün sökülməsinə də çağırıb.**

**Emin**

## *"Valideynlər xoşbəxt olmadıqlarına görə övlad da əziyyət çəkir..."*

**"Valideynlərlə uşaqların təmasında problemlər yarandığına görə uşaqlar referand qrupları sevib, amma öz ailələri ilə normal ünsiyyət qurmurlar. Ona görə də bəzən valideynlərin övladlarında bıçaq və digər əşyaların olduğunu bilmədiyinin də təsadüfinə gəlirik. Bəzən biz soruşuruq və görürük ki, uşağının nə etdiyindən valideyn xəbərsizdir"**

Bunu Adalet.az-a açıqlamasında psixoloq Zeynəb Eyyubova valideyn və uşaq münasibətləri haqda danışarkən deyib. Psixoloq bu problemin çox ciddi olduğunu və tədbirlər görülməsinin vacibliyini vurğulayıb:

"Bəzən uşağı başqa bir uşağı vurur, amma valideynin heç uşağının aqressiyasından xəbəri yoxdur. Bunun üçün məktəblərlə valideynlər arasında iş keçirmək lazımdır. İndi kartlar çıxıb, sadəcə bu kartlarla valideynlər də məlumatlanmalıdır.

Xaricdə olduğu kimi onların telefonlarına uşaqlarıyla bağlı məlumatlar göndərilməlidir. Çünki uşaqlar məktəbdəki problemi bəzən evdən gizlədə bilir. Valideynlərin özləri bir-biri ilə xoşbəxt olmadıqları üçün övlad da ortada aqressiv bir ata-ana ilə böyüdüyü mühitdə özünü küçədə güclü göstərmək istəyir.

Bunun üçün məktəbin uşaq psixoloqları ilə yanaşı, başqa psixoloqların da məktəbə dəvət olunması, uşaqlarla testlər keçirilməsi, onların bir-birinə olan münasibətlərinə baxılması zəruridir. Kinolardan ilhamlanaraq uşaqlar bir az havalı görünməyə, özlərini qeyri-ənənəvi göstərməyə də meyillidirlər. Ona görə də valideynlərdən yüzə min nəzarəti artırmaq tələb olunur".

**Vasif Əlihüseyn**



*Əbülfət MƏDƏTOĞLU*

# Köhnəlik nişanəsi və yaxud SİRLİ OTAQ

**Mənə görə sözü eşitmək, onu qavramaq artıq elə onun mahiyətinə varmaqdı. Yəni qəzetin hansı gün çap olunmasından söhbət getmir, onun oxunmasından söhbət gedir. Yəni beş il, on il bundan öncə çap olunmuş qəzeti mən bu gün oxuyuramsa, deməli, o mənim üçün təzədi. Bax, bu mənada hər gün səslənən söz nə qədər ətrafımda gəzib dolansa da, o, əgər mənə ünvanlanmayıbsa mən onun ardınca getmirəm. Amma söz qapımı döyəndə ona ürəyimin qapısın açıram ...**

**Bax, bu mənada mənim bu yazımın da işıq üzü görməsində bir sözün qığılcım kimi alışması kifayət etdi. Yəni iş otağıma daxil olan bir Allah bəndəsi vurğuladı ki, bu otaq mənə keçmişi xatırladır - həm aurası ilə, həm içərisindəki mənzərə ilə, həm də burada tez-tez səslənən retro musiqilərlə...**

**Doğrusu, mən özüm də bu barədə düşünmüşdüm və hətta ən yaxın dostlarım, mənə ərki keçən doğmalarım məni köhnəliyin qalığı kimi bir az qınasalar da, nədənsə mən köhnədən qaldığıma heç vaxt təəssüflənməmişəm, üzülməmişəm. Hətta zaman-zaman düşünüb belə bir məntiqi nəticəyə gəlmişəm ki, baş verənlərin heç biri təsadüf deyil. Onların hamısının mayasında bir zərurət var. O zərurət ilk anda təsadüf formasında ortaya çıxır. Elə ki, sular axıb durulur, elə ki, hər şey öz yerini tutur, bax, ondan sonra sakit bir tərzdə olanı, olmuşu vərəqləyəndə,saf-çürük edəndə və yaxud da düşünəndə adamın qarşısına təsadüfün mayasındakı zərurət çıxır. Elə səhər-səhər eşitdiyim iş otağımla bağlı fikrin də arxasında sən deməbir zərurət dayanırmış. O zərurət bu yazının doğulması imiş. mən də həmin zərurəti ürək açıqlığı ilə qəbul edib bu otaqda dünyaya gələn fikirlərin, duyğuların,misraların axarına düşürəm...**

*Özü özündən bezib,*
*Küsmüş adam, kimiyəm...*
*Əlin ümiddən üzüb -*
*Kəsmiş, adam kimiyəm...*

*Yıxılıb əsən yelə,*
*Özün axıdıb selə...*
*Hətta ruhunu belə -*
*Əzmiş , adam kimiyəm!..*

*Sevgi adlı sənəti -*
*Məram etdim, mən qəti!*
*Sevinirəm, Cənnəti -*
*Gəzmiş, Adəm kimiyəm!*

**Arxada bir zaman kəsiyi qaldı. Elə bir zaman kəsiyi ki, mən o zamanın içərisində təkcə özümünyox, həm də doğmalarımın, ailəmin ömrünə yazılan məqamların sevincini yaşamışam. Bu gün də həmin o sevinc mənim və doğmalarımın həyatını bəzəyir. Deməli,insan yaşa dolduqca onu iki məqam daha çox özünə çəkir. Biri torpaq, biri də ətrafında böyüyən körpələr, yəni nəvələr. Mən torpaq həsrətinin bütün acısını, bütün yanğısını artıq 30 ilə yaxın çəkdim... Yəni 1991-ci il oktyabrayının 30-dan bu acının, bu nisgilin nə demək olduğunu varlığımda hiss edim və elə o hiss etdiyim ağrının içərisində də özüm də özümüçün ikinci bir ağrıya çevrildim... Ona görə də yazanda ki, "torpaq çəkir adamı" mənə heç kim etiraz etmir. Ən azından bu şeirə görə oxucular məni qınamır. İnsanı çəkən, təbiiki, yaşlı insanı çəkən ikinci məqam nəvələrdi. Mən zaman-zaman qonşuda, qohumda"dövlətdə dəvə, övladda nəvə" deyən yaşlıların fikirlərini çox dinləmişəm.Amma etiraf edim ki, onların nəvə ilə bağlı söylədikləri mənə bütünlüklə hopmamışdı. Elə ki, mənim də boynuma baba misiyası düşdü, onda anladım ki, sən demə yaşlı kişilər ağızlarının dadını bilirmiş. Baba sözünün şirinliyini , təravətini qiymətləndirmək və onun işığında yaşamaq sən demə ayrı bir dünya imiş.**

**Mən bu doğmalığın, yəni bu mühitin içərisində anladığım həmin o torpağın və nəvənin, yəni uşağın yaşlı insanı özünə çəkməsinin nə qədər böyük bir mənanın, nə qədər tutumlu bir həyat sirrinin gücü qarşısında, ağırlığı altında susuram. Və düşünürəm ki, bu həm də onlara qoşulub əylənəndə məni uşaqlaşdırır, məni uşaqlığıma qaytarır. Necə deyərlər, mən də uşaq oluram. Bax, İlahi güc, İlahi sevgi, həm də gözə görünmədən öz əhatə dairəsində insanı yaşadan, hərəkət etdirən qüvvə məncə elə budu. Bu qüvvənin, bu gücün adı və həm də dadı yəqin ki, böyük hərflərdə yazıla bilən bağlılıqdı. Qan, hiss, duyğu və bütövlükdə sevgi bağlılığı! Ailəyə, dünəninə, bugününə və sabahına olan bubağlılıq bəlkə də elə biz dünyaya gələn andan bizimlə birgə doğulur, bizimlə birlikdə günləri, illəri, ayları başa vurur. Mən də öncədən dediyim kimi, bax bu sirli, həm də köhnəliyi özündə ifadə edən iş otağımdan kağıza köçürdüyüm duyğularımı sizə anladanda bu təzə sözü də, yəni nəvələrlə bağıl fikirləri də fadə etimş oldum. Bu fikirləri bir tala çiçəyə bənzətsək, onun üzərindəki şeh damlalarının da yəqin ki, öz yeri olar.**

*Vəd vermişdim -vədimi*
*Özüm unutdum,özüm...*
*Su səpdiyimocağın -*
*Közün unutdum,közün...*

*Bəllidi neylədiyi*
*Yaramın göynədiyi*
*Ucadan söylədiyi-*
*Sözün unutdum,sözün...*

*Bir dəli məhəbbətin*
*İçmək üçün şərbətin...*
*Bu yazıq Əbülfətin-*
*Özün unutdun,özün!*

**Hər kəs durduğu yerdə, daha doğrusu, doğulduğu yerdə özünü güclü sayır, özünü güvəncli, arxalı,həm də bir az başqalarından səlahiyyətli hesab edir. Bu mənada götürəndə mənim doğulduğum kəndlə paytaxt arasında çox böyük bir məsafə var. Mən o məsafəni hərgün xəyalən azı iki-üç dəfə gedib qayıdıram. Gedəndə də nəfəsim kəsilir,qayıdanda da. Gedəndə də gözlərim dolur, kirpiklərim nəmlənir, qayıdanda da yanaqlarımdakı şırımları silmək, qurutmaq yadımdan çıxır...**

**... Və yaxşı bilirəm ki, inamsız yaşamaq qeyri-mümkündü. Ona görə içimdəki inamın ətəyini əldən buraxmıram.Əksinə, onun daha da möhkəmlənməsi, ayağının yer tutması üçün özümü hər gün təkrar-təkra kökləyirəm. Necə deyərlər, hazırlıqlı bir duruma gətirirəm.Və yaxşı ki, hər kəs özünə, öz içinin havasına köklənir...**

**Bəli, bu gün köhnəliyi xatırladan bir otaqda köhnəliyin nişanəsi olan bir Allah bəndəsi düşüncələrini,yaşantılarını və bir az da duyğularını araya-ərsəyə qoydu. İndi necə ifadə olundu, necə alındı, bu tamam başqa söhbətdi. Əsas odur ki, dünən bugünün bünövrəsidi. Köhnəlik yeniliyin alt qatıdı.**

**Bunlarsız ayaqda durmaq,mübarizə aparmaq zənnimcə çətindir, hətta bəlkə mümkün də deyil. Çünki özülsüz,köksüz, köməksiz evi də, ağacı da külək daha tez yıxır, daha tez uçurur. Mən daxilən, həm də inamıma görə, özülü üst qatdan daha gərəkli saymışam.**

# Yeri görünən USTAD

## Unudulmaz diktorun xatirəsinə söz...

**Hər şey tarixi zərurətdən başladığı üçün SSRİ Mərkəzi hökumətin qərarı ilə 1941-ci il dən fəaliyyətə başlayan Moskva Radiosunun Xarici Verlişlər bölməsinin nəzdində faşizmin ifşa edilməsi, ona qarşı əks təbliğat aparılması məqsədilə Bakı radiosunda türk və fars dillərində yayımlar təşkil edildi. Yaxın Şərq ölkələrinə verilən bu proqramlar tez bir zamanda yüksək aktuallıq kəsb etdi. Ona görə də ərəb dilində verlişlərin yaranma zərurəti günün vacib problemlərindən biri oldu. Amma belə bir şöbənin tezliklə təşkil edilməsi o qədər də asan deyildi. Çünki o vaxtlar bütün SSRİ məkanında ərəb dilini bilən yüksək dərəcəli mütəxəssis tapmaq çox çətin idi. Çoxsaylı xarici dildə verliş yayımlayan SSRİ kimi nəhəng bir ölkənin yerli ərəb dili bilən mütəxəssisi yox idi. Ona görə də Moskva Radiosu məcbur olub Misirdən komminist düşüncəli ərəb diktorlar dəvət etmişdi. Bundan başqa 1941-ci ildə SSRİ hökuməti radio təbliğatını Türkiyə və İranda yaymağı məqsədəuyğun hesab edərək növbəti addım atır. Həmin ilin iyulunda Azərbaycan radiosunda türk və fars dillərində verilişlər hazırlayan iki redaksiya yaradılır. Türk dilində verilişlər redaksiyasına Adil Əfəndiyev, fars dilində verilişlər redaksiyasına isə qısa dövr ərzində Qulam Məmmədli rəhbərlik edir. 1941-ci il iyulun 20-də "Burası Bakü", "Inca Baku" ifadələri ilk dəfə Azərbaycan radiosu ilə verilən sınaq verilişlərində səsləndirilir. Həmin verilişlər 1941-ci il avqustun 18-dən müntəzəm olaraq "Bakının səsi" çağırışı altında dünya efirinə çıxır.**

Bir il sonra 1942-ci ildə Naxçıvan torpağında, Ordubad şəhərində, ziyalı ailəsində Səfər Cəfərov doğulur. İllər ötdükdən radiomuzda yaradılmış xarici verlişlər bbölməsi ilə onun yolları kəsişir...

Bu kəsişmə isə heç də təsadüf deyildi. Bu daha çox Səfərin böyüyüb-boya başa çatdığı mühitlə bağlı idi.Belə ki, Səfər Cəfərovun qardaşı Fərhad Zeynalov dünya türkoloqları içərisində tanınan görkəmli alim idi. Qardaşı tanınmış jurnalist Zöhrab Zeynalov uzun illər Azərbaycan radiosunda rəhbər vəifələrdə çalışmışdı. Təbii ki, ailədə özündən böyük ziyalı qardaşlarının elmi-bədi , həm də içtimai mövqeyi Səfərin dünyagörüşünün zənginləşməsinə, elmi biliklərə dərindən yiyələnməsinə təsirsiz ötüşməyə bilməzdi.

Səfər Ordubadda orta məktəbi bitirdikdən sonra paytaxta - Bakıya gəlir. Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olur. Tələbəlik illərində Azərbaycan Radiosu ilə əməkldaşlığa başlayır. Beləliklə Səfərin ömrünün 50 ili radio ilə bağlanır, həm də əbədi

Azərbaycan radiosunda isə hələ 1950-ci ildə türk və fars redaksiyalarının əsasında Xarici verilişlər baş redaksiyası yaradılmışdı. 1951-ci ildən xaricdə yaşayan soydaşlarımız üçün hər gün azərbaycanca 1 saatlıq veriliş yayımlayan redaksiya da bu qurumun tərkibinə daxil edilmişdi. Bir müddət sonra , yəni 1959-cu ildə isə Azərbaycan radiosunda ərəb dilində verilişlərin yayımı başlandı. Bu redaksiyada diktor vəzifəsinə İraq türkmənlərindən olan Bağdad radiosunun diktoru Sinan Səid dəvət olunmuşdu. Qısa müddət ərzində bu redaksiya bir sıra ərəb ölkələrində əks-səda doğurdu və bu ölkələrdən təqdir məktubları gəlməyə başladı.

Amma bir məsələ başlıca problem olaraq qalmaqda idi. Həmin illərdə Moskva Radiosu Azərbaycanın radiosunun xarici verilişlər bölməsini mütəxəssislə təmin etmək imkanına malik deyildi. Digər tərəfdən isə artıq Azərbaycanın isə buna ehtiyacı yox idi. Çünki artıq Bakı Dövlət Universitetində Şərqşünaslıq fakültəsinin ərəb şöbəsində görkəmli alim Ələsgər Mahmudovun rəhbərliyilə Aida İmamquliyeva, Malik Mahmudov, Vasim



Məmmədəliyev, Elza Hüseynova, Malik Qarayev kimi dili mükəmməl bilən, püxtələşmiş ərəbşünas alimlər yetişmişdi. Artıq Azərbaycan Radiosunu ərəb dilində verlişlərində yerli mütəxəssislər çalışırdılar. 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində Radionun ərəb şöbəsində redaktor, tərcüməçi Vasim Məmmədəliyev, diktor Sinan Səid və başqa peşəkarlar işləyirdi.

1967-ci ildə Bakı Dövlət Universitetinin ərəb şöbəsini bitirən Səfər Cəfərov radionun ərəb şöbəsinə təyinat alır. O vaxtdan əmək fəaliyyətinə başlayır və kərküklü Sinan Səidlə bərabər işləməli olur. Sinan Səid Kərkük-Azərbaycan xalq mahnılarının gözəl ifaçısı olmaqla bərabər, ərəb dilində peşəkar diktor idi. Xoşbəxtlikdən Səfər ilk fəaliyyətinə Sinan Səidin rəhbərliyi altında başladı. Bu, gələcəkdə Səfərin ərəb dünyasında tanınması, fəaliyyət göstərməsi, peşəkar ərəb diktoru olması üçün əla fürsət idi. O, Sian Səiddən sənəti bütün incəliklərini öyrənir və müstəqil diktor kimi yetişir. Getdikcə Səfərin səsi, sözü bütün ərəb ölkələrində eşidilir və sevilir. O, ərəbcə o qədər təmiz, qüsursuz danışır, mətn oxuyurdu ki, onun ərəb olmadığına heç kəs inanmırdı.

Səfərin bu istedadı qısa müddətdə ətrafdakıların diqqətini özünə cəlb edir. Bu diqqət qısa müddətdən sonra Səfər üçün istedadın zəngin təcrübə ilə vəhdət təşkil etməsinə səbəb oldu.. Beləliklə, diqqətdən doğan ilk addım baş verir. Haşiyəyə çıxaraq qeyd etməliyik ki, o vaxtlar Sovet mütəxəssisləri Yəmən Ərəb Respublikasına ezamiyyətə göndərildi. Göndərilənlərin sırasında Səfər Cəfərov da vardı. Belə ki, S.Cəfərov 1968-ci ildə Yəmən Ərəb Respublikasında işləmək üçün Moskvadan dəvət alır. Elə həmin ildən də Yəməndə müxtəlif təşkilatlarda tərcüməçi işləyir. Müqavilə müddəti bitdikdən sonra Bakıya qayıdır. Beynəlxalq Radionun Ərəb şöbəsində diktorluq fəaliyyətini davam etdirir. Nəhayət, bir neçə ildən sonra yenidən ezamiyyət başlayır. Bu dəfə Səfər Cəfərov başqa bir ərəb ölkəsinə - Suriyaya göndərilir və müxtəlif təşkilatlarda iki il tərcüməçi işləyir. Sonuncu ezamiyyəti isə İraq Respublikasına olur. 80-ci illərin sonlarına yaxın İran-İraq müharibəsi başlayır. Müharibə İraqda bütün işlərin dayanmasına səbəb olur. Həmin il ölkədə çalışan Sovet mütəxəssisləri də öz vətənlərinə dönməli olurlar. Səfər İraqdakı 4 illik fəaliyyətindən sonra Bakıya qayıtmalı olur. Beynəlxalq Radioda diktorluq fəaliyyətini davam etdirir. Amma indi daha çox təcrübə və daha fərqli düşüncə ilə. Nəzəri biliklərin demək olar ki hamısını praktikada tətbiq etmiş Səfər, radio üçün ərəb dilli diktor mütəxəssislərin yetişməsində müstəsna xidmətlər göstərir. Hətta bu sahədə Səfər Cəfərov özünəməxsus məktəbini yaratmağa müvəffəq olur. Ona görə də hazırda bir çox tanınmış ərəbşünas mütəxəssislər Səfər Cəfərovu özlərinin ustadı, müəllimi olduğunu deyirlər.

**Məşhur ifadə var: "Dünya Bir pəncərədir, hər gələn baxan gedər " Amma belə deyil, bu ifadə əslində heç də hər kəs üçün deyilməyib. Düzdür, Səfər Cəfərov gəldi, baxdı, amma sadəcə baxmadı. O baxdıqca onu eşitdilər. Ərəb dünyasından, dünyanın ümumiyyətlə istənilən nöqtəsindən Səfər Cəfərov, Azərbaycanın səsini ərəb dünyasının, bütünlüklə beynəlxalq aləmin dalğaların o qədər gur ucaltdı ki, indi onun aşağı salmaq sadəcə mümkün deyil. Min illər keçsə belə səs hər zaman qalır, onu sadəcə duymaq lazımdır. Bu gün fiziki olaraq bizi tərk etmiş Səfər Cəfərov əslində sadaladığımız müstəvilərdə, bir də qəlbimizdə duyulur. Səsiniz aydın və ucadır, Ustad!**

**Əliabbas Quliyev**

# Çin və Hindistan arasında qəribə bir ölkə

**Butan Cənubi Asiyanın iki nəhəngi Çin və Hindistan arasında sıxışdırılmış kiçik bir ölkədir. Meşələrini qanunla qoruyan, vətəndaşlarının xoşbəxtliyini Səadət Nazirliyi ilə dəstəkləyən ölkədə kimya məhsulları istehsal olunmur, ixrac olunmur.**

Hindistanda yaranan Buddizm fəlsəfəsi Budda hələ sağ ikən Butan və onun qonşusu Tibetə yayıldı. Hindistanda zamanla əhəmiyyəti azalsa da, bəzi ölkələrdə, o cümlədən Butanda gücünü itirmədən davam etdi. Qismən bu səbəbdən Butan Tibet imperiyasının təsiri altına düşdü... Bu mistik və nağıl ölkəsində demək olar ki, hər dağda, hər kənddə, hər çay sahilində bir məbəd var. 1910-cu ildən daxili işlərdə muxtar, xarici siyasətdə Britaniyaya tabedir. Paytaxt Thimphu həm də ölkənin ən böyük şəhəridir.

2008-ci il Konstitusiyası ilə parlament sisteminə keçən ölkənin lideri "Əjdaha kralı" kimi tanınan Butan kralı Jiqme Khesar Namgyel Vanqçukdur. Xalq tərəfindən çox sevilən kral 31 yaşında ikən 21 yaşlı tələbə Jetsun Pema ilə evlənərək xalqın könlünü bir daha fəth edib.

1974-cü ilə qədər turistlərə qadağa qoyulan Butanda bu gün bu qadağa aradan qaldırılsa da, turist olmaq üçün şərtlər var. Turist icazəsi almaq üçün bütün səyahət xərclərini əvvəlcədən ödəməlisiniz. Bundan əlavə, ölkənin yalnız müəyyən bölgələrində bələdçi və ya qrup şəklində müşayiət olunmasına icazə verilir. Ola bilsin ki, dünyanın ən təhlükəli hava limanlarından biri, 5500 metr yüksəklikdə, dağlar arasında gizləndiyindən və bu əraziyə 25-30 pilot enə bildiyindən bütün uçuşlar bir aviaşirkət tərəfindən həyata keçirilir. Butana nəqliyyat Hindistan, Banqladeş, Tayland və ya Nepal vasitəsilə milli aviaşirkət Druk Air vasitəsilə həyata keçirilir və vizalar Butan Krallığının bu ölkələrdəki səfirliklərindən əldə edilə bilər.

Hətta 1960-cı illərdə asfalt, motorlu nəqliyyat vasitələri və hər hansı bir texnologiya mövcud deyildi. Ölkədə işıqfor olmayan yollarda polis qarşılıqlı hörmət və işarələrlə axını müəyyən edir. 1999-cu ilə qədər televiziya və internet rəsmi olaraq qadağan edildi. Bu səbəbdən Butan dünyada televiziyadan istifadə etməyə başlayan sonuncu ölkə hesab olunur. 1980-ci illərdə ölkədə savadlılıq səviyyəsi 10%-ə yaxın idisə, bu gün bu rəqəm 60%-ə yüksəlib.

2008-ci ildə insanların daxili rahatlığının qayğısına qalmaq üçün Milli Səadət Komitəsi yaradıldı. Dünyada bənzəri olmayan Xoşbəxtlik Nazirliyi ümumi milli xoşbəxtliyi siyahıyaalma statistikası kimi üsullarla ölçür. Onlar dünyanın ən kasıb ölkələrindən biri kimi görünsələr də, ölkədə evsiz vətəndaş yoxdur. Evsizlərə krallıq ev tikmək və onu becərmək üçün torpaq ayırır.



Klassik təbabətin və ya ənənəvi üsulların tətbiq olunduğu tibb mərkəzlərindən bütün vətəndaşların pulsuz dəstək alması mümkündür.

Əhalinin əksəriyyəti buddist olduğundan ölkədə heyvanların öldürülməsi qadağandır, ət yalnız Hindistandan gətirilir. Bu səbəbdən ölkədə vegetarianlıq çox yayılmışdır. Yaşadıqları yüksəklikdə yetişdirilə bilən qırmızı düyü ilə hazırlanmış düyü.

Təbiətini qorumaq üçün sərt qaydalar qoyan ölkənin simvolu olan Takins camış boydadır və bir az da keçiyə bənzəyir. Duz, istiot, yağ əlavə edərək çay içirlər. Təbiətə hörmət etdiklərinə görə ölkə ərazisinin 70 faizini təşkil edən meşələrin mühafizəsinə çox həssas yanaşırlar. 2015-ci ildə bir saat ərzində 50 min ağac əkməklə dünya rekordu qıran Butanın əkin sahəsi çox azdır. İqlim müxtəlifdir. şimal tropik; orta hissələrdə qış soyuq, yayı isti olur; Himalay dağlarında qış sərt, yayı isə sərin keçir. Şərqi Himalayda yaşayan iri keçi və ya camışa bənzəyən takin ölkənin simvol heyvanıdır.

### *Zirvəyə qalxmaq qadağandır*

Ölkədə başqa bir qadağa müqəddəs sayıldığı üçün dünyanın ən yüksək zirvələrinə qalxmaqdır. Himalay dağlarının 20 yüksək dağından 18-i bu ölkədədir. Bu səbəbdən də zirvəsinə qalxmayan çoxlu dağlar var.

Butanda yalnız 6000 metrə qədər gəzməyə icazə verilir. Ekoloji həssaslıq o qədər yüksəkdir ki, ölkəyə hər hansı kimyəvi məhsulun idxalı və istifadəsi qadağandır. Ölkədə istifadə etdikləri demək olar ki, hər şeyi onsuz da yetişdirirlər, yetişdirə bilmirlərsə, istifadə etmirlər.

1999-cu ildən plastik torbaların istifadəsi qadağan edilib.

### *Miras böyük qızına keçir*

**Butanda miras paylaşımında çox fərqli bir yol izlənir. Miras ailənin böyük qızına keçir. Əcnəbi ilə evlənmək qadağandır. Kişilər evlənəndə qadının evinə köçürlər. Ölkəni orijinal edən digər element ənənəvi geyimdir. Kişilər dizə qədər kaftanlar, qadınlar uzun yerli paltarlar geyinirlər. Geyənin statusunu və sosial səviyyəsini sol çiyinlərinə bağladıqları yaylığın rəngindən anlamaq olar. Əsilzadələr və keşişlər sarı yaylıq, insanlar isə ağ yaylıq taxırlar.**

**Eminquey**

# Yatdıqca böyüyürsən

**Böyük"yuxusuzluq təhlükəsi" ilə üz-üzəyik. Digər tərəfdən, yuxusuzluq sağlam həyat və mükəmməl sağlamlığın, daha da əhəmiyyətlisi yaxşı yaşamaq və yaxşı yaşlanmağın 4 əvəzedilməz açarından biridir (Digərlərini xatırlayın: sağlam qidalanma, nizamlı fəaliyyət, daimi dinclik). Həyatımızın ən azı üçdə birini yuxuda keçiririk. Ancaq çoxumuz hələ də yuxunu sadə və passiv "istirahət" prosesi kimi düşünürük. Bununla belə, yuxu aktiv bir prosesdir və bir çox metabolik və hormonal funksiyaları yerinə yetirir.**

Hər keyfiyyətli və kifayət qədər yuxu kəmiyyət və keyfiyyət baxımından kafi olarsa, bu qabiliyyəti sayəsində bədənimizi də təmir edir, inkişaf etdirir və böyüdür. Tədqiqatlar göstərir ki, yuxu zamanı bədənimizin "istehsal/anabolik/sintez" fəaliyyətlərinin sürəti artır, məsələn, protein



istehsalı əhəmiyyətli dərəcədə sürətlənir. Bunun əsas səbəblərindən biri keyfiyyətli gecə yuxusu zamanı "böyümə hormonu"nun ifrazının artmasıdır. Bu elmi həqiqət əslində ənənəvi olaraq bilinən, qəbul edilən və hətta "sosial qafiyələr"ə daxil edilən çox köhnə bir bilikdir. Anaların körpələrinə demək olar ki, hər dildə dediyi sözlər, "Sən yat və böyüyürsən!" Onların mahnıları əslində bu təəccüblü və elmi fakta, yuxu zamanı böyümə hormonunun daha intensiv ifrazına əsaslanır. Başqa bir qısa qeyd: Yuxu zamanı müntəzəm olaraq böyümə hormonu istehsal etmək/istehsal etmək yaşlanmaya bağlı performans itkisini azaldır və uyğun və uyğun formada yaşlanmaya inanılmaz töhfə verir. Xülasə, keyfiyyətli gecə yuxusu mükəmməl sağlamlığın əvəzsiz açarlarından biridir. Yuxunuzu qaçırmayın

**Yorğunluğun 10 SƏBƏBİ**
**1- Anemiya**
**2- Depressiya**
**3- Tiroid tənbəlliyi**
**4- Yuxunun olmaması**
**5- Orqan çatışmazlığı**
**6- Toksin yükü**
**7- Dərmanlar**
**8- Hipoqlikemiya**
**9- Vitamin/mineral çatışmazlığı**
**10- Xroniki infeksiyalar**

### *FORMADA OLMAQ ÇOX ƏHƏMİYYƏTLİDİR*

Xüsusilə 60 yaşdan sonra, lakin ümumiyyətlə bütün yaşlar üçün aktiv həyat sürmək və müntəzəm idman etmək yaxşı yaşamaq və yaxşı yaşlanmaq üçün ən təsirli vasitədir. Üstəlik, bunun üçün marafonçu olmağımıza ehtiyac yoxdur. Biz də nizamlı və rasional planlı gündəlik həyat fəaliyyətləri ilə yaşlanmaya bağlı forma itkisinin qarşısını ala bilərik. Bəs biz nə etməliyik? Gəzəcəyik! Pilləkənlərlə qalxıb enirik! Ofisdə və ya evdə olmağımız fərq etməz, ən geci 20-30 dəqiqədən bir 3-5 dəqiqəlik qısa turlar edəcəyik! Çalışacağıq ki, evdə öz təmizliyimizi edək, öz zəhmətimizlə bağçamızın baxımını və təmirini görəcəyik, gündəlik alış-verişə piyada çıxacağıq! Varsa, yol yoldaşımızı, əziz dostumuzu göstərəcəyik. Ailəmizlə birlikdə hər fürsətdən piyada istifadə edəcəyik! Bir sözlə, nə etsək də, HƏRƏKƏT EDƏCƏK. İstənilən yaşda sağlam qalmaq istəyirsinizsə, mümkün qədər tez hərəkətə keçin və unutmayın: HƏRƏKƏT GÖZƏLDİR, İŞLƏNƏN DƏMİR PARLAYIR!

**1- Ailə münasibətlərinizi gücləndirin.**
**2- Dostluq, yoldaşlıq və qohumluq əlaqələrinizi gücləndirin və inkişaf etdirin.**
**3- Daha çevik olmağa çalışın.**
**4- Daha az tənqid edib, daha çox tərifləyin.**
**5- Faydasız münasibətləriniz varsa, "Zəhərdən təmizləyin".**
**6- Qonşularınızla daha tez-tez görüşün.**
**7- Könüllü təşkilatlara qoşulun.**
**8- Bacardıqca tətilə çıxın.**
**9- Yeni hobbilər əldə etməyə çalışın.**
**10- Yaradıcı olmağa çalışın.**

**Emin**

# Bakıda qadın müştəri taksi sürücüsünü aldadıb ona zibil atdırdı

**Alxan adlı taksi sürücüsü Adalet.az-ın əməkdaşına başına gələn maraqlı bir hadisəni nəql edib. Taksi şirkətlərində birində çalışan sürücü bir müddət öncə Xəzər rayonu ərazisində, Həzi Aslanov metrosuna yaxın binaların birindən ona sifariş gəldiyini bildirib. O, olanları belə nəql edib:**

"Müştəri Həzi Aslanov metrosunun yanındakı ünvandan Xırdalan şəhərinə sifariş vermişdi. Ünvana çatıb zəng vurdum ki, sizi gözləyirəm. Telefona bir xanım cavab verdi və dedi ki, çantalarım ağırdı, beşinci mərtəbəyə qalxıb mənə kömək elə. Mən də düşündüm ki, xanımdı, yəqin həqiqətən də çantalarına gücü çatmır. Liftlə qalxdım və beşinci mərtəbədə məni qarşıladı. İki ağır çantanı mənə verdi və dedi ki, siz düşün qalan veşimi də götürüb gəlirəm. Aşağı düşüb xanımı gözlədim, aradan 5-10 dəqiqə ötdü, amma xanım gəlmədi. Zəng vurdum və gördüm ki, nömrəmi blok edib.

Sonra şirkətlə əlaqə saxladım. Şirkət də qadınla əlaqə saxlaya bilmədi. Ondan sonra şirkətdən dedilər ki, çantaları aç bax gör için-




də nə var. Çantaları açanda gördüm ki, hər ikisi evdən çıxan tullantılardı. Orda ətrafı təmizləyən qadınlar dedi ki, "oğul, sən birinci "qurban" deyilsən, bir də belə şeylərə aldanma. Götür o tullantıları da yolda zibilxanaya atarsan.

Məcbur olub tullantıları da götürüb maşına qoydum və yolda zibilxanaya atdım. Xanımla nə qədər çalışsam da əlaqə saxlaya bilmədim"-deyə taksi sürücüsü bildirib.

**Vasif Əlihüseyn**

# Məşhur aparıcı Azərbaycan haqqında sənədli film çəkdi

**Türkiyənin tanınmış aparıcısı, Azərbaycan həqiqətlərini dünyaya çatdıran Əsra Gəzginci "Əsrarəngiz Azərbaycan" adlı sənədli film ərsəyə gətirib.**

Türkiyənin Azərbaycandakı səfirliyindən Adalet.az-a verilən məlumata görə, sənədli filmin əsas mövzusu Azərbaycanın mədəni irsi, folkloru, xüsusilə Qarabağın tarixi, həmçinin, Azərbaycan-Türkiyə dostluq-qardaşlıq



münasibətləridir. Əsra Gəzgincinin sözlərinə görə, "Əsrarəngiz Azərbaycan" filmində Bakıdan Türk dünyasının paytaxtı Şuşaya qədər uzanan səyahəti əks etdirən ümumilikdə 10 veriliş çəkilib.

Qeyd edək ki, sənədli film daha öncə Türkiyənin NTV kanalında izləyicilərə təqdim edilib. Verilişdə işğaldan azad olunan rayonlarımız haqda da danışan Ə.Gəzginci Şuşanın önəmi barədə NTV izləyicilərinə ətraflı məlumat verib.

Film aprelin-2-də Azərbaycan İctimai Televiziyasının efirində də yayımlanacaq. Daha öncə filmin ilk bölümü yayınlanmışdı.

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# YURDA DÖNÜŞÜN BÖYÜK SEVİNCİ

**”Kim nə deyir-desin, adamın öz evinin, öz yurdunun və ocağının yerini heç nə verə bilməz. Hətta ən əziz adamın sənə şərait yaratsa, qucaq açsa belə öz evinin rahatlığını heç yanda, heç harda tapa bilməzsən”. Bu sözləri mənimlə söhbətində 1993-cü ilin avqustun 23-də Füzuli rayonu işğal edilərkən məcburi köçkünlük günlərini və illərini yaşayan, uzun illər pedaqoji sahədə çalışmış, gözəl ziyalı və mənalı həyat tərzi yaşayan Fazil Dayandur oğlu Məhərrəmovdur. O, deyir ki, eləki, Böyük Bəhmənli ermənilərin işğalı altına keçdi, bax o gündən bizim qara günlərimiz başladı. Düzdür, bizə müəyyən yerdə dövlət şərait də yaratdı, maddi və mənəvi cəhətdən dəstək də verdi, hələ üstəlik Ulu Öndər Heydər Əliyev İmişlidə olarkən biz məcburi köçkünlərlə görüşündə dedi ki, hamınız tezliklə öz kəndinizə, evinizə dönəcəksiniz.**

Çox keçmədi ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü ilin yanvarın əvvəllərində Azərbaycan Ordusu ”Horadiz əməliyyatını” həyata keçirdi. Qısa zaman kəsiyində Araz boyunda Füzulinin işğal olunmuş 22 kəndi və Horadiz şəhəri erməni faşistlərindən azad olundu və bu döyüşlərdə sözün həqiqi mənasında Azərbaycan əsgəri, Azərbaycan polisi çox böyük qəhrəmanlıq, şücaət göstərdi və ermənilərin məğlub olmamaq sindromunu qırdılar və o mifi sındırdılar. Bax, bundan sonra Azərbaycan Ordusunun ən böyük qələbəsi qazanıldı, tarixə yeni bir səhifə yazıldı. Amma onu da qeyd etmək lazımdır ki, erməni faşistləri 6 ay müddətində işğal etdikləri 22 yaşayış məntəqəsinin əksəriyyətini yandırmış, yaxud da evlərin, sosial obyektlərin döşəmələrini, tavanlarını, qapı-pəncərələrini söküb aparmışdılar.

Yəni, bizimkilər quru yurda qayıtmalıydılar. Ulu Öndər Heydər Əliyevin tapşırıq və göstərişi əsasında çox yox, 6 ay müddətində bu 22 yaşayış məntəqəsinin hər birində bütün infrastruktur - yol, su, qaz xətti, rabitə bərpa edildi. Artıq demək olar ki, əhali yaşayış məntəqələrinə köçə bilərdi. Çünki burada onların yaşaması üçün nəinki minium şərait, həm də ən yüksək imkan yaradılmışdı. Təbii ki, belə olan halda 1 il məcburi köçkünlük şəraiti yaşayan insanlar öz yurdlarına çox böyük sevinc və fərəhlə dönmək istəyirdilər.



Əlbəttə, bu sevinci 22 kəndin və Horadiz şəhərinin bütün sakinləri yaşayırdılar. Rayonun ən böyük yaşayış məntəqələrindən biri olan Böyük Bəhmənli kəndinin sakinəlri isə yurda dönüş anını çox böyük səbirsizliklə gözləyirdilər. Həmin sakinlər məcburi köçkünlük dövründə İmişlidə, Sabirabadda, Saatlıda, Şirvanda və o cümlədən 40-a yaxın rayonda yaşamışdılar. Bu xəbəri, bu anı eşidən kənd sakinləri sevinclərindən bilmirdilər ki, nə eləsinlər.

Yaşı 90-nı haqlamış Talb kişi deyir ki, mən ömrümdə öz yurduma qayıtdığım gündə olduğu kimi heç vaxt sevinməmişdim.

Dünyanın ən ağır anlarını və günlərini yaşamışam. İkinci Dünya müharibəsini görmüşəm, repressiya anlarını yaşamışam, amma onlardan da ən dəhşətlisi torpağı və yurdu itirmək, məcburi köçkünlük ömrünü yaşamaqdır.

Bir çox həmkəndlimiz bu ayrılığa dözə bilmədi, dünyasını dəyişdi, bəziləri isə şəkər və ürək xəstəliklərinə tutuldular, amma şükürlər olsun ki, Allahın və Ulu Öndər Heydər Əliyevin köməkliyi ilə biz yenidən dədə-baba yurdumuz Böyük Bəhmənliyə qayıtdıq. Düzdür, ilk günlər, ilk aylar bir çox çətinliklər yaşadıq, amma aylar ötdükcə dövlət bizə hərtərəfli qayğı göstərdi və yavaş-yavaş ayaq üstə durmağa başladıq. Çünki bizim camaat çox zəhmətkeş, fərasətli, bacarıqlı insanlardır. Onlar səhrada da özlərinə həyat qurmağı bacarırlar. Biz kəndə gələnin ikinci ili artıq torpaq sahələrini əkdik, mal-qoyun saxladıq və üstəlik də bir çox sakinlərimiz ticarətlə məşğul oldular. Bizim özümüz də dədə-babadan mal-heyvan saxlamışıq.

Sovet hökumətinin kəsə-kəs vaxtında heç kim beş-on qoyundan artıq saxlaya bilməzdi, amma biz Zeynallıların həyətində 100-dən çox qoyun-quzu vardı.

Yurda qayıdışdan sonra yenə təsərrüfatımızı əkdik, qoyun-quzumuz çoxaldı, gəlirimiz artdı. Payı bəlli torpaq sahəsində taxıl, yonca və eləcə də bostan-tərəvəz məhsulları əkdik. Şükürlər olsun ki, dörd-beş ildə nə itirmişdiksə, hamısını qazana bildik. İndi Böyük Bəhmənli bəlkə də ölkəmizin ən varlı kəndlərindən biridir.

Burada 1500-dən çox ev var və onların da əksəriyyəti yurda dönüşdən sonra tikilib. Əgər Sovet hökumətinin vaxtında bizim kənddə 4-5 maşın vardısa, indi hər qapıda avtomobil var. Bəzilərinin isə, iki maşını var. Üstəlik də son 10-15 ildə kəndimizdə çox böyük abadlıq işləri görülüb. Kəndin dörd tərəfini birləşdirən asfalt yol çəkilib. Təbii qaz kəndə gəlir, üstəlik də artezianlarla yanaşı, kəndimizə yüksək keyfiyyətli su anbarından içməli su da verilir. İndi burada yaşamaq və işləmək çox gözəldir. Demək olar ki, bütün Bəhmənlilər doğma ocağına qayıdıb.



Allahyar Əliyev adına Böyük Bəhmənli kənd tam orta məktədin direktoru Həsən Rzayev deyir ki, kəndə dönüşümüzü heç vaxt yadımdan çıxara bilmərəm. Rəhmətlik atam Həşim müəllim elə sevinirdi ki, heç ömründə belə fərəhli anlar yaşamamışdı. Dedi: oğul, ölmədim, bu günü də gördüm, evimizə, ocağımıza döndük. Atam həyətimizə girəndə dizini yerə qoydu və torpaqdan öpdü. Elə biz də dizimizi yerə qoyub, torpağımızdan öpdük. Elə gözəl ətri var idi ki! Qısa zaman kəsiyində kəndimizdə yandırılmış evlərin hamısı və o cümlədən mənim rəhbərlik etdiyim məktəb əsaslı surətdə təmir edildi.

Ulu Öndər Heydər Əliyev dəfələrlə Füzuliyə səfər etdi və bizə çox böyük arxa oldu. Sonra isə Ulu Öndərin yolunu Prezident İlham Əliyev davam etdirdi. O da Horadizdəki çıxışında dedi ki, burada yaşayanlar Milli Qəhrəmandırlar. Bəli, biz cənab Prezident İlham Əliyevin böyük qayğısı və köməkliyi nəticəsində bu ocaqda, bu yurdda möhkəmləndik, daha yaxşı yaşadıq. Üstəlik də cənab Prezident çox sağ olsun ki, məcburi köçkün və qaçqınlara verilmiş statusdan bizim hələ də yurda qayıdandan sonra istifadə etməyimizə şərait yaradır. Bu diqqətə görə bir daha öz kəndimizin sakinləri və ziyalıları adından cənab Prezidentə öz təşəkkürümü bildirirəm.

**Bəli, Füzuli rayonunun Böyük Bəhmənli kəndinin sakinləri yurda dönüşün sevincini bu gün də yaşayır və onlar deyirlər ki, bu sevinci bizə Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev bəxş edib. Biz də kəndimizə dönəndən sonra qolumuzu çırmadıq və hərəmiz bir işdən yapışdıq, yaşayışımız daha da yaxşılaşdı, özümüzü xoşbəxt və firavan hiss edirik. Allah bu günü bizə çox görməsin. Min şükür ki, yurdumuza döndük və öz elimizdə-obamızda, kəndimizdəyik!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN
MALİYYƏ YARDIMI İLƏ

# Haqqı nahaqdan qorumaq niyyəti

**... Çəkdiyi əzabları, dözülməz zülmləri, məşəqqətləri, canındakı ağrıları bir özü bilirdi, bir də Allahı. Dörd il ölüm hökmü altında, güllələnmək qorxusu ilə yaşamaq dəhşət idi. Hər gün gecə-gündüz döyülmək, özünün dediyi kimi, itin belə bəyənmədiyi əzraqları yeməyə məcbur olmaq... Bunların nə demək olduğunu dərindən dərk etmək üçün gərək bu acı taleyi yaşayaydın...**

... 1988-ci il dekabrın 6-da Gəncə şəhər Milis İdarəsinin bir zabit əməkdaşı şəhər avtobazasına gələrək burada sürücü işləyən Nizamiyə yaxınlaşıb: Mənimlə Milis idarəsinə getməlisən, - dedi.

Nizami heyrətlə milis zabitinin üzünə baxdı, təəccüblə çiynini çəkib: Axı, mən nə etmişəm ki, milis idarəsinə də gedim?! - deyə soruşdu.

Milis zabiti qəzəblə: Çox danışma, - dedi - gedək, orada bilərsən...

Beləliklə bir neçə məsələni aydınlaşdırmaq adı altında şəhər milis idarəsinə gətirilən Nizaminin həmin vaxtdan qara günləri başladı.

Onu ittiham edirdilər ki, sən dünənki mitinqlərdə idarə etdiyin KAMAZ maşınını qəsdən asayişi qoruyan Sovet əsgərlərinin üstünə sürmüsən, nəticədə 4 nəfəri öldürmüsən, 10 nəfəri də ağır yaralamısan. Nizami nə qədər and-aman edib həmin hadisəni törətmədiyini bildirsə də onun sözünə fikir verən olmadı.

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə dair Sovet İttifaqı rəhbərliyinin riyakar siyasəti, Azərbaycanlıların öz doğma ata-baba yurdlarından vəhşicəsinə qovulub didərgin salınması xalqımızın kəskin nifrətinə və hiddətinə səbəb olmuşdu. Bu ədalətsizliyə qarşı keçirilən etiraz mitinqləri və bu mitinqlərdə iştirak etməklə öz etiraz səslərini ucaldan soydaşlarımız Rusiyadan göndərilmiş təxribatçı qrupların cinayətkar əməllərinə tuş gəlirdilər. Bunlardan biri də Nizami Abdullayev olmuşdu.

Keçirilən etiraz mitinqlərində həqiqətən belə bir hadisə baş vermişdi: Maşın əsgərlərin üstünə sürülmüşdü. Bu isə Moskvadan göndərilmiş xüsusi təxribatçı qruplar tərəfindən tutarlı bir bəhanə əldə etmək üçün törədilmişdi. Və bu cinayət əməli bu işdə heç bir günahı olmayan sürücü Nizami Abdullayevin boynuna qoyulmuşdu.

İstintaqı o vaxt Moskvadan göndərilmiş milliyətcə rus olan müstəntiqlər aparırdılar.

Cinayətə haqsız cəlb olunmuş Nizamiyə dəhşətli işgəncələr verilirdi. Dırnaqlarını, dişlərini kəlbətinlə iynəsiz-dərmansız çəkib çıxarırdılar. Rezin torbaya salıb saatlarla döyürdülər...

Nizaminin mühakiməsi Rostov Şəhər Məhkəməsində oldu. Məhkəməyə şahid qismində çağırılan rus- sovet əsgərlərinə təhkim olunmuş zabit məhkəmənin fasilə vaxtlarında qabaqcadan hazırlanmış şahidlərə pıçıltı ilə deyirdi: " Məhkəmədə ifadə verib deyərsiniz ki, KAMAZ-ı əsgərlərin üstünə sürən Nizami idi.

Yalançı şahidlər onlara verilmiş tapşırığa uyğun olaraq məhkəmənin gedişində həyasızcasına Nizaminin üzünə durur, ona şər-böhtan atırdılar.

Belə bir saxtakarlıqla, haqsızlıqla başa çatan ermənipərəst Rostov Məhkəməsində Nizami Abdullayev ən ağır cəzaya-ölümə məhkum edilir...

... 1990 - cı ilin iyun ayında Moskvada Kommunist Partiyasının 28-ci qurultayı keçirilirdi. Azərbaycan Ədliyyə Naziri Əlisaab Orucov da qurultayın nümayəndəsi kimi Moskvaya gəlmişdi. Qurultay günləri Sovet İttifaqının müxtəlif ərazilərindən gəlmiş şikayətçilər ümidlərini Partiyanın Qurultayına bağlamışdılar. Odur ki, Moskvaya pənah gətirmiş çoxsaylı şikayətçilər qurultay nümayəndəsi olan yüksək vəzifəli şəxslərin yerləşdiyi mehmanxananın qarşısında və qurultayın keçirildiyi Kreml qapısının ağzında cərgə ilə düzülmüş və boyunlarından edəcəkləri şikayətlərin məğzi yazılmış lövhələr asmışdılar. Qurultay nümayəndəsi olan vəzifəli şəxslər həmin lövhələrdə yazılmış şikayətləri nəzərdən keçirə-keçirə Kreml qapısına yaxınlaşır və içəriyə daxil olurdular. Əlisaab Orucov da şikayətçilərin cərgəsi önündən keçərkən Azərbaycandan gəlmiş bir vətəndaşın boynundan asılmış şikayət ərizəsi onun diqqətini cəlb edir. Əlisaab müəllim dərhal ayaq saxlayıb həmin şikayətçiyə yaxınlaşır, onunla salamlaşıb hal-əhval tutur və ona deyir ki, sabah gələrsən Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə, səni orada qəbul edəcəm. Əlisaab müəllim qəbulun dəqiq vaxtını da ona bildirir.

Beləliklə Əlisaab müəllim ertəsi gün Daimi nümayəndəlikdə Nizaminin atası Adil kişi ilə görüşür. Adil kişi hadisəni olduğu kimi ona danışır və onu inandırır ki, hazırda "güllə altında" həbsdə saxlanılan oğlunun bu işdə heç bir günahı yoxdur. Adil kişinin SSRİ Ali Məhkəməsinə etdiyi xahiş də rədd edilmişdi. Vəziyyətin faciəli sonluqla bitəcəyini yəqin edən Əlisaab müəllim son ümid yeri kimi yaxından tanıdığı, xarakterinə və peşəkarlığına yaxşı bələd olduğu tanınmış vəkil Teymur İsmiyevə zəng edib ondan xahiş edir ki, şikayətçi Adil kişini diqqətlə, ətraflı dinləsin və Rusiya Federasiyası (RSFSR) Ali Məhkəməsinin sədrinə nəzarət qaydasında Adil kişinin adından şikayət ərizəsi yazsın. Beləliklə Adil kişi Əlisaab müəllimin məsləhəti ilə Bakıya qayıdıb, əlində olan sənədləri vəkil Teymur İsmiyevə təqdim edir.

...2 gündən sonra Adil kişi Moskvaya gəlib Teymur İsmiyevin tərtib etdiyi şikayət ərizəsini Əlisaab müəllimə çatdırır. Əlisaab müəllim öz tərəfindən müvafiq zəruri tədbirləri görür.

Beləliklə həm Əlisaab Orucovun göstərdiyi hüquqi yardımlar və eləcə də bilikli və təcrübəli vəkil Teymur İsmiyevin necə deyərlər, daşdan keçən, hətta daş ürəkləri belə yumşaldan müdafiə xarakterli çıxışı SSRİ Ali Məhkəməsinin Plenumunda əsl həqiqətin, haqq-ədalətin üzə çıxmasına səbəb olur. Güllə altında yataraq hər gün ölümünü gözləyən Nizami Abdullayevin ölüm hökmü ilə əlaqədar verilmiş qərar ləğv edilir.

Sözümün bu yerində məhkəmə-hüquq sahəsində müstəsna xidmətləri və böyük təcrübəsi olan Əməkdar hüquqşünas İkram Kərimovun bir sözü yadıma düşdü. O, deyir:

" Teymur İsmiyevin SSRİ Ali Məhkəməsinin plenumundakı müdafiə çıxışını dinləyəndə çox qəhərləndim, gözlərim doldu. Həmin plenumda qəbul edilən qərar Teymur İsmiyevin bir vəkil kimi qələbəsi idi."

Bu fakt da maraqlıdır: Vəkil Teymur İsmiyevin adını eşidəndə Nizaminin həbsxanadakı kamera yoldaşları ona demişdilər: "Heç narahat olma, Teymur İsmiyev sənin müdafiəni öhdəsinə götürübsə, hesab elə ki, tezliklə evinizdəsən."

Belə də olur. Dörd il güllələnmə hökmü altında həbsdə saxlanan Nizami azadlığa buraxılır. Belə mürəkkəb işlərin uğurla nəticələnməsi Teymur İsmiyevin vəkillik fəaliyyətində yüzlərlədir.



Özü-özünə böhtan ataraq ölüm cəzasına məhkum edilmiş şəxslərin müdafiəsi vəkildən əsl peşəkarlıq və xüsusi istedad tələb edir. Belə müdafiəni aparmaq vəkillik peşəsində ən çətin və nadir hadisə sayılır. Buna görə də Teymur müəllim bir vəkil kimi aylarla, illərlə çalışaraq əsl həqiqəti üzə çıxarmış, beləliklə müxtəlif vaxtlarda 50-dən artıq şəxsi ölüm hökmündən azad etmiş, əsl cinayətkarlar isə layiqli cəzalarını almışlar. Peşəkar vəkilin bu fədakarlığı adla deyilir, ağızdan-ağıza dolaşırdı.

Onun "Xuliqanlıq işləri üzrə məhkəmə təcrübəsinin bəzi məsələləri" adlı məqaləsindən o vaxtlar Rusiyada tədris vəsaiti kimi istifadə olunurdu.

Teymur müəllim dövri mətbuatla da müntəzəm olaraq sıx əlaqə saxlayır, dərc etdirdiyi yazılarda vəkillik peşəsinin xüsusiyyətləri və problemləri barədə maarifləndirici fikirlər söyləyirdi. Çalışırdı ki, öz bilik və təcrübəsini, iş üslubunu gənc vəkil həmkarlarına da öyrətsin. Bu sahədə onlara maraqlı tövsiyələr və məsləhətlər verirdi...

... Teymur İsmiyev 1924-cü ildə Kürdəmir rayonunun Xırdapay kəndində, Cömardlı məhəlləsində dünyaya gəlmişdi. 1941-ci ilin Böyük Vətən müharibəsi başlananda 9-cu sinifdə oxuyurdu. Yaşı düşmədiyinə görə müharibəyə aparmırdılar. O isə cəbhəyə getməyə can atırdı. Buna görə də yaşını 2 il əvvələ yazdırır və 1941-ci ildə müharibəyə gedənlərin sırasına qoşulur, ön cəbhədə gedən döyüşlərdə iştirak edir. 1943-cü ildə ağır yaralanır. Öldüyünü zənn edib onu morqa qoyurlar. Bir sutka morqda qalır. Səhər morqa daxil olan sanitar onun ufultusunu , iniltisini eşidir və onu təzədən şöbəyə gətirirlər. Üzərində cərrahiyyə əməliyyatı aparılır və o, yenidən həyata qayıdır.

Müharibədən 2-ci qrup əlil kimi dönən Teymur bir müddət sağalıb özünə gələndən sonra Moskvaya gedərək orada Hüquq institutunu bitirir və xeyli müddət hüquq orqanlarında çalışır. 1955-ci ildən isə vəkil kimi fəaliyyət göstərməyə başlayır. O vaxt Bakıda vəkillər əsasən yəhudu, rus və erməni millətindən olanlar idi. Odur ki, hüquq məsləhətxanasına gələnlər adətən o millətlərdən olan vəkillərə müraciət edirdilər. Burada təzə fəaliyyə başlayan Teymur İsmiyev tərəfə isə heç baxan da olmurdu. Bu soyuq münasibət, saymamazlıq heç şübhəsiz, onun xətrinə dəyirdi, onu sındırırdı. Bir gün təsadüfən məsləhətxanaya gələn bir nəfər Teymura müraciət etməli olur. Teymur həmin şəxsə bildirir ki, sizin ərizənizi mən yazacam. Sonra da sözünə əlavə edib deyir: " Əgər mən ərizəni onlardan pis, zəif yazsam və yaxud işi pis aparsam, onda əllərimi kəsərəm."

Beləliklə vəkil kimi yeni fəaliyyətə başlayan Teymur üzərinə götürdüyü işi çox yüksək səviyyədə, hətta təcrübəlilərdən də yaxşı, əsl peşəkarlıqla aparır. Və onun yanına gələnlərin, ona müraciət edənlərin sayı getdikcə artır. Bu müraciətlər nəticəsində, eləsə də uğurlu fəaliyyəti sayəsində tezliklə tanınıb şöhrətlənir.

Adamlar son ümid və güman yeri kimi ən çox vəkil Teymur İsmiyevi axtarırdılar. Bilirdilər ki, əgər istintaqın gedişində və yaxud məhkəmə prosesində haqq-ədalət pozulubsa, onu yalnız Teymur İsmiyev öz bilik və təcrübəsi, prinsipallığı, insani keyfiyyətləri ilə aradan qaldıracaq. Çünki o, bütün fəaliyyəti boyu istinad nöqtəsi kimi qanunlara və insani dəyərlərə arxalanırdı. Nöqsanlı istintaq işləri, məhkəmənin hansısa birtərəfli və qərəzli mövqeyi bu peşəkar vəkilin peşəkar süzgəcindən keçə bilməzdi. O, bu uğurlu nəticəyə əsl mənada çəkişə-çəkişə, döyüşə-döyüşə nail olurdu.

35 ilə yaxın bir müddətdə SSRİ Ali Məhkəməsində vəkillik etmiş bu peşəkar insan əvvəldən - axıra qanunların aliliyinə, haqq-ədalətin varlığına söykənərək haqsızlığa düçar olmuş yüzlərlə müqəssiri fədakarlıqla müdafiə edərək onların azadlığa çıxmasına nail olmuşdur.

Teymur müəllim vəkil tərəfindən yazılan ərizələrin hər birinə bir insan taleyinin həlli kimi baxırdı və buna daim xüsusi həssaslıqla yanaşırdı və bunları həmkarlarına da tövsiyə edirdi. Deyirdi ki, vəkil istintaq materiallarını çox diqqətlə öyrənməli, bir- bir bütün instansiyalardan keçməli, müttəhimlə görüşməli və həmişə, bütün hallarda prinsipial mövqe tutmalıdır. O, həmçinin deyirdi: "Vəkil cinayətin xarakterindən çox insanın özü, onun taleyi maraqlandırmalıdır. Çünki heç bir cinayət səbəbsiz baş vermir. Hamısının az da olsa real mənbəyi var. Vəkil bu mənbəyi tapmağı bacarmalıdır."

Adını hələ ilk gənclik illərimdən eşidib fəxr duyduğum bu insanla görüşüb yaxından tanış olmaq mənə də qismət oldu. Tanınmış ziyalılarla əlaqədar yazacağım kitaba Teymur müəllimi də daxil etməli idim. Bu məqsədlə onun iş yerinə - Bakı şəhərindəki 3 saylı hüquq məsləhətxanasına gəldim.

Görüşüb hal-əhval tutduq. Rayonu, kənd-kəsəyi xəbər aldı. Bir vaxtlar yalnız adını və xoş soraqlarını eşitdiyim bu gözəl insanın istiqanqlı münasibəti, nurlu çöhrəsi, xoş siması elə ilk anlardan məndə xoş təəssüratlar yaratdı. Gəlişimin məqsədini bildirdim. Üzürxahlıqla dedi: Ətraflı söhbət etmək üçün burada vaxt olmur, yaxşı olar ki, evə gələsən.

Bir neçə gündən sonra evinə gəldim. Mənzilindəki iş otağı geniş olsa da divar boyunca sıralanmış çoxsaylı kitablar, üst-üstə yığılmış qalın qovluqlar, müxtəlif qəzet və jurnal dəstləri, masa üstündəki yazılar və s. burada darısqallıq yaratmışdı.

Yazı masasının üstündəki kitablardan biri diqqətimi cəlb etdi: M.Ə.Sabirin "Hophopnamə"si idi. Kitabı maraqla götürüb vərəqlədim.

Teymur müəllim marağımı görüb dedi: Bu kitab uzun illərdir ki, mənim gözümün qabağındadır. Yazı-pozu işlərindən bir balaca bekarlaşan kimi, həm də yorğun olduğum məqamlarda "Hophopnamə" ni açıb buradan nəsə bir şey oxuyuram. Hər dəfə də oxuyanda xüsusi ləzzət alıram və hər dəfə də bu şeirlərdə bir yenilik görürəm.

M.Ə.Sabirdən söhbət düşəndə Teymur müəllim uşaq vaxtı atasından eşitdiyi bir xatirəni yada saldı. Sabir Şamaxıdan Kürdəmirə gəlib qatarla Tiflisə gedəndə bir gün onların evində qonaq olmuşdu.

Masanın üstündəki qəzet nömrələrini açıb diqqətlə nəzərdən keçirirəm. Bu qəzetlərdə Teymur müəllimin müxtəlif vaxtlarda dərc olunmuş təhlili məqalələri, eləcə də Teymur müəllimlə aparılan söhbətlər, müsahibələr öz əksini tapmışdır. Bu yazıların hamısında Əməkdar hüquqşünas, təcrübəli vəkil, hüquq doktoru Teynur İsmiyevin məsləhət və tövsiyə xarakterli fikir və mülahizələri böyük maraq doğurur.

Onun bir çox yazılarında dövlətçiliyimizin, müstəqilliyimizin daim fədakarlıqla qorunmasına dair fikirləri, xüsusilə də erməni vəhşiliyinə, erməni riyakarlığına dərin nifrət hissi ifadə olunub. Bu barədə söhbət edərkən Teymur müəllim erməni separatiziminin baş qaldırdığı 88 - ci il hadisələri zamanı gənc soydaşımız Əhməd Əhmədovun həbs edilib güllələnməsini ürək ağrısı ilə xatırladı, dedi ki, onun vəkili mən olsaydım, mütləq onu xilas edərdim. Sonra da sözünə əlavə edib dedi: "Çox heyf ki, o cür yeniyetmə gənc haqsız yerə məhv olub getdi..."

... Teymur müəllim gözəl ailə başçısı kimi də həmşə nümunə olub. Övladlarının təhsilli, bilikli, savadlı, tərbiyəli, ədəb-ərkanlı olmalarına daim ciddi fikir verirdi. Övladlarının dördü də, eləcə də nəvələrinin hamsı ali təhsillidir. Onlar öz ata və babalarının adını həmişə uca tuturlar.

...Teymur müəllim deyirdi: "Təkcə kitab və mühazirə ilə vəkillik sənətinə yiyələnmək mümkün deyil.Vəkilliyə həm də həssas qəlbə və duyuma malik olanlar gələ bilərlər."

**Söylədiyi bu fikirlərə bütün fəaliyyəti boyu layiqincə əməl etmiş Teymur İsmiyev nəinki respublikamızda və keçmiş İttifaqda, eləcə də ondan xaricdə də dünya hüquqşünaslığı və vəkilliyi üçün daim örnək olub. O, bu gün də hörmətlə xatırlanır.**

**Tofiq Abdullayev**
**Jurnalist**
**AJB-nin üzvü**

## “Mənim filmim sayəsində Azərbaycan kinosu...”

**Şeyx Əbdülün ünvanıma səsləndirdiyi ittihamlar boş və əsassız şeylərdir. Çox məntiqsizdir. Onun səviyyəsinə enmək mənə yaraşmaz”**

Bunu Adalet.az-a açıqlamasında kinorejissor Ayaz Salayev Xalq artisti Şeyx Əbdül Mahmudbəyovun onun ünvanına səsləndirdiyi ittihamlara cavab verərkən deyib. O, daha sonra bunları əlavə edib:



”Azərbaycan kinosunu təmsil edəndə məni burdan göndərmirdilər, xaricdən dəvət alırdım.

Festivallarda münsiflər heyətinin üzvü olmuşam. Ünvanıma səsləndirdiyi ittihamlar onun səviyyəsindən xəbər verir.

Mənim filmim sayəsində Azərbaycan kinosu müstəqillik dövründə ilk dəfə dünya festivalına çıxıb. Məni tənqid etmək üçün səviyyə lazımdır və onda isə o səviyyə yoxdur. O, mənə ”ilişmək” istəyir, amma səviyyəsi çatmır. Mən haçan demişəm ki, Azərbaycan kinosunu tanımıram? Mən Azərbaycan kino sahəsində işləyirəm və kifayət qədər xidmətlərim var”.

**Qeyd edək ki, Xalq artisti Şeyx Əbdül Mahmudbəyov mətbuata açıqlamasında kinorejissor Ayaz Salayevin ünvanına sərt ittihamlar səsləndirib. Xalq artisti bu ittihamları Şəfiqə Məmmədovanın rəhbərlik etdiyi Azərbaycan Kinematoqrafçılar İttifaqı haqda danışarkən deyib.**

**Vasif Əlihüseyn**



İslam SADIQ

# SÖZÜNƏ OXŞAYAN ŞAİR

**Şeir kitabı mənim üçün iki-üç cür olur: iki-üç şeirini oxuyub atdığım kitablar var. Bir də iki-üç şeirdən sonra hamısını oxuduğum kitablar. Heç iki-üç şeirini oxumadan atdığım şeir kitabları da olur. Bunlar yaltaqlıq havasıyla yazılmış kitablardır. Yaltaqlığın havası burnuma dəyəndən sonra o kitabı oxumağa məndə həvəs qalmır. Fikrim də budur ki, yaltaqlıqla şairlik bir ürəkdə baş-başa yaşaya bilməz. Ona görə yaltaqlıq başlayan kimi şairlik qurtarır. Başqa sözlə desəm, yaltaqlıq bir ürəyə girib orda yuva salan kimi, şairlik perikir və bir də o yuvaya qayıtmır. Böyük istedadlar yaltaqlana bilməzlər. Yaltaqlıq yarımçılıqdan, içiboşluqdan yaranır.**

Mən yaxşı şeiri iki dəfə oxuyuram. Birinci dəfə hamı kimi, ikinci dəfə özüm kimi. Bəzən bir dəfə oxumaqla şairin nə demək istədiyini tutmaq olmur. Şeir xoşuna gəlsə də, gəlməsə də, fikir qaranlıq qalır. İkinci dəfə oxuyanda şeirdəki sətiraltı fikirlər rəssam lövhəsi kimi göz önündə canlanır. Mən Mehdi Cəlalın "Başın üstdə dolan bulud" adlı kitabındakı şeirləri üç dəfə oxudum. Özü də kitabı oxuyanda onun haqqında yazmaq fikrim yoxuydu. Onu üç dəfə oxumağa məni həvəsləndirən də akademik Tofiq Hacıyevin nə vaxtsa Mehdi Cəlalın şeirləri haqqında söylədiyi xoş sözlər oldu. Əgər mən Mehdi Cəlalın şeirlərini üç dəfə oxumuşamsa, demək onlarda məni tutan nəsə var. Nəsə dedim, ancaq yaxşı alınmadı. Şair dostumun şeirlərində məni tutan çox şey var.

Birincisi, Mehdi Cəlalın ruhu mənim ruhuma çox yaxındı, doğmadı. Onun şeirləriylə mənim şeirlərim ayrı-ayrı xanalarda müxtəlif barmaqlarla toxunmuş xalçalar kimi bir-birinə oxşamasalar da, hamısının ipi-sapı bir qazanda boyanıb. Bəlkə ona görə onun şeirləri mənə xoş gəldi. İkincisi, Mehdi Cəlal şeir xətrinə şeir yazmır. Bütün şeirlərini ürəyinin hökmüylə qələmə alır. Üçüncüsü, şair həyatda olduğu qədər də şeirlərində səmimidir. Özü sözünə oxşayır, sözü də özünə. Ona görə də özünə oxşamayanlar haqqında deyir:

*İçinlə çölünün arası uzaq,*
*Nəsə heç özünə oxşamadın sən.*
*Bir gün ürəyində qurd ulayacaq,*
*İndi haraylayan səsə dönməsən.*

Özünə oxşamayanlar yad səslərə uyub aldanırlar. Öz içlərindən gələn səs onların qulaqlarına çatmır. İlğımlara aldanan uşaqlar kimi yad səslərin dalınca düşürlər. Mehdi Cəlalın öz qəlbinin pıçıltıları olduğuna görə, onun sözlərinin sanbalı, salğarı yerindədi. Oxuyursan, düşünürsən, duyursan ki, şeir sənə nəsə deyir. Onda öz dünyana qapılıb sözlərin səsini eşitməyə çalışırsan.

Şeir mənim üçün hisslərin, duyğuların sözlə çəkilmiş şəklidir. Eyni hisslərlə, duyğularla yaşayan şairlərin şeirləri də oxşayır. Buna pis baxanlar, məncə, şeirin nə olduğunu bilmirlər.

*Bir vaxt çəkinərdim Müşfiq yaşından,*
*İndi də Nəsimi yaşı gözləyir*
*Belə ölümləri bəlalı yurdun*
*Torpağı gözləyir, daşı gözləyir.*

*Nə torpaq diksinir, nə dağ dillənir,*
*Qannan rəng alırsa, bayraq dillənir.*
*Haqq deyib durmuşam,*
*nahaq gülləni*
*Təşnə ürəyimin başı gözləyir.*

Başı bəlalı yurdun şairi olmaq da çətindi. Nəsimini yadların fitvasıyla Hələbdə soydular. Müşfiqi və minlərlə onun kimilərini 1937-ci ildə yadlar güllələdilər. Vətəni oğul-oğul budadılar.

Çox vaxt Vətənə oğul olduğumuzu, boynumuza düşən borcu unuduruq. Mehdi Cəlal da bax onda dilə gəlib deyir:

*Səni də salırlar "ölçü-biçiyə",*
*Sən də hər gün, - "salam-sağ ol"*
*deyirsən.*
*Gedib ana yurdu yağıya verib,*
*Gəlib öz adına oğul deyirsən.*

Bu şeir yalançı vətənpərvərlərin, boynunun borcunu unudanların haqlı qınağıdır. Şairin bu sözləri deməyə haqı var:

*Ümidsiz yaşamaq ölümdən betər,*
*Qəmli gecələrin səhəri yoxdu.*
*Anam da dünyadan köçüb gedəndən*
*Elə bil dünyanın məhvəri yoxdu.*

*Bir dolan bulud var bu göy üzündə,*
*Göz yaşı qan olan bulud, ay bulud.*
*Bir çiçək istəsən çölün düzündən,*
*Bir az dərdlərini unut, ay bulud.*

Burada açıqlanmalı bir neçə tutumlu misra var. "Qəmli gecələrin səhəri yoxdu" misrasında şair nə deyir? Axı hər gecənin öz səhəri var. Səhər işıqdı, aydınlıqdı, sevincdi. Şair demək istəyir ki, qəmli, qüssəli, göz yaşı içində boğulan gecə işıqlı, sevincli səhər doğa bilməz. Onun səhəri də özü kimi dərdli, qəmli, gözü yaşlı doğulacaq. Dünyanın məhvəri analardı. Gözəldi. Anasını itirmiş şairin dünyasının məhvəri yoxdu. O məhvəri anası özüylə aparıb. Ana haqqında yaxşı tapıntıdır.

"Göz yaşı qan olan bulud" ana itirmiş şairin dolmuş gözləridir. Şairin gözləri sevincini, gülüşünü itirəndən çöllər də gülsüz, çiçəksiz qalıb.

Biz qarışıq bir dünyada yaşayırıq. Pərəni pozulub, rəngləri qarışıb. İstisi adamı qızdırmır, soyuğu üşütmür. Haqqı taxtdan salıb, haqsızlıq oturub onun yerində. Mehdi Cəlal da yuvasından perikmiş quş kimi yoxa çıxmış haqqı axtarır və ona elə gəlir ki, gördükləri bir yuxudu. Ancaq niyəsə bu yuxunu da yoza bilmir, çünki gördükləri yuxu deyil:

*Mən özüm özümə sirrəm,*
*Ulu bir ruha əsirəm.*
*Doğulandan Haqq gəzirəm,*
*Bu yolda aza bilmirəm*

*Ömür bir şirin qorxudu,*
*Dəm ağladır, qəm oxudur.*
*Bəlkə bu dünya yuxudu,*
*Bəs niyə yoza bilmirəm.*

Hər bir yaxşı şeir bir bağlı boxçadır. Onun yazılmış misralarının altında yazılmamış misralar yatır. Şeiri oxuyanda qulaqlarına gələn səslərdən başqa eşitmədiyin səslər də var. Əgər bu alt qatdakı səslər yoxdusa, onda şeir quru söz yığınından başqa bir şey deyil. Mehdi Cəlal "Doğulandan Haqqı gəzir". Nəsimi də Haqqı gəzirdi və onu tapmayanda "Haqq mən özüməm deyirdi". Bunu dediyinə görə də şairin dərisini soydular. Mehdi Cəlalın canındakı Nəsimi yaşının qorxusu da buradan gəlir.

Şair dünyanı ona görə yuxu sayır ki, gördüklərinə inanmır. Ancaq bu "yuxunu" da yoza bilmir. Onu yozmaq çətindi. Ona görə çətindi ki, "itib-batıb yollar, izlər Qaranlıqlar içində". Bu yuxunu yozmaq ona görə çətindi ki, "Bir qızın eyni açılmır, Bir qızın üzü gülmür". Bu qızın üzü gülmədikcə, şair də dünyanın dolaşıqlıqlarından, rənglərinin qarışmağından baş açmır, onu dolaşdıranları, rənglərini qarışdıranları qınamaqdan başqa əlindən nə gəlir ki, şairin!

"Mən doğranmış bir Vətənin Qanlı yaddaşıyam, dünya" deyən şairi pərəni pozulmuş, tüstüsü başından yox, dabanından çıxan dünya necə ovundura bilər. Axı bizim yaşadığımız dünyada "Qəlbi genişlərin yeri dar olur. Haqqı ürəyində məşəl edənlərin Yolu çovğun olur, yolu qar olur".

Ancaq dünyanı dörd gözlə görən, duyan şair bu anda onun yaxasını buraxıb, insanın yaxasından yapışır, onu qınayır. "Günahkar insandı, dünya neyləsin" deyir. Mehdi Cəlalın ürəyi doludu, hələ sözünü deməyib.

**Ənənədən uzaq düşmüş şair özülsüz divardı, köksüz ağacdı. Gec-tez o ağac quruyacaq, o divar uçacaq. Mehdi Cəlal şeirə ənənədən gəlib. Onun yaradıcılığı möhkəm özül üzərində qurulmuş binadı. Ənənə və novatorluq anlayışlarını çox zaman qarışdırırlar. Novatorluğu (yenilikçiliyi) əllaməlik kimi başa düşürlər. Poeziya isə əllaməliyi sevmir. Şeir ruhun qidasıdır. İnsan ruhu əllaməliklə qidalana bilməz. Ruhu qidalandıran şeirdəki hisslər, duyğular, fikirlərdi. Onları o qədər gözəl demək lazımdır ki, ruha yatsın, insanın könlünü oxşasın, ovsunlasın. Mehdi Cəlalın belə şeirləri çoxdur.**

**İstanbulda keçiriləcək Konfransda 500-dən çox sənaye mütəxəssisinin iştirakı gözlənilir**

Təşviqedici Səyahət Mükəmməlliyi Cəmiyyəti (SITE) 2024 Qlobal Konfransını 26-29 Fevral 2024-cü il tarixlərində İstanbulda keçirəcək. Adalet.az Türkiyənin Azərbaycandakı səfirliyinə istinadən xəbər verir ki, Türkiyədə təşviqedici turizmin inkişafı üçün intensiv iş aparan SITE maksimuma çatdırmağı və sektorun inkişafına töhfə verməyi hədəfləyir. Sektor Peşəkarları İstanbulu kəşf edəcəklər SITE-nin ən mühüm tədbiri olan Qlobal Konfrans sənayenin gələcəyini formalaşdırmaq və əlaqələr qurmaq, həmçinin öyrənmə, kəşf və əməkdaşlıq kanalları yaratmaq üçün hər il dünyanın hər yerindən olan səyahət və həvəsləndirici turizm peşəkarlarını bir araya gətirir.

babve və Yaponiya var. Məlumata görə, B2B tədbirin 2024-cü il buraxılışı ilk dəfə gələn ilin fevral ayında Türkiyədə keçiriləcək.

**Türkiyədə təşviqedici turizmin inkişafı üçün intensiv fəaliyyət göstərən SITE Türkiyə tərəfindən İstanbulda keçiriləcək Konfransda 500-dən çox sənaye mütəxəssisinin iştirakı gözlənilir. Üç gün davam edəcək tədbir konfrans və şəbəkə bölmələrini əhatə edəcək, iştirakçılara təşviqedici turizm ekspertləri ilə əlaqə yaratmaq, müxtəlif təlimlər vasitəsilə ən son təşviq tendensiyalarını öyrənmək və sənayedəki həmkarları ilə fikir mübadiləsi aparmaq üçün əvəzolunmaz imkanlar təqdim edəcək. Bundan əlavə, SITE Qlobal Konfransı turizm mütəxəssislərinə bu vaxta qədər dünyanın ən yaxşı 10 təşviqedici istiqamətlərindən biri olan Türkiyəni kəşf etməyə imkan yaradır.**

# İstanbul 2024-cü ildə SITE Qlobal Konfransına ev sahibliyi edəcək

Türkiyə tərəfindən təşkil edilən bu konfrans dünyanın fərqli nöqtələrindən gələn iştirakçılara Türkiyəni kəşf etmək fürsəti təqdim edir. 2024-cü ilin fevral ayında İstanbul, 50 illik Təşviqedici Səyahət Mükəmməlliyi Cəmiyyətinin (SITE) imza tədbiri olan Qlobal Konfransa ev sahibliyi edəcək. 2024 SITE Qlobal Konfransının təşviq turizmi çərçivəsində İstanbula sektordan yüzlərlə iştirakçını cəlb edəcəyi gözlənilir. 90 ölkədə 2500-dən çox üzvü və yarım əsrlik tarixi olan SITE təşviqedici turizmin aparıcı birliyidir. Sektor təcrübəsinin hesablana bilən nəticələrini qlobal iş dünyası ilə bölüşən SITE-nin dünya üzrə 27 yerli və regional şöbəsi var. Türkiyə, birliyin Avropadakı sektoral motivasiya gücü şüurunu genişləndirən bölgələr arasındadır. SITE, üzvləri və peşəkarları ilə öz seqmentində ən yaxşı həll yollarını və qlobal əlaqələri bir araya gətirərək və inkişaf etdirərək həvəsləndirici turizmin təsirini



SITE Qlobal Konfransının iştirakçıları şəbəkə qurmaq, mühüm əlaqələr yaratmaq və yeni fürsətləri birinci əldən öyrənmək şansı kimi imtiyazlardan yararlanacaqlar.

Dünyanın hər yerindən üzvləri olan SITE-nin konfrans iştirakçı ölkələri arasında Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Kanada, İrlandiya, Fransa, İsveçrə, İspaniya, Meksika, Almaniya, Argentina, Aruba, Avstriya, Avstraliya, Baham, Belçika, Braziliya, Kayman adaları, Çin, Xorvatiya, Kosta-Rika, Çexiya, Misir, Macarıstan, İslandiya, Hindistan, İsrail, İtaliya, Latviya, Hollandiya, Panama, Portuqaliya, Şotlandiya, Sinqapur, Sloveniya, Tayvan, Tayland, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Zim-

# Məşhur məmurun evində işləyən dayə: "Anam öləndən sonra qardaşlarım mənimlə..."



**Adalet.az-ın əməkdaşı "qadın taleyi" rubrikasında daha bir qadının həyat hekayəsini təqdim edir. Bu dəfə sizə Zülfiyyənin (adı şərtidir) həyatından danışacağıq. Zülfiyyə deyir ki, anası öləndən sonra qardaşları ondan üz döndərib. Əslində o özünü günahkar bilmir, deyir ki, qəza oldu. O, olanları belə nəql edib:**

"1993-cü ildə rayonumuz işğaldan azad ediləndən sonra Sumqayıta köçdük. Düzdü, indi Vətən müharibəsindən sonra rayonumuz işğaldan azad edildi. Sumqayıtda yaşadıq, böyüdüm və ailə qurdum. Ailə həyatım da uğursuz oldu. İki övladım var və həyat yoldaşım ilin demək olar ki, çox ayını Rusiyada olur. Artıq bir-birimizdən soyumuşuq. Bunu o da, mən də bilirəm. Sözsüz ki, Rusiyada işləyib yaşayırsa həyatında qadın var. Mən isə sizin tanıdığınız bir məmurun evində dayə işləyirəm, amma adını deyə bilmərəm".

### *"Dedilər ki, anamız sənə görə öldü..."*

"Anamla, qardaşlarımla münasibətimiz yaxşı idi, gedib-gəlirdik. Atam isə illər öncə rəhmətə gedib. Bir gün anamla yolu keçəndə maşın anamı vurdu. Bir-birimizi çaşdırdıq, o irəli, mən geri çəkildim, sürücünü də çaşdırdıq. Anam elə hadisə yerində dünyasını dəyişdi. Yas mərasimindən sonra qardaşlarım mənimlə düşünüşdü. Dedilər ki, anamız sənə görə öldü. Necə yol keçirdiniz ki, sən qaldın, amma o öldü".

### *"Amma bir gün könül sirdaşım qarşıma çıxsa..."*

"Bu soyuqluq indi də davam edir. Mən axı necə öz anamın ölümünə səbəb ola bilərdim? Arxam, dayağım anam idi. Qardaşlarım isə bunu heç cür başa düşmürlər. Qadının başsız olması çox pis şeydi. Hər dəfə hansısa kişi bunu biləndə sənə yaxınlaşır, nəsə istəyir. Elə bizi işə aparıb-gətirən sürücünün də mənə gözü düşüb. Bilir ərim burda yaşamır. Mən isə istəmirəm, ürəyimcə olan adam deyil. Amma bir gün könül sirdaşım qarşıma çıxsa, onunla dünyanın ən gözəl dəqiqələrini yaşamaq istəyərəm".

**Vasif Əlihüseyn**

# *Gülyaz Məmmədova:* "Onların hər birini finala apara bilərdim, sadəcə..."

**"Bu, Azərbaycanda ilk dəfə bizdə oldu ki, doğma nəğmələrimizə müraciət olundu. Bilirsiniz ki, dünyada məşhur olan bu layihədə əcnəbi və dünya musiqiləri səsləndirməyə ixtiyar verilib. Məhz bizdə özünüz də şahidi oldunuz ki, ancaq milli, bəstəkar və xalq mahnılarımızdan ibarət mahnılar təqdim olundu"**

Bunu Adalet.az-a açıqlamasında "O səs Azərbaycan" yarışmasında münsiflər heyətinin üzvü, Xalq artisti Gülyaz Məmmədova deyib. Xalaq artisti bu layihədən məmnunluğunu ifadə edib:

"Çox gözəl bir layihədir. Mən çox razı qaldım. İctimai Televiziyanın rəhbəri hörmətli Balakişi Qasımov tərəfindən bura dəvət almışdım. Təbii ki, onun kollektivinin razılığı ilə işə başladıq. O komandanın üzvlərindən Tural Sevdimalı və Anastasiya Kolyagina ilə görüşümüz oldu. Layihədə Kəmalə Rzayeva, Leyla Amirova, Ülviyyə Bəbirli, Fərrux bəy və başqa yoldaşlar çalışırdı. Layihənin aparıcısı Azər Süleymanlı idi. Rejissor Sərxan Aydınoğlunun komandası çalışırdı. İştirakçıların vokal və milli məşqlərini bizə qədər Humay Aslanova və Əməkdar artist Səbuhi İbayev icra etdi. Çünki biz uşaqlarla təmas qura bilməzdik. Gülyanaq xanımın verilişdə ifası isə sürpriz oldu.

Əvvəlki seçimlər bölgələr üzrə İctimai Televiziya tərəfindən aparılır. Bakıya dəvət olunandan sonra yenidən seçim olur. Müsabiqədə biz ifaları eşidib onları seçirik. Komandalar seçiləndən sonra təbii ki, qarşıdurmalar olur. Finalımız martın 20-də baş tutdu. İllərdir ki, Muğam müsabiqələrində münsifəm, amma bu cür gedişatı ilk dəfəydi ki, görürdüm. Müsabiqədən öncə İctimai Televiziyanın kollektivi ilə Şuşaya getdim. Orda Opera Teatrımızın tamaşalarından böyük bir film konsert yaratdılar. Həmin o tədbirdə İctimai Televiziyanın necə bir ailə olmasını orda görmüşdüm. Bu "O səs Azərbaycan" layihəsində də özünü göstərdi.

Təəssüf edirəm ki, müsabiqə zamanı qardaş Türkiyədə zəlzələ oldu və ardınca şəhidlər verdik. Buna görə fasilələr verdik. Amma buna baxmayaraq İctimai Televiziyanın "O səs Azərbaycan"nın "Doğma nəğmələr" layihəsi xalqa bunu sübut etdi".

G.Məmmədova layihədə öz tələbələrinin də iştirak etdiyini bildirib:



"Layihədə görmədən seçimlərdə mənim də tələbələrim var idi. Elə oldu ki, tanıdığım da, tanımadığım da oldu. Məsələn, uşaq vaxtı Gülyaz Həsənzadəylə məşğul olmuşdum. Amma yarışda tanımadım, artıq böyümüşdü. Hazırda "O səs Azərbaycan"dan sonra yenidən mənim tələbəmdi, muğam dərslərini davam edirik. Əvəzxan Əzizov Gülyanaq xanım Məmmədovanın tələbəsi idi, sən demə qazi imiş. "Azərbaycan maralı" mahnısını ifa etdi. Səsinin gözəlliyi məni özünə cəlb etdi və qazi olduğunu bilməyim daha da təsirləndirdi. Orda mənim çevrilmədiyim bir tələbəm var idi, Telli Əbilova o da İlqar müəllimin komandasına düşdü və çox sevindim. Mənim daha bir tələbəm Elvin Abbasov idi, "Deyin hardadır" mahnısını ifa etdi. Məndə yer doldu-ğu üçün çevrilə bilmədim və o, Samirə xanımın komandasına düşdü. Yəni burda biz ustadlar arasında mehribanlıq vardı. Gözəl səsləri komandalarımıza götürəndə sevinirdik. Burda bir dostluq, sevgi, mehribanlıq rəqabəti var idi. Yəni bir-birimizin qələbəsinə sevinən adamlar idik. İlqar müəllimin komandasında da gözəl səslər var idi.

Uşaqların səsləri bir-birindən gözəl idi. Həm də çox kövrək anlar yaşadıq. Çünki hamısı finala getmək, qalib olmaq istəyir. Orda təbii ki, sən düşünürsən ki, neyləyəcəksən. Onların hər birini finala apara bilərdim, yəni o dərəcədə güclü uşaqlar idilər. Hər üç komandada belə uşaqlar var idi. Sadəcə düşünüb birində dayanırsan. O da mənim komandamda Zülfi Əsədzadə idi. Zülfi sona qədər getdi və gözəl çıxışı ilə özünü doğruldub birincilik əldə etdi. İlkin Dövlətov və Sabir də birinci yerə layiq idi. Samirə xanımın komandasında da belə uşaqlar var idi. Hər birinə təşəkkür edirəm.

Orda hətta elə uşaqlar var idi ki, yer məhdudiyyətinə görə və xanəndələr hədsiz çox olurdu deyə dönə bilmirdik. Çünki istəyirdik ki, estrada səslərimiz, vokal ifaçılarımız da olsun. Mən xanəndəyəm deyə tək xanəndə seçə bilmərəm. O zaman mən ustad sayılmıram. Özünüz bilirsiniz ki, yanımdakı ustadlarımız da, Gülyanaq xanım da, mən də Azərbaycan musiqisini dünyada təmsil edən insanlarıq. Biz hər növ mahnı oxumuşuq. Ona görə də mən elə etməliydim ki, komandamda hər bir səsim olsun.

Çox maraqlı və diqqət çəkən bir layihədir. Layihənin xaricdən qonaqları da gəlib iştirak etdilər. Bu layihədə milli musiqimiz çox yüksək səviyyədə qarşılandı. Gələcəkdə bundan da möhtəşəm olacaq".

**Vasif Əlihüseyn**

# "O səs Azərbaycan"ın qalibi: "İçimdə bir az ümidsizlik var idi..."

***Adalet.az-ın bu dəfəki müsahibi gənc müğənni "O səs Azərbaycan"ın qaliblərindən biri olan İlkin Dövlətovdur.***

***Qeyd: İlkin Dövlətov 1990-cı ildə Cəlilabad rayon Muğan kəndində musiqiçi ailəsində anadan olub. Uşaq yaşlarından mahnılar ifa etməyə başlayıb.***

**- İlkin, bizə belə aydın oldu ki, həm atan, həm də anan ifaçı olub...**

- Anam orta məktəbdə oxuyanda Şövkət xanım və digər sənətkarlar rayonları gəzib istedadlı uşaqları tapıb Bakıya aparırmışlar. Lənkəranda müsabiqə olanda məktəbdən anamı da müsabiqəyə aparıblar. Orda anam öz ifasıyla birinci yerə layiq görülüb. Babama deyiblər ki, uşağı ver Bakıya aparaq. Amma babam icazə verməyib deyib ki, qoymaram qızım oxusun. Bununla da anamın arzuları yarımçıq qalıb. Atam Sərdar da xanəndədir.

O, isə ilk əvvəl qoşa nağara, sonra nağara ifa edib. Ondan sonra müğənni kimi mahnılar ifa etməyə başlayıb. Mən də gözümü açandan musiqinin içində böyümüşəm deyə mahnılar ifa etməyə başladım.

**- Bakıya nə vaxt gəldin?**

- Bakıya 2006-cı ildə gəldim. ATV kanalında bir mahnı müsabiqəsi keçirilirdi. Seçimlərə qatılıb sonuncu tura qədər getdim. Onda 16 yaşım var idi, orda dedilər ki, yaşın azdı səni bura götürə bilmərik. Onda bir az xəyal qırıqlığına uğradım. Onda məni bir musiqi məktəbinə məsləhət gördülər. O məktəb isə pullu olduğu üçün oxumağa imkan olmadı. Ardınca Xəzər televiziyasında "Nar star" müsabiqəsi var idi, onlar da rayonları gəzib, istedadlı uşaqları üzə çıxarırdılar. Bakıdan durub Lənkərana getdim və seçimlərə qatılıb birinci yeri tutdum. Sonra məni Bakıya gətirdilər. Orda bir qayda var idi ki, əsas heyətə düşmək üçün sms lazım idi, amma mənim sms-im az olduğu üçün əsas heyətə düşə bilmədim. Ondan sonra "Space" kanalında "Azər star" müsabiqəsinə qatıldım. Ordakı münsiflər Yaşar Nuri, Aygün Səmədzadə, Faiq Sücəd-



dinov və Paşa Qəlbinur idi. Müsabiqədə seçilib əsas heyətə düşdüm və beşinci yerə qədər gəldim. Artıq 2009-cu il idi. Ondan sonra müsabiqələrə fasilə verdim.

**- Musiqi təhsilinə nə vaxt başladın?**

- Ondan sonra səsimin dəyişməyinə görə musiqi təhsilimi davam etdirməyə başladım. Onda bizim böyük sənətkarımız Teymur Əmrahdan fərdi dərs alırdım. Çox sağ olsun Teymur müəllim mənə iki il dərs dedi. Ondan sonra səsimin mutasiya dövrü bitdi və başladım el şənliklərində, səliqəli səhnələrdə dolanışıq üçün ifalar etməyə.

**- Bəs "O səs Azərbaycan" müsabiqəsinə necə qatıldın?**

- Ümumiyyətlə, səs müsabiqəsi Hollandiyanın yarışmasıdır. Amma bütün dünyada bu geniş yayılıb. Bizdə isə bu müsabiqə əvvəl AzTV-də idi, 2005-ci ildən müsabiqələr keçirilirdi. Artıq iki ildir ki, lahiyə İctimai Televiziyada keçirilir. Mən isə bütün müsabiqələri izləyirdim. İctimai kanalda "O səs Azərbaycan" müsabiqəsi başlayanda dostlar mənə xəbər etdilər. Müsabiqəyə qatıldım. Əslində əvvəlki müsabiqələrə görə bir az içimdə ümidsizlik var idi. Müsabiqədə yetmiş nəfər iştirak edirdi. Yarış zamanı mən hər şeyi diqqətlə izləyirdim.

Ona görə də qərar verdim ki, İlqar Xəyalı seçəcəm. Sonda hər münsifin bir tələbəsi finala qaldı. İlqar Xəyalda mən, Gülyaz Məmmədovada Zülfü Əsədzadə, Aşıq Samirə xanımda isə Türkan Məlikzadə qaldı. Sonda sms yarışı oldu və mən ikinci yeri tutdum.

Mən hazırda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Əməkdar artist Zakir Əliyevin sinfində muğam təhsili alıram. Bununla yanaşı, mahnılar da bəstələyirəm. Bundan sonra məqsədim odur ki, ancaq xalq mahnılarımızı ifa edib, dünya ictimaiyyətinin diqqətinə çatdırım, ölkəmizi təmsil edim.

**Vasif Əlihüseyn**

## *Nazpəri Dostəliyeva: "Mənim də alnıma bu yazı yazılıb"*



**Xalq artisti Nazpəri Dostəliyeva mərhum bacısı, müğənni Zeynəb Dostəliyevanın yoxluğundan söz açıb.**

Adalet.az xəbər verir ki, Dostəliyeva bu barədə , Xəzər Tv-də yayımlanan "Xəzər axşamı" verilişində danışıb: "Ümumiyyətlə, hər zaman həyatda, sənətdə nə qazandımsa, kədərimdən qazandım. Bu hər zaman belə oldu. Mənim də alnıma bu yazı yazılıb. Amma Allahdan gələn nə varsa, hər birimiz səbir diləyib, şükür etməliyik.

Çünki Allahın yazısına bəndənin heç bir müdaxiləsi olmamalıdır. O yazıya pozu yoxdur deyirlər...", - deyə, xalq artisti qeyd edib.

## *Aparıcı od püskürdü*



**Aparıcı Tarix Əliyev (Tolik) sosial şəbəkədə paylaşımı ilə gündəmi zəbt edib.**

Adalet.az xəbər verir ki, , aparıcı, instaqramda kəskin status yazıb. "Kiminsə acığına xoşbəxt görünən qadınlara yazığım gəlir. Allah ailənin müqəddəs, saf olması üçün insanlara hər zaman kömək edir. İçi qara olan, öz ailəsi üçün yox, instaqrama görə yaşayan bəzi xoşbəxt görünmək istəyən qadınlar heç analıq hissi nədir bilmirlər. Təki restoran, konsret olsun, hamı desin ki, bəxtəvərdir", - deyə, Tolik fikir bildirib.

**Əntiqə**

## *Fransa nazirindən "çılpaq" etiraz*




**Son zamanlar ictimaiyyətin sərt reaksiya verdiyi Fransa prezidenti Makronun ən etibarlı adlarından biri olan Sosial Müdafiə naziri Marlene Schiappa diqqətçəkən bir addım atıb.**

Böyüklər üçün nəzərdə tutulmuş məzmunu ilə tanınan "kişi jurnalı" Playboy, Fransa siyasətində yeni müzakirə mövzusuna çevrildi.

Son həftələrdə pensiya yaşının artırılmasına qarşı reaksiyaların artdığı Fransada prezident Emmanuel Makrona dəstək günü-gündən azalarkən, Makronun ən etibarlı adlarından biri olan Sosial İqtisadiyyat naziri Marlene Schiappa bəzi açıqlamalar verib. 40 yaşlı gənc nazirin pozaları ölkəni coşdurub.

Lakin gənc nazirin "Playboy" jurnalı üçün verdiyi "erotik" pozalar Fransa Nazirlər Kabinetinin reaksiyasına səbəb olub.

Schiappa Fransa ictimaiyyətinin və siyasətçilərinin reaksiyasına sərt reaksiya verdi. Şəxsi Twitter hesabından açıqlama verən nazir, "Qadınların hər yerdə və hər zaman bədənlərinə nəzarət etmələrini müdafiə edirəm. Fransada qadınlar azaddır. Alçaltmağa çalışanlara baxmayaraq.

**Emin**

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 124
Çapa imzalanmışdır: 06.04.2023